**Hər kəs ədalətli olacaq**

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *İctimai-siyasi, hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 19 (6062) 31 may 2024-cü il | Qiyməti 40 qəpik

# ALIN HA, YANA-YANA QALIN HA, BİZ XOCALIDAYIQ!




## Ərdoğan: "Ən çox çevriliş cəhdinə məruz qalan hökumət bizik"



**Türkiyənin hazırkı hökuməti ölkə tarixində ən çox dövlət çevrilişi cəhdlərinə məruz qalıb.**

Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 27 may 1960-cı il dövlət çevrilişinin ildönümünə həsr olunmuş Demokratiya və Azadlıq adasında keçirilən tədbirdə deyib.

Prezident xatırladıb ki, Türkiyə uzun illər iğtişaş və qeyri-sabitlik girdabından xilas ola bilməyib: "27 may 1960-cı il hadisələrindən sonra oxşar çevriliş cəhdləri hər 10 ildən bir təkrarlanırdı. Hər şey eyni ssenari üzrə təkrarlandı: küçə iğtişaşları, universitetlərdə etiraz aksiyaları, qəzetlərdə sifarişli yazılar. Türkiyə tarixində ən çox çevriliş cəhdinə məruz qalan hökumət bizik. Ancaq bütün bu cəhdlər uğursuz olub".

Ölkə lideri yeni "vətəndaş konstitusiya"nın qəbul edilməsinin zəruriliyini bir daha vurğulayıb. Ərdoğan həmçinin parlamentdə keçiriləcək müzakirələr zamanı müxalifət partiyalarını yeni konstitusiyanın qəbul edilməsi məsələsini dəstəkləməyə çağırıb.

## DİN vətəndaşlara kiber cinayətkarlarla bağlı müraciət etdi



**Kiber cinayətkarlar "O" hərfini böyük hərf, kiçik hərf və ya "0" rəqəmi, "l"-dan "i", yaxud əksinə geniş istifadə edirlər.**

Adalet.az xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin rəisi, polis polkovnik-leytenantı Elşad Hacıyev sosial şəbəkə hesabında məlumat verib. Onun sözlərinə görə, bu, ilk baxışdan da anlaşılmır, real URL-dən fərqləndirməyi çətinləşdirir: "Bunlar fişinq mesajlarda, saxta cəlbedici endirim kampaniyalarının keçid linklərində müşahidə olunur.

Fişinq e-poçtlarına və mesajlarına daxil edilən URL-lər sizdən həddən artıq əlavə şəxsi məlumat daxil etməyi xahiş edir. Şəxsi məlumatlarınızı daxil etməyinizi tələb edən pəncərə görünür və arxa fon şəkli real saytla eyni görünür. Aldanmayın!".

## Vahid Əhmədov: «Müharibə veteranlarına 80 manatın verilməsi gülüncdür»

**"Hər il Dövlət Sosial Müdafiə Fondu kifayət qədər qalıq saxlayır. Məsələn, İşsizlikdən Sığorta Fondunda 56 milyona yaxın ehtiyatınız var, onun 3 milyonunu xərcləyirsiz, 53 milyonu qalır. Bu qalığı saxlamqda məqsəd nədən ibarətdir? Bu vəsait planlaşdırılıbsa, xərclənməlidir. Bir neçə dəfə məsələ qaldırdıq ki, əhaliyə verilən 300 manatı artırıb 500-600 edin və qalıq olmasın".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında büdcəyə dəyişikliyin müzakirəsi zamanı deputat Vahid Əhmədov deyib.

O bildirib ki, deputatların demək olar hamısı müharibə veteranlarına verilən 80 manat məsələsini qaldırırlar: "Bu məbləğin verilməsi ayıbdır.

Belə inkişaf etmiş dövlət müharibə veteranına 80 manat verir. Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin əməkdaşları məlumat verirlər ki, guya 80 manat bütün kommunal xərcləri ödəyir.

80 manatın verilməsi gülüncdür. Bu məsələyə baxılmasını xahiş edirəm".

## Türk ordusunda qadağa



**Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətinə Tik-tok platformasından istifadə qadağan edilib.**

Bununla bağlı Türkiyə Böyük Millət Məclisinə təqdim edilən qanun layihəsi Milli Müdafiə Komissiyası tərəfindən qəbul olunub.

Türkiyə ordusunun əsgərlərinin hərbi hissələr və xüsusi əməliyyatların keçirildiyi bölgələrdən aktiv paylaşım etməsinin hərbi təhlükəsizlik riskini artırdığı bildirilir.

**Aqil ABBAS**
aqilabbas@rambler.ru

# LAÇINIM, LAÇINIM, LAÇINIM MƏNİM!



*Deməli, belə. Mən və xanımım mayın 24-də Laçında keçiriləcək Xalça sərgisinə dəvət olunmuşduq. Qərara gəldim ki, həmişə getdiyim, ənənəvi yolla - Ağdam-Şuşa-Laçın yolu ilə gedim. Təbii ki, bu yoldan keçməyə icazə aldım. Ayın 23-də Quzanlıdan çıxdım üzü gülləbədinə, yəni Laçına.*

*İşğaldan azad olunandan sonra haçan Ağdama yolum düşürsə mütləq olmayan həyətimizə bir baş çəkirəm. Bu dəfə ənənəni pozdum. Bu 45 ildə xanımıma bu şəhər haqqında, bu şəhərin camaatı haqqında, igidləri haqqında o qədər danışmışam ki, indi Ağdamı mənim qədər tanıyır. Buna baxmayaraq, yenə danışıram. O da xətrimə dəyməmək üçün diqqətlə qulaq asır.*

**Bax: səh.3**

## Prezident İlham Əliyev "Media haqqında" qanunun icrası ilə bağlı bəzi fərmanlarda dəyişiklik edib



**Prezident İlham Əliyev "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1127-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.**

Fərmana əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 5 aprel tarixli 1127-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar qərara alıram:

1. "Azərbaycan Respublikası Seçki Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 3 iyun tarixli 875 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 281 (Cild I) 3-cü hissəsinin yeddinci və səkkizinci abzaslarında "Milli Televiziya və Radio Şurası" sözləri "Azərbaycan Respublikasının Audiovizual Şurası" sözləri ilə əvəz edilsin.

2. "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 5 noyabr tarixli 141 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 905 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1-1-ci bənddə "17.2.5-17.2.9-cu maddələrində nəzərdə tutulmuş təşkilatlar qruplarında" sözləri "17.2-ci maddəsində göstərilən təşkilatlardan (təşkilatlar qruplarından)" sözləri ilə və həmin bənddə "Milli Televiziya və Radio Şurası" sözləri "Azərbaycan Respublikasının Audiovizual Şurası" sözləri ilə əvəz edilsin;

2.2. 3.2-ci bənddə "Milli Televiziya və Radio Şurası" sözləri "Azərbaycan Respublikasının Audiovizual Şurası" sözləri ilə əvəz edilsin.

3. "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 411-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 696 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 848 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

## Finlandiyanın dövlət başçısı Prezident İlham Əliyevi təbrik edib

**Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.**

Məktubda deyilir:

"Zati-aliləri.

Azərbaycan Respublikasının Müstəqillik Gününün 106-cı ildönümü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır, ölkənizə və xalqınıza firavanlıq, tərəqqi arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, 2024-cü il noyabrın 12-13-də Bakıda keçiriləcək İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammitinə dəvətinizə görə Sizə minnətdarlığımı bildirirəm. Mən Sizin dəvətinizi məmnunluqla qəbul etmişəm və COP29-da iştirak etməyi səbirsizliklə gözləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm".

*Aqil ABBAS*

# XANKƏNDİNDƏ MƏNİ YOL POLİSİ SAXLADI

*İnanmazsınız, Yol polisinin məni saxlaması o qədər xoş oldu ki. Və sevindim də.*

*Mən şəhərdə demək olar ki, maşın sürmürəm, əsəblərim götürmür. Amma rayonlara gedəndə, xüsusilə də ailəmlə gedəndə, sükanın arxasında həmişə özüm oluram. Laçında xalça sərgisi keçirilirdi, məni və xanımımı da dəvət etmişdilər.*

*"Ya Allah" deyib üz tutdum Ağdam-Şuşa-Laçın yoluna. 37 ildən sonra ilk dəfəydi bu yolla Laçına gedirdim. Ürəyim atlanırdı. Yolboyu bu yolu açan şəhidlərimizə rəhmət oxuyurdum, qazilərimizə şəfa diləyirdim və Müzəffər Ali Baş Komandan, Cənab Prezident İlham Əliyevə də uzun ömür, can sağlığı arzulayırdım və deyirdim ki, Allah Ali Baş Komandanın əlindəki Həzrət Əli qılıncına qüvvət versin.*

*Nəhayət, gəldim çatdım Xankəndinə. "Qarabağ"ın "MOİK"lə Xankəndi stadionunda Kubok oyununda iştirak etməsidim. Onda Xankəndində gəzmişdim. Maşını döndərdim Xankəndinə ki xanımım da gəzsin azad olan Xankəndində, ürəyi açılsın.*

*Elə təzəcə Xankəndinə girmişdim ki, qarşıdan gələn Yol polisi maşını məni saxladı. Cavan, sütül, boylu-buxunlu serjant özünü təqdim elədi. Çox təəssüf ki, soyadı yadımdan çıxıb, mən də həmin vaxt telefonla danışırdım. Dedi ki, sükan arxasında telefonla danışmaq olmaz, bu 80 manat cərimə və 3 baldır. Mən də gülümsəyirəm, serjant da çaşıb baxır ki, mən bunu cərimələyirəm, bu da gülümsəyir. Çox xoşhallanmışam ki, məni Xankəndində öz Yol polisimiz saxlayıb cərimələyir. Cəriməni ödəməyə hazırlaşırdım ki, bir polis zabiti yaxınlaşdı. Salam verdi və serjanta dedi:*

*- Müəllimi tanımadın? Aqil Abbasdı.*

*Serjant da:*

*- Müəllim, buyurun, gedə bilərsiniz.*

*Qayıtdım ki, mən doğrudan cəriməni ödəmək istəyirəm, özü də bu cərimə mənə ləzzət eləyir. Amma cərimələmədilər, yaxşı yol arzuladılar.*

*Mən bir neçə dəfə televizyonda da demişəm, yazılarımda da yazmışam. Ki, neyləyirəm o "Mersedes"i ki Ağdama gedib Cəfərin çayxanasının qabağında saxlayıb, sonra da forslu-forslu düşüb çayxanaya girməyəcəyəmsə.*

*İndi maşınımı, "Mersedes" olmasa da, bir marketin qabağında saxlayıb forslu-forslu düşdüm, marketin önündəki adamlarla forslu-forslu əl tutub görüşdüm, sonra da forslu-forslu bir qazlı "Sirab" alıb ləzzətlə içdim.*

*Niyə də forslanmayım? Meydanında müqəddəs bayrağımız dalğalanan Xankəndində məni Azərbaycanın Yol polisi saxlayıb, sonra da həmin bayrağı ziyarət etmişəm, xankəndililərlə görüşmüşəm və ləzzətlə "Sirab" içmişəm.*

*Belə forslanmağı hamıya arzulayıram.*

# SUÇULAR DOLUŞUB SOSİAL ŞƏBƏKƏLƏRƏ

**Nə mazarat adamdır bu bolşeviklər. İndi bolşevik yoxdu, amma bolşevik təfəkkürlü adamlar hələ də var.**

**İki-üç gün bundan əvvəl "Xankəndidə məni yol polisi saxladı" adlı kiçik bir köşə yazmışdım. Sağ olsun dost saytlar, hamısı da bu yazını sevgiylə paylaşıb, altında da şərhlər var. Şərhlərin çoxu da sevgi doludu. Təbii ki, bolşevik təfəkkürlü adamların nifrət dolu şərhləri də var. Onlarla heç bir işim yoxdu.**

**Amma bir məsələyə aydınlıq gətirmək istərdim. Əvvəla, yazıda qeyd etmişəm ki, mən şəhərdə maşın sürmürəm, yalnız ailəmlə rayonlara gedəndə sükan arxasında oluram. Heç vaxt da qanunu pozmaram.**

**Hətta 110 kilometrlik yolda da 90-dan artıq sürətlə maşın sürmərəm, kəmərimi də bağlayıram. Yanımda oturan sərnişin də, təbii ki, sərnişin də xanımımdı, o da həmişə kəmərini bağlayır. Ona görə də məni heç vaxt yol polisi saxlamayıb.**

**Yəni mən birdən-ikiyə yol hərəkəti qaydalarını pozmamışam ki, məni cərimələsinlər. Və onu da bilmirəm ki, indi cərimə yerində ödənilmir. Mən yazmışam ki, telefonla danışırdım, yol polisi saxladı, mənə irad bildirdi və dedi ki, 80 manat və 3 bal cərimə olunursunuz.**

**İndi hamı yazır ki, telefonla danışmaq 50 manatdır. Bilmirəm, bəlkə ondan əvvəl də hansısa səhvim olub, onu bilmirəm.**

**Hətta mənə irad tuturlar ki, niyə cərimələrin miqdarını bilmir. Gərək cərimə olunasan ki, miqdarını da biləsən də.**

**Yazının mahiyyəti qalıb qıraqda, mənim Xankəndidə yol polisi tərəfindən saxlanmağım və buna görə sevinməyim qalıb qıraqda, yapışıblar cərimənin miqdarından.**

**Vaxtilə millət vəkili Fazil Mustafa ilə bağlı bir anekdot yazmışdım.**

**Deməli, Fazil bəy orta məktəbdə oxuyur, məktəbin həyətində sinif yoldaşları ilə dalaşır. Ağzı, burnu qanayır, müəllim gəlib soruşur ki, sənə nə olub?**

**- Müəllim, məni poksla vurdular.**

**Müəllim Fazilin səhvini düzəldir:**

**- Poks yox, boks.**

**Fazil bəy də deyir:**

**- Müəllim, məni qan aparır, sən də məndə hərf səhvi axtarırsan.**

**İndi mənim sevincim qalıb qıraqda, hamı mənim cərimənin miqdarında səhv etdiyimi yazır.**

**Dünən mənə şuşalı şair Əli Mahmud zəng eləmişdi ki, səni saxlayan polis mənim əmim nəvəsidi. Deyir ki, ata-anası da oxuyub çox seviniblər ki, övladları haqqında xoş söz yazmısan.**

**Axşamüstü həmin yol polisinin atası Qabil kişi zəng elədi. Bərdədə İdman Kompleksinin direktorudu. Məlum oldu ki, uzun illərdi bir-birimizi tanıyırıq, o da təşəkkürünü bildirdi. Və soyadını unutduğum o sütül, cavan, boy-buxunlu, tərbiyəli yol polisinin adını, soyadını da söylədi - Məmməd Məmmədzadə.**

**Fürsətdən istifadə edib Məmməd Məmmədzadəyə, eləcə də azad olunmuş torpaqlarımızda soyuqda, qarda, qışda xidmət edən bütün polis işçilərinə uğurlar diləyirəm. Və arzulayıram ki, gələn dəfə də məni saxlasınlar, heç səhvim olmasa da, cərimələsinlər.**

***P.S.*** *Deməli, belə. Dünyanın düz vaxtı şənbəbazar günü ağdamlılar maşınlarını həyətdən çıxarmırdılar. Adi bir səbəbi vardı.*

*Sovet vaxtı kənd əməkçilərinə dövlət öz qiymətinə "Jiquli", "Moskviç" satırdı ki, bazarda o maşınların qiyməti iki dəfə bahaydı. Rəqəm yazmıram, yenə səhv tutarlar.*

*Bundan başqa, qabaqcıl kənd əməkçilərinə dövlət pulsuz maşın da bağışlayırdı. Təbii ki, bunların da çoxunun sürücülük vəsiqəsi yox idi.*

*Belə bir ifadə var: "Jurnalistikanı sirkdə öyrənənlər". İndi bu sürücülük vəsiqəsiz maşın sürən kənd camaatı da maşın sürməyi onun-bunun maşınını əzməklə öyrənirdilər.*

*Ağdam bazarı da dünyanın ən böyük bazarlarından biri idi. Həm ətraf rayonlardan, həm də Ağdamın kəndlərindən şənbə-bazar hamı tökülürdü şəhərə, bazara.*

*Ağdamlılar da şənbə-bazar maşınlarını həyətdən çıxarmırdılar ki:*

*- Suçular şəhərdədi.*

*İndi də ağdamlıların təbirincə desək, suçular doluşublar sosial şəbəkələrə.*

# LAÇINIM, LAÇINIM, LAÇINIM MƏNİM!



*Deməli, belə. Mən və xanımım mayın 24-də Laçında keçiriləcək Xalça sərgisinə dəvət olunmuşduq. Qərara gəldim ki, həmişə getdiyim, ənənəvi yolla - Ağdam-Şuşa-Laçın yolu ilə gedim. Təbii ki, bu yoldan keçməyə icazə aldım. Ayın 23-də Quzanlıdan çıxdım üzü güləbədinə, yəni Laçına.*

*İşğaldan azad olunandan sonra haçan Ağdama yolum düşürsə mütləq olmayan həyatimizə bir baş çəkirəm. Bu dəfə ənənəni pozdum. Bu 45 ildə xanımıma bu şəhər haqqında, bu şəhərin camaatı haqqında, igidləri haqqında o qədər danışmışam ki, indi Ağdamı mənim qədər tanıyır. Buna baxmayaraq, yenə danışıram. O da xətrimə dəyməmək üçün diqqətlə qulaq asır. Şəhərdəki yeni tikilən binalara baxıram, ürəyim açılır, elə onun da.*

*Deyir:*

*- Prezident Ağdamda öz şəhərini tikir. Tayı-bərabəri olmayan bir şəhər.*

*Və bilir ki, bu sözdən xoşum gəlir.*

*Azərbaycanda və dünyada harda olursa-olaq, gedəcəyimiz şəhərə neçə kilometr qaldığını xanımım məndən soruşur:*

*- Batuma nə qədər qalıb? Gəncəyə nə qədər qalıb? Tiflisə nə qədər qalıb?*

*Və sair və ilaxır. Mənim üçün də dünyanın mərkəzi və istinad nöqtəsi Ağdam olduğuna görə həmin məsafələri Ağdamdan hesablayıram.*

*- Ağdamdan Füzuliyə qədər, yəni əlli kilometr, Ağdamdan Şuşaya qədər, yəni otuz yeddi kilometr, Ağdamdan Ağcabədiyə qədər, yəni qırx səkkiz kilometr…*

*Və sair və ilaxır.*

*İndi Ağdamın özündəyik, deyirəm burdan Şuşaya 37 kilometrdi, Laçına 75 kilometr, Xankəndinə də 25 kilometr.*

*Olmayan Qarağacı qəbiristanlığının yanından keçirik. Bu qəbiristanlığın tarixini görkəmli arxeoloq, professor Rəşid Göyüşov yazmışdı, təxminən 2000-3000 il yaşı var. Ağdam-Şuşa yolu qəbiristanlığı yarıya bölür. Sol tərəf lap köhnə qəbiristanlıqdı. Ermənilər dağıdıb yerində taxıl əkmişdilər. Sağ tərəfi də dağıdıblar, amma taxıl əkməyə imkanları olmayıb. Dəmir Yumruğun qorxusundan qaçıb gediblər. Qarağacı qəbiristanlığı qurtaran kimi Əsgəran başlayır. Əsgəran qalasında dünyanın düz vaxtı çox olmuşam, hətta uşaq vaxtımda da. "Koroğlu" filmini burda çəkirdilər. Uşaq yaddaşımda qalıb ki, Koroğlunu oynayan aktyor atın belində oturub saz çala bilmədi, sonra çıxartdılar maşının üstündə çaldı. Amma montajda elə eləmişdilər ki, elə bil atın üstündə çalır.*




*Dünyanın düzələn vaxtında da üç-dörd dəfə Əsgəran qalasını ziyarət etmişəm. Qədir Rüstəmovun oğlu Mehdiylə, daha sonra ustad yazıçı Seyran Səxavətlə, gözəl şairimiz Vaqif Bəhmənliylə də Qalanı ziyarət etmişik.*

*Qalanın tarixi uzaq keçmiş deyil, XVIII əsrdi. Tikdirən xan da məlumdu, tikənlər də, ilk qalabəyi də. Amma ermənilər Qarabağı işğal eləyəndən sonra yaxalarını cırırdılar ki, bu Qala onlara məxsusdu və onlar tikdirib.*

*Maşını Qalada saxlayıram. Xanımım ciyər dolusu Qarabağın, Qarqar çayının, Qalanın havası ilə nəfəs alır. İstəyirəm Qala haqqında məlumat verim.*

*Deyir:*

*- Bir dayan, bu Qala haqqında o qədər danışmısan, Batmanqılınc romanında da bu Qaladan yazmısan, qoy bir gözlərim doysun. Ondansa sən də mənim bir şəklimi çək.*

*Yeri gəlmişkən, dünyanın və Azərbaycanın harasında olursa-olaq bütün fotoları mən çəkirəm. O, birin deyir, mən üç-dörd şəklini çəkirəm.*



*Sonra yenə maşına əyləşib çıxırıq yola, üzü güləbədinə, Laçına.*

*Xocalıya çatanda deyir:*

*- Yadına düşür, burda yolun kənarında bir mağaza vardı, ordan sənə yaşıl rəngdə bir kostyum almışdıq?! O mağazanın qarşısında saxlayarsan.*

*Mağaza yadıma düşür, amma kostyum yadıma düşmür.*

*- Rəhmətliyin qızı, indiyə mağaza qalar?*

*Xocalını gəzirik, ürəyimiz açılır. Gözəl bir şəhər tikirlər - səliqəli, yolları gözəl, məktəbi, bağçası, yaşayış evləri. Bizdən üç-dörd gün sonra Xocalıya ilk qayıdış başlayacaqdı və Möhtərəm Prezident İlham Əliyev xocalılılara evlərin açarlarını özü təqdim edəcəkdi. Xanımı, birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanımla, qızı Arzu Əliyeva ilə xocalılıların qonağı olacaqdı.*

*Xocalını gəzib qurtardıqdan sonra üz tuturuq Xankəndinə. Bu da Xankəndi.*

*Deyir:*

*- Məni apar o vaxtkı Vilayət Partiya Komitəsinin binasına.*

*Bu da üstündə müqəddəs bayrağımız dalğalanan keçmiş Vilayət Partiya Komitəsi, sonra da separatçıların əyləşdiyi bina. Gedir oturur binanın pilləkanlarında.*

*- Orda niyə oturursan?*

*- Atamı yadıma salıram. Bura bir dəfə atamla gəlmişdim. Onda burda oturacaq da vardı. Atam dedi ki, sən gözlə, mən Gevorkovla görüşüb gəlirəm. Beləcə, yarım saat oturdum burda, oturacaqda. Sonra atam çıxdı, Gevorkov şəxsən özü maşına qədər atamı ötürdü və Gevorkovu da gördüm. Deyirdilər ki, arvadı azərbaycanlıdı.*



*Əslində Gevorkovun arvadı azərbaycanlı deyildi. Düzdür, Veteranlar Şurasının sədri Bahadur Hüseynovun qızıydı, amma Bahadur kişinin arvadı rus idi, evlənəndə arvadı yanı balalı almışdı. Gevorkovun da arvadı həmin yanı balalı rusun qızıydı.*

*Sonra ona stadionu göstərirəm və yekə-yekə deyirəm ki, bax, mən bu stadionda iki-üç ay əvvəl Cənab Prezidentlə bir yerdə "Qarabağ"ın oyununu izləmişəm.*

*Sonra doyunca Xankəndini gəzirik. Xankəndinin belə demək mümkünsə, Yasamalı olan Kərkicahanı göstərirəm.*

*- Bu kəndə balaca Ağdam deyirdilər. Sona qədər vuruşdular, nə qədər şəhid verdilər.*

*Onu da deyirəm ki, həmin müharibədə bu kəndə 15 min patron göndərmişdim. Xankəndinin Avtovağzalının yanından keçirik.*

*- Bax, burda bir yeməkxana vardı, qəşəng borş bişirirdilər, qiyməti də otuz dörd qəpik. Hərdən gəlirdik burda borş yeməyə. Ağdamda borş bişirən bir yeməkxana yox idi.*

*Sonra da üzü Şuşaya. Dolamaları qalxırıq. Şuşaya çataçatda dağıdılmış Tar fabrikinin yanında maşını saxlayıram. Yadıma bir xatirə düşür.*

*Deməli, Bəxtiyar Vahabzadənin Türkiyədən Oktay Akbal adında məşhur yazıçı-jurnalist qonağı gəlmişdi. O vaxt Bakıya gələn türklərə şəhərdən kənara çıxmağa icazə vermirdilər. Oktay bəy Bəxtiyar müəllimdən xahiş etmişdi ki, onu Şuşaya aparsın. Bəxtiyar müəllim də bir çətinliklə Oktay Akbalı və xanımını Şuşaya aparmağa icazə ala bilmişdi. Öndəki maşında Bəxtiyar müəllim, Oktay Akbal və Oktay Akbalın xanımı, arxadakı maşında da şair və mənim əmim oğlu Şahmar Əkbərzadəylə mən gəlirdim. Bu Tar fabrikinin yanında, ordankı Şuşa gözəl görünür, Bəxtiyar müəllimin maşını dayandı. Təbii ki, biz də dayandıq. Bəxtiyar müəllim, Oktay Akbal və xanımı maşından yendilər...*

*Hörmətli oxucular, deyəsən sizi yordum, elə özüm də yoruldum, ardı qalsın sonraya.*

*(Ardı var)*



# ZAQATALA: ECAZKAR TƏBİƏTLƏ URBANİK YÜKSƏLİŞ MÖCÜZƏSİ

**Biz 44 günlük Vətən müharibəsi zəfərinin sevincini və qürurunu hər gün yaşayırıq və yaşamalıyıq. Bu bizim inkarolunmaz və halal haqqımızdır. Xalqımız, igid döyüşçülərimiz müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə azğın düşmənə bütün mənalarda qalib gələrək vətən adına yeni qələbələrə doğru irəliləyir. Qarabağda və ətrafında inanılmaz işlər gedir. Cənab Prezidentin tez-tez bu yerlərə səfərləri paxıl və rəzil düşməni ən ağır ruhi xəstəyə çevirməkdədir.**

...Ölkə daxilində isə inkişaf və tərəqqi daha böyük sürətlə davam edir.

Son vaxtlar regionlar haqqında məlumatların intensivliyi əvvəllərdəki kimi olmasa da, Dövlət Proqramı bütün istiqamətlərdə öz həllini tapmaqdadır. Rayon icra hakimiyyətləri də sakinlərin böyük dəstəyi ilə bu sahədə yeni-yeni uğurlar qazanırlar.





Belə rayonlardan biri də gözəllikər diyarı Zaqataladır.

...Burada, təbiətin bəxş etdiyi gözəlliklər məskənində, qızıl güllər diyarı Zaqatalada bu günlər bir qədər gecikən mülayim-isti havaların da qoxusu hiss olunur. Demək olar ki, bütövlükdə may ayı yağışlı, leysanlı yaşanmaqdadır. Rayon kütləvi turizm üçün darıxmaqdadır.

Bəs görülən işlər, sakinlərin yaşam tərzi, arzu və istəkləri? Rayon rəhbərliyinin istər mərkəzdə, istərsə də kəndlərdə keçirdiyi bütün görüşlər optimist notlarla çalarlanır. Sakinlər dövlətin, ölkə başçısı cənab İlham Əliyevin siyasətini dəstəkləyir və gələcəyə ümidlə baxırlar. Axı məhz bu düzgün istiqamətli siyasətin nəticəsidir ki, regionlarda aparılan quruculuq işləri daim inkişafda olmuş, çoxlu töhfələr vermişdir.

Cənab Prezident ölkədə qeyri-istehsal sahələrinin də inkişaf etdirilərək xalqın rifatına yönəldilməsini düşünür və potensialları yüksək səviyyədə dəyərləndirir. Bu istiqamətlərdə turizmin də inkişafını ən vacib məsələlərdən biri kimi təqdim edir, dünya praktikasından nümunələr göstərir.

Əslində Zaqatala, elə bütövlükdə ölkənin şimal-qərb bölgəsi daxili və xarici turizmin inkişafı üçün münasib yerlərdir. Biz əgər indi konkret olaraq Zaqatala rayonu haqqında söhbət açırıqsa, mövzunu əhatəli şəkildə şərh etməliyik. Ən azından Zaqatala kəndli-şəhərli həm təbiət gözəllikləri, həm də sosial-mədəni inkişafı ilə turistləri daim cəlb etməkdədir.

Zaqatalanın tarixi abidələri və təbiət gözəllikləri ilə yanaşı, onun şəhər mədəniyyəti, qonaq (turist) qəbul edib xidmət göstərmək ənənəsi həmişə diqqət çəkib, onun bu özəlliklərini uzaqlara daşıyıb.

Bu mənada təbii olaraq rayon rəhbərliyi bütün digər məsələlərlə yanaşı, turizmin inkişafına da xüsusi əhəmiyyət verir. Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə ilə bu istiqamətdə söhbət etdiyimiz zaman deyir:

- Zaqatala həmişə qonaq-qarlı yerdir. Burada turizm üçün də hər bir şərait və bu şəraiti daha da genişləndirmək perspektivləri var. Məsələyə çox ciddi yanaşırıq. Çünki turizm qeyri-istehsal sahələrindən biri kimi yaxşı gəlir gətirə bilir. Təbii ki, bütün infrastrukturlar, xidmət mədəniyyəti və digər amillər yüksək səviyyədə qurulduqda. Regionda turizmin inkişafı rayonumuz, camaatımız üçün əlavə gəlir mənbəyidir. Bu səbəbdən də bütün imkanlardan maksimum istifadə etməyə çalışırıq...

Doğrudan da Zaqatala rayonunun turizm infrastrukturu ildən-ilə zənginləşir və müasir tələblərə cavab verir. Bütün bunlar turizm bölgəsi üçün təbii haldır. Yeni otel-mehmanxana, iaşə xidmətlərindən tutmuş, yollar, təbiətlə rahat təmas, internet və başqa amillər...

Təbii ki, bunlardan daha çox maraq doğuranı Zaqatalanın bənzərsiz təbiət gözəllikləridir. Bu gözəlliyin qorunması və artırılması üçün ayrıca dövlət qoruğu da fəaliyyət göstərir ki, bütün bunlar barədə də başçı bizə geniş məlumatlar verdi. Bölgəyə gələn turistlərin marağını cəlb edən Zaqatala Dövlət Qoruğu 1929-cu ildə yaradılıb və Böyük Qafqaz dağlarının cənub yamacında Zaqatala-Balakən rayonlarının ərazisində



yerləşir. Şimaldan Böyük Qafqaz dağ silsiləsinin başsu ayrıcı üzrə Rusiya Federasiyasının Dağıstan Respublikası, qərbdən Gürcüstan Respublikası, cənubda Alacan-Həftəran vadisinə qədər uzanan dağətyi və dağlıq zonası ilə əhatələnir. Ərazi bütövlükdə dəniz səviyyəsindən 400 metr hündürlükdən başlayaraq 3648 metrə qədər olan yüksəklikləri əhatə edir.

Zaqatala qoruğu Zaqafqaziyada yaradılan ilk qoruqlardan biri olub, Şəki-Zaqatala zonasında elmi-tədqiqat, mədəni-maarif müəssisəsi kimi həmin zonanın təbii sərvətlərinin kompleks şəkildə öyrənilməsində və biomüxtəlifliyin qorunub saxlanması istiqamətində böyük əhəmiyyət kəsb edir, eləcə də fauna və floranın elmi əsaslarla öyrənmək məqsədini daşıyır. Qoruğun ərazisi 25-30 km olmaqla, 15-20 km eninə sahəni əhatə edib, cənub-qərbdən şimal-qərbə qədər uzanmışdır.

Zaqatala dövlət qoruğunun torpaq örtüyünün tədqiqi mərhum akademik Həsən Əliyevin apardığı tədqiqat işləri ilə zəngindir. O, dəfələrlə Zaqatala qoruğunda olmuş və qoruğun inkişafının istiqamətlərini əməkdaşlara məhz o göstərmişdir. Xalq şairi Məmməd Araz da bir vaxtlar Zaqatala qoruğunda qonaq olmuşdur.

Zaqatala dövlər təbiət qoruğu öz zəngin flora və faunası ilə fərqlənir. Qoruqda 1000-ə qədər bitki növü yayılmışdır ki, bu da Azərbaycan florasının böyük hissəsini təşkil edir.

Qoruqda Azərbaycan florası üçün elmi maraq doğuran giləli qaraçöhrə və daşlı-qayalı yamaclarda, uçurumlarda, kiçik meşəlik halında bitən qarmarvari şam, daha sonra bəzək bitkisi olan həmişəyaşıl Qafqaz rodotendronu bitir. Qafqaz rodotendronuna Azərbaycanda yalnız Zaqatala qoruğunda təsadüf edilir. Qoruğun heyvanat aləmi də çox zəngindir. Ərazidə 42 növ məməli heyvan, o cümlədən meşə, subalp və alp qurşaqlarında 5 növ cütdırnaqlı heyvan (Şərqi Qafqaz turu, köpkər, nəcib Qafqaz maralı, Avropa cüyürü və çöl donuzu) yaşayır. Qoruq ərazisində yırtıcı heyvanlardan qonur ayı, çaqqal, tülkü, az miqdarda olsa da vaşaq, porsuq, aşağı meşələrdə isə yenot və digər heyvanlar sakindirlər.

Qoruqda hazırda 10 dəstədə təmsil olunan 105 quş növü yaşayır. Bunlardan endemik növ olan Qafqaz uları qoruğun daha yuxarı zirvələrində yaşayır.

Zaqatala qoruğunda məməlilər və quşlardan başqa az da olsa balıqlar, anfibi və reptilərin nümayəndələri yaşayır. Balıqlar sinfindən qızıl xallı balıq (farel), anfibilər sinifindən adi quru qurbağası, Qafqaz xaçılcası Azərbaycanın "Qırmızı kitabı"na daxil edilmiş və mühafizə olunurlar.

**Sonda bir məsələni də qeyd etmək lazımdır. Turizm ilə ələqədar Zaqatala rayonunun, belə demək mümkünsə turizm xəritəsini əks etdirən yığcam kitabça buraxılmışdır. Rəngli fotolarla nəşr edilmiş kitabça Turistin bələdçisi adlanır. Burada rayonun tarixi, təbiəti, görməli yerləri, abidələri, folklor və xalq sənəti, mətbəxi, otelləri haqqında məlumatlar verilir.**



**Məzahir ƏHMƏDZADƏ**
**Baş redaktorun regionlar üzrə müavini**

---

## *Nazir müavini: "Bu uşaqların reabilitasiyası və reinteqrasiyası üçün 14 müəssisə fəaliyyət göstərir"*



**Zorakılığa məruz qalmış, eləcə də insan alverinin qurbanı olmuş uşaqların reabilitasiyası və reinteqrasiyası üçün respublikada dövlət sektoruna, eləcə də qeyri-hökumət təşkilatlarına məxsus 14 müəssisə fəaliyyət göstərir.**

Adalet.az xəbər verir ki, bunu daxili işlər nazirinin müavini, polis general-leytenantı Oqtay Kərimov "Yetkinlik yaşına çatmayanlar tərəfindən və onlara qarşı törədilmiş hüquq pozuntularının qarşısının alınması: imkanlar və perspektivlər" mövzusunda keçirilən elmi-praktiki konfransda çıxış edərkən deyib.

Oqtay Kərimov bildirib ki, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilə biləcək cinayətlərin, inzibati xətaların, eləcə də uşaqlara qarşı baş verən hüquqpozmaların qarşısının alınması sahəsində aidiyyəti dövlət qurumları, qeyri-hökumət təşkilatları tərəfindən kompleks tədbirlər görülür, uzunmüddətli proqramlar qəbul edilir. Uşaqların hüquqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlərin daha da təkmilləşdirilməsi məqsədilə Azərbaycan Prezidentinin 2020-ci il tarixli sərəncamları ilə "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası" və "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı" təsdiqlənərək qüvvəyə minib.

O qeyd edib ki, cinayətlərin, o cümlədən yetkinlik yaşına çatmayanlara qarşı törədilmiş zorakılıq əməllərinin qarşısının vaxtında alınması və operativ tədbirlər görülməsi məqsədilə nazirlikdə "102" Xidməti-zəng mərkəzi, elektron poçt ünvanı, "Qaynar xətt" kimi sistemlər, E-polis və digər sosial şəbəkə hesabları fəaliyyət göstərir. Vətəndaşların müraciət etmələrinin asanlaşdırılması, baş verə biləcək hadisələrə çevik müdaxilə edilməsi məqsədilə polis sahə rəisləri və yetkinlik yaşına çatmayanların işləri üzrə inspektorlar tərəfindən vətəndaşlara vizit kartlar paylanılıb, sığınacaq və sosial reabilitasiya mərkəzlərinə ərazi polis orqanlarının növbətçi hissələrinin əlaqə nömrələri verilib. Bununla yanaşı, sığınacaqlarda işləyən və orada yaşayan şəxslərin təhlükəsizliyinin təmin olunması, onların çağırışlarına yerli polis orqanları tərəfindən dərhal reaksiya verilməsi vəziyyəti mütəmadi olaraq nəzarətdə saxlanılıb. Nazir müavininin sözlərinə görə, həmin müəssisələr uşaq hüquqları klinikasından, uşaq və gənclərin sosial reabilitasiya mərkəzlərindən, hüquqi və sosial yardım xidmətlərindən və sığınacaqlardan ibarətdir.

## *ABŞ-da F-35 qəzaya uğradı*



**Amerikanın hərbi təyyarəsi Albukerke (Nyu Meksiko) hava limanında qəzaya uğrayıb.**

Bu barədə ABC məlumat yayıb. Havaya qalxdıqdan az sonra qəzaya uğrayan təyyarənin F-35 qırıcısı olduğu ehtimal olunur.

## Qazaxın azad edilmiş kəndində minatəmizləmə



**Qazaxın işğaldan azad olunmuş kəndlərinə mediatur təşkil olunub.**

Adalet.az xəbər verir ki, Dövlət Sərhəd Xidmətinin (DSX) təşkilatçılığı baş tutan səfər çərçivəsində media nümayəndələri rayonun Bağanıs Ayrım kəndində minatəmizləmə işləri ilə tanış olublar.

Qeyd edək ki, delimitasiya işləri nəticəsində 12,7 km uzunluğunda sərhəd xətti müəyyən edilmiş və bununla Azərbaycan Respublikasının Qazax rayonunun 4 kəndinin: Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılının ərazilərinin (6,5 km2) Azərbaycana qaytarılması təmin edilib.

**Mayın 24-də Azərbaycan Respublikasının Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin əraziləri Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürülüb.**

# "Kavkaz-uzel": "Qarabağda bir rus yaşamırsa, orada konsulluq açmağa nə ehtiyac var?"

**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə Federasiya Şurasının Beynəlxalq Əlaqələr Komitəsinin rəhbəri Qriqori Karasin arasında görüş keçirilib.**

Görüşdə Karasin Rusiyanın səlahiyyətli nümayəndəsi olaraq bildirib ki, Rusiya Xankəndidə yaxın vaxtlarda başlayacaq Rusiya Baş Konsulluğunun açılışına hazırlıqda Azərbaycanın dəstəyinə ümid edir.





Bildiyimizə görə, maraqlarını diplomatlar təmsil edən ölkə vətəndaşları arasında mövcud problemlərin operativ həlli üçün konsulluqlar açılır. Nə Xankəndində, nə Şuşada, Ağdamda bir dənə də olsun Rusiya Federasiyası vətəndaşı var. Lavrova Xankəndində konsulluq niyə lazımdır? Erməniləri bezdirmək üçün? Deməli, duzsuz yerlər yoxdur, başqa harada və niyə?

Düşünürəm ki, insanlarımız üç dəfə nəzakətlə susmalıdırlar, başa düşmürlərsə, rusca cavab verin - yox.

Rusiya vətəndaşlarının yaşadığı yerdə - Gəncədə, Lənkəranda, Zaqatalada, Sumqayıtda konsulluq açsınlar. Bu başa düşüləndir, amma Xankəndinin nə üçün olduğu aydın deyil.

”İkitərəfli məsələlərdən Xankəndində baş konsulluğun açılmasını qeyd edərdim. Biz yaxın vaxtlarda hazırlıq işlərinə başlamağı planlaşdırırıq və sizin dəstəyinizə ümid edirik”, - o bildirib.

Onun sözlərinə görə, bu baş konsulluğun 2024-cü ildə açılması ideal olardı:”Bu, bizə konsulluqdakı qarşılıqlı bərabərsizliyi aradan qaldırmağa imkan verəcək”.

”Kavkaz-uzel” saytında məsələ ilə bağlı maraqlı bir şərh də yer alıb: Bildiyimizə görə, maraqlarını diplomatlar təmsil edən ölkə vətəndaşları arasında mövcud problemlərin operativ həlli üçün konsulluqlar açılır. Nə Xankəndində, nə Şuşada, Ağdamda bir dənə də olsun Rusiya Federasiyası vətəndaşı yoxdur. Lavrova Xankəndində konsulluq niyə lazımdır? Erməniləri könlünü almaq üçün?

Sayt başqa bir məsələyə də diqqət yönəldir:”

Rusiya vətəndaşlarının yaşadığı yerdə - Gəncədə, Lənkəranda, Zaqatalada, Sumqayıtda konsulluq açsınlar. Bu başa düşüləndir, amma Xankəndinin nə üçün olduğu aydın deyil”.

***P.S.** Siyasi analiz və tarixi faktlar isə bizə diktə edir ki, Rusiyanın Qarabağda növbəti dəfə zühur etmə cabalarını izləyək. 1805-ci ildən bu günə qədər Rusiya bütün formalarda olub. İstər işğalçı kimi, istər, İrandan vassalını qoruyan ”xilaskar” kimi, istər böyük qardaş” kimi, istər ”sülməramlı” kimi,*

*İndi isə konsulluq olaraq özünü Qarabağda mövcudluğunu əldən verməməkdə qərarlıdır. Ümid edirəm, o konsulluğun açılması baş verməyəcək!*

**Əntiqə Rəşid**

# NATO Rusiya ərazilərinin vurulmasını istəyir

**NATO-nun baş katibi Yens Stoltenberq alyansa üzv dövlətlərdən Ukraynaya qərb ölkələrinin verdikləri silahlardan Rusiya ərazilərində obyektlərə zərbə endirilməsinə icazı verilməsini tələb edib.**

Analoji tələb ABŞ-dan da gəlib. Belə ki, bir qrup qanunverici orqanın üzvləri də, Pentaqondan ABŞ-ın Ukraynaya verdiyi silahlardan Rusiya ərazilərinə zərbə endirilməsinə icazə verilməsini istəyiblər.

ABŞ, deyəsən Ukraynanın tezliklə məhv olmasına çalışır. Ağ Evdə oturanlar da yaxşı bilirlər ki, Kreml ərazilərinə endirilən zərbələri cavabsız qoymayacaq və o da, Ukraynanın paytaxtı Kiyev də daxil olmaqla, bütün şəhərlərini raket atəşinə məruz qoyacaq.

ABŞ və Qərb dövlətlərinin rəhbərləri, xüsusilə də Makron, Ukrayna prezidenti Volodimir Zelenskini qızışdırmaqla nəyə nail olmaq istəyirlər? Əslində Vaçinqtonun istəyi əvvəlcədən də məlum idi. Məqsəd bu müharibədə Rusiyanı zəiflədərək, həm iqtisadi, həm də ölkə olaraq çökdürülməsinə nail olmaq idi, lakin görünən odur ki, hazırda bunu reallaşdırmaq mümkün olmur.

Makronun nə istədiyini isə, yəqin ki, heç özü də bilmir. Guya Qərbin lideri, söz sahibi olduğunu göstərməyə



çalışır, amma ard-arda verdiyi hər sərsəm bəyanatı özünə qarşı çevrilir.

ABŞ-ın və xüsusilə də, NATO-nun baş katibinin belə bir bəyanatla çıxış etməsi, alyans üzlərindən bir çoxunun etirazlarına səbəb olub.

İtaliya baş nazirinin müavini, ”Liqa” partiyasının lideri Matteo Salvini hesab edir ki, NATO-nun baş katibi Yens Stoltenberq bu bəyanatdan sonra, ya çıxıb üzr istəməli, ya da istefa verməlidir.

”Stoltrnberq, ya bəyanatına düzəliş verməklə üzr istəməli, ya da istefa verib vəzifəsindən getməlidir. Çünki onun, bizim Ukraynaya müdafiə olunmaq üçün göndərdiyimiz raket və bombalardan, bizim adımızdan öz ərazilərindən kənarda istifadə olunmasına icazə verməyə ixtiyarı yoxdur”- deyə İtaliyanın baş nazirin müavini bəyan edib.

İtaliyanın baş naziri Corca Meloni də, öz növbəsində NATO-nun baş katibinə, sözlərinə diqqət yetirməsini və verdiyi bəyanatlarda ehtiyatlı olmasını məsləhət görüb.

Alyansın digər üzvü, Almaniya kansleti Olaf Şolst da, Qərb silahlarından Rusiya ərazilərində istifadə edilməsiə etiraz etdiyini bəyan edib.

Dövlət Departamentindən bildirilib ki, ABŞ-ın Ukraynaya verdiyi silahlardan Rusiya ərazilərində istifadə edilməsini dəstəkləmirlər, lakin qurumun rəhbəri Entoni Blinken bunun əleyhinə olmadıqlarını da bəyan edib: ”Ukrayna bu silahları istədiyi kimi istifadə edə bilər”.

Bu arada Qərb dövlətləri, Kiyevə hərbi və maliyə yardımlarını artırmaqda davam edir. Bu isə, cəbhə xəttində gərginliyin artmasına səbəb olur. Ukraynadan alınan məlumatlar göstərir ki, Kreml bütün cəbhə boyu hücuma keçir. Ən böyük şəhərlərdən biri, Xarkov intensiv raket atəşinə məruz qalıb. Digər yaşayış məntəqələrində də,həyəcanlı anlar yaşanır.

**Göründüyü kimi, hər şey ABŞ-ın istəyinə uyğun davam etməkdədir...**

**Rüstəm Hacıyev**

*Məzahir ƏHMƏDOĞLU*

# "SARIŞIN EPİZODİK" QAYIDIR DEYƏSƏN...



**Mən 5-6 il əvvəl bu mövzuya oxşar bir məzmunda diqqət çəkmişdim. O vaxt ABŞ prezidenti Donald Trampın dünyanın bir nömrəli idman oyunu haqqında təsəvvürlərini həmyerlimiz avtobus sürücüsü Şami kişinin voleybol topuna olan qeyri-adi münasibətilə paralelləşdirmişdim. Amerika prezidentləri tarixə hərəsi bir özəlliklə damğa vurub. Ölkənin idarə edilməsində zəif və ya güclü tərəfləri ilə yanaşı, onsuz da hər biri yalnız əslində Amerikanın, Amerika xalqının hamıdan üstün olmasını istəyib. Ancaq özəllikləri də unutmayaq. Biri həyətyanı baxçasında marixuana əkib-becərib, biri Yaponiyaya atom bombası atıb, Kennedilərin həm də qeyri-adi sirlərlə dolu müəmmalı qətlləri, Burşların İraq - Səddam Hüseyn sindromu, Klintonun saksafonu, demokratiyanın Obama məşğələsi, milyarder prezidentin şıltaqlıqları və yeni projelərlə qayıtmaq istəyi, Baydenin özünü Brejnev kimi aparması... Hansını xatırlasaq nəsə qəribə bir hadisənin şahidi olursan. Bax, elə bu səbəb də reallıqlara görə də dünyanın ən qüdrətli ölkəsində məhz həmin o "sarışın" yenidən prezident olmaq istəyir və deyəsən olacaq da. Bunun bizə o qədər də isti-soyuğu yoxdur. Sadəcə Trampın qəribə oyunbazlıqlarından birini yenidən xatırladım. Doğrudan çox maraqlı hadisə idi.**

**Amerika Birləşmiş Ştatlarının prezidenti Ağ Evdə FİFA rəhbərliyini jurnalistlərin və digər iştirakçıların qarşısında qəbul edərək 2026-cı ildə Kanada, ABŞ və Meksikada keçiriləcək dünya birinciliyinə hazırlıq prosesinin müzakirə olunduğunu bildirirdi. Donald Tramp elə oradaca oğlunun da futbolla maraqlandığını söylədi. Özününsə bu oyundan çox uzaq olması İnfantino ilə dialoqundan və digər hərəkətlərindən aydınca hiss olunurdu.**

**İnfantino görüş zamanı Ağ Evin sahibinə hədiyyələr də verdi. Üzərində "Tramp" yazılmış və nömrələnmiş futbol köynəkləri, kitabçaya oxşar digər əşyalar... Super dövlətin başçısı da bu hədiyyələri həmişəki anlaşılmaz təbəssüm və jestlərlə salondakılara göstərirdi. Həm də naşı bir görkəmdə. İnfantinonun sonuncu hədiyyəsi sarı və qırmızı kartlar idi - futbol hakimlərini də unutmamışdı. Və ya nəsə başqa bir şey düşünmüşdü bəlkə də. Əvvəlcə sarı vərəqəni göstərir və təbii ki, funksiyasını da izah edir. İnfantino qırmızı vərəqi Trampa göstərəkən ”Körpə gəzintisinin” iki-üç saniyəlik indiki məşhur epizodiki kartı o üz-bu üzə çevirib qutusuna qaytarmaq istədi. Ancaq FİFA rəhbəri ona nə dedi nə demədi, Tramp qarşısındakıların üzərinə qolazlayırmış kimi qəribə bir oyun durğuzdu. Və sonra kartı masanın üstünə buraxdı. İnfantinonun təkrar müdaxiləsindən sonra (o, sanki cənab Trampa futbolun hansı idman növü olduğunu anladırdı) prezident qırmızı vərəqi götürüb hakimsayağı salondakılara tuşladı. Cənab Tramp simvolik və yaxud zarafatyana da olsa ”meydandan” kimi, kimləri qovurdu? Əlbəttə ki, jurnalistləri!**

**Salondakılar gülüşürdülər. Ancaq Pyerluicci Kollina həmin vaxt orada olsaydı, yəqin ürəyi partlayardı.**

**Telesujet bununla da şərhsiz olaraq bitdi.**

**Ancaq şərhə ehtiyac var.**

**Dünyanın ən güclü dövlətinin prezidentinin futbola marağı olmaya bilər. Belədə sarı və qırmızı vərəqələrin funksiyasını bu cür naşı şəkildə, ümumiyyətlə tutduğu vəzifə ilə qətiyyən uzlaşmayan formada nümayiş etdirməsi də eləcə xarakterik məsələdir. Ancaq həm də marağı olmamaqla, anlayışı olmamaq fərqli nəticələrdir. Ən azından bu görüşə standart məlumat şifrəsi ilə gəlməli idi. Əgər Tramp üçün bu görüş də elə-belə şou xarakterli əyləncə deyildisə.**

**Biznesdə bəxti gətirən milyarder, Hollivudda epizodik sarışın, qadın məsələsində vecsiz bir brokonyer, siyasətdə ... Amerika bu adamı prezident seçib. İndi Yusif Sərrac dövrü də deyil ki, başqa şeylər düşünəsən. Məsələ o qədər bəsitdir ki, yəqin heç kəlləpaçanın da nə olduğunu bilmir, Aqil Abbas demiş.**

**Bəs bu FİFA, bəs onun prezidenti?**

**Elə bu tip səbəblərdəndir ki, son dövrlər, son illər futbol öz məntiqindən uzaq düşür, idmanın şahı özünün fantastik məbləğli biznesi və digər ”atributları” ilə daha çox qeyri-səlis məntiqə yol alır. Bəlkə elə bu səbəblərdən də 70-80-ci illərin futbolu xiffətlə xatırlanır. Baxmayaraq, indi də ulduzlar var, Messi kimi ”başqa planetdən gələnlər” var.**

# GÖYÇAY: QƏDİM TÜRK ELİNİN MÜASİRLİK ƏZƏMƏTİ

**Təəssüflənsəm də açıqlamaq istəmədiyim bir səbəbə görə bunları yazmayacaqdım. Ancaq bir neçə hələ də yaddaşlarda qalan telefon zəngləri, həm də unutmayan və unudulmayanlar (...ah zalım dostlar, zalım qardaşlar...- Vaqif Cəbrayılzadə), ziyalı dostların təəccüb dolu sualları... Bu rayondan söz düşəndə nə vaxta qədər nardan-nardançadan bəhs edən sujetlərə baxmaq olar ki? Daha az qala bütün dünyaya məlumdur ki, Göyçay həm də elə nar deməkdir.**

Şəhərin, eləcə də əksər kəndlərin son illər sürətli inkişafı, özünəməxsus bir gözəlliklə modernləşməsi fonunda tarixə də ekskurs edilməlidir. Eyni zamanda bir məqama da xüsusi diqqət yetirmək lazımdır: Əfsanəvi Ali Baş Komandanımız İlham Əliyevin həm siyasi, həm də hərbi taktikaları ilə Qarabağın tam azad edilməsi və burada aparılan böyük quruculuq işlərinin uğurlu tendensiyası respublikamızın hər yerində olduğu kimi göyçaylılarda da böyük ruh yüksəkliyi yaratmışdır. Vətənini, şəhərini, kəndini, el obasını ürəkdən sevmək şirin duyğulardır həm də.





Mən əvvəl də xatırlatmışam: Bu kiçik, ancaq adı böyük olan rayondan söz düşəndə Göyçay şəhərinin tarixindən, yaşından da söhbət açılır. Bir neçə qədim binanın, eləcə 1901-ci ildı tikilən məscidin, "Yer hamamı" deyilən qurğunun tarixi abidə kimi təqdimatından sonra belə məlum olur ki, Göyçay şəhərinin yaşayış məskəni kimi mövcudluğu uzaq başı 220 ilə gedib çıxır. Doğrudur tələsikliklədən və Elxan Süleymanovun inam və etibarından istifadə edilməklə heç də gözlənilən nəticə verməyən "Göyçay ensklopediyası"nda bəzi tarixi faktlar öz qiymətini ala bilmişdir. Bütün bunlara baxmayaraq təəssüf ki, Göyçay layiq olduğu şəkildə öyrənilib təbliğ edilməmişdir. Tarix bəzən əldə yazılı mənbə olmadan da belə dövr və məkanla uyğunlaşdırılaraq bəşəriyyətə həqiqətə və reallığa yaxın olanı çatdırmalıdır. Ancaq şəhərin yaşını 220, ən qədim kəndlərinin isə yaşını 400-500 il civarında müəyyənləşdirən diletant şəxslərin vətəndaşlıq mövqeyinə şübhə ilə yanaşmalı olursan. Tarixçilərin, arxeoloqların məsuliyyətini mən də öz üzərimə götürmək fikirində deyiləm. Ancaq bəzi fakt və məlumatlar tarixi və intiutiv yanaşma tələb edir ki, bunlarsız mümkün olmur.

Əvvəlcə elə Göyçay şəhərinin özündən başlayaq. Bu şəhər əsasən, Göyçay çayının sağ sahilindən genişlənərək böyüyüb indiki görkəmini alıb. Əsl şəhər quruluşu planlı paralel küçələr çaydan təxminin 400-500 metr kənarda formalaşır. Bu həqiqətən 200 ildən bərinin inkişafıdır. Bəs bundan əvvəl buralarda yaşayış olmayıbmı? Olub. Hələ ən yaxın tarixi götürsək qədim Alban dövlətinin mövcudluğu illərinə gedib çıxır. Bir neçə fakt bunu sübut edir. Göyçay çayının sağ-sol dağ silsilələrinindən genişliyə - ucsuz-bucaqsız düzənliyə çıxdığı ərazinin başlanğıcında böyük bir qəbiristanlığın qalıqları vardı. Başqa bir qəbiristanlığın qalıqları isə indiki şəhər ərazisinin Ağdaş rayonu istiqamətindəki qurtaracağının 150-200 metrliyində 45-50 il bundan əvvəllərə kimi dururdu. İndi heç biri yoxdu. Qalıqlar torpaq altındadır. Çayın sahilə yaxın son dağ silsiləsinin düzəarana açıldığı yerdə əsrlərdən bəri mövcud olan qəbiristanlıq və onun qalıqları burada sahil boyu yerləşən kiçik bir şəhərin tarixçəsini təsdiqləyir. İnsanlar qədim dövrlərdə yaşayış məskənlərini ilkin olaraq suya yaxın yerlərdən seçiblər. Bunsuz qurmaq və yaşamaq mümkün deyildi. Şirvanda ən əlverişli ərazilərdən biri də məhz bu yerlər olub.

...Göyçay çayı kənarında 4 km məsafə boyu kiçik bir şəhərin hələ orta əsrlərdən mövcudluğu dəqiqdir. Bu şəhər Alban dövlətinin təşəkkülü dövrdə müəyyən inkişafda olub. Paytaxt Qəbələyə əlverişli yollar buradan keçirdi. Çay kənarı və Əlvan dərəsi ilə. Sözsüz ki, Qəbələyə uzaq ellərdən gələnlər az deyildi. Tacirlər və başqa yolçular dağlara qalxmazdan qabaq istirahət edib güc toplamalı idilər. Bax onda indiki Göyçayın həmin ərazisindəki kiçik şəhərin karvansarayları, bu şəhərdə yaşayıb çalışan dəmirçilər, nalbəndlər və başqa sənətkarlar kara gəlirdi. Bağbağatlı Göyçay kəndlərinin meyvələri, digər ərzaq məhsulları bu şəhərdə satılırdı, burada olmayan mallara dəyişdirilirdi. Böyük tikililəri və qurğuları olmasa da bura qaynar bir şəhər idi.

Göyçay o zaman bir növ qədim Alban dövlətinin paytaxtı Qəbələnin forpostu olub.

O biri qəbiristanlıqdan götürülüb indi Göyçay rayon ölkəşünaslıq muzeyində çox az bir qismdə saxlanılan eksponatların da yaşı islamdan öncəki dövrləri əhatə edir.

Burası belə.

Göyçayın Qaraman (Karaman), Ləkçıplaq, Qarabaqqal, Çayarxı, Qaraxıdır, Alpout, Bəydövül və başqa qədim kəndlərinin yaşı 400-500 yox ən azı 1500-1700 ildir. Mistika arxasınca düşməmişəm. Ancaq bütün bunlar da elə-belə göydən düşməyib.



Söz Vətəndən, Vətən tarixindən başlayanda da çox məsuliyyətli olmalıyıq. İndi də sovet dövrü deyil ki, akademik İqrar Əliyevin fars-rus modelli "Azərbaycan tarixi" kitabından kənara çıxa bilməyək.

...Yenidən bu günlərimizi yaşayaq. Artıq hər bir sakində belə bir fikir və inam formalaşır ki, rayon bütün istiqamətlər üzrə düzgün yolda, gözəl inkişafdadır. Rayon rəhbərliyi təkcə şəhərin daha abadlaşıb gözəlləşməsi ilə kifayətlənmir. Baxmayaraq ki, Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayevin sakinlərlə məsləhətli tədbirləri olduqca effekli təsir bağışlayır. Təmizlik, səliqə-səhman, nizam-intizam, qonaqpərvərlik və digər vacib xüsusiyyətlər rayon rəhbərinin intensiv fəaliyyəti ilə yanaşı, çoxçaları zövq balansını da müəyyənləşdirir.

Bütün bunlar digər məsələlərə də təsir edir. Hər yerdə işgüzarlıq, hər yerdə şəffaflıq, sakinlərlə müntəzəm təmasların effektliyi, cinayətkarlığa qarşı mübarizədə uğurlar...

**Əlbəttə, həyatımızın, zamanın belə bir gedişatı öz qiymətini layiqli şəkildə almalı, tarixin bir parçasına çevrilməlidir. Yüzillərlə vaxt keçəcək. Bu gün Göyçay şəhərinin 100-150 yaşlı çinarları 500-600 yaşında olacaq. Küçə və meydanlar, park və binalar daha da gözəlləşəcək. Gələcək nəsillər daha xoşbəxt və firavan yaşayacaqlar. Göyçayın bu günü və xoş gələcəyi üçün can qoyan insanların da adları gözəl hisslərlə xatırlanacaq. Tariximiz gələcəyə ən düzgün və ədalətli bir yolla çıxacaq.**

**Məzahir ƏHMƏDOĞLU**

## *Ermənistan Azərbaycanla sərhəddə müşahidə məntəqələri tikir*



**Ermənistan Azərbaycanla sərhədin Voskepar kəndi yaxınlığındakı delimitasiya olunmuş hissəsində sərhədçilər üçün müşahidə məntəqələrinin tikintisinə başlayıb.**

Adalet.az "Sputnik Ermənistan"a istinadən xəbər verir ki, bu barədə ölkənin baş naziri Nikol Paşinyana onun Tavuş vilayətinin sərhəd kəndlərinə səfəri çərçivəsində Voskepar kəndindəki Müqəddəs Məryəm kilsəsini ziyarət etdiyi zaman məruzə olunub.

Ermənistan Milli Təhlükəsizlik Xidmətinin Sərhəd Qoşunlarının Baş Qərargah rəisi Edqar Unanyan baş nazirə kilsənin ərazisindakı dərədə yerləşən sərhəd sütunlarından birini göstərib. Onun sözlərinə görə, Ermənistan tərəfi artıq sərhədçilər üçün müşahidə məntəqələrinin tikintisinə başlayıb.

"Biz altı müşahidə məntəqəsi quraşdırmışıq, Azərbaycan tərəfi isə hələ ki yollar çəkir, məntəqə quraşdırmayıb. Əldə olunan bütün razılaşmalar yerinə yetirilir", - o bildirib.

Paşinyan Voskepardan sonra qonşu sərhəd kəndlərinə yollanıb.

## *Zaxarova: "Bu ölkəni peşman edəcəyik"*



**Rusiya Polşa diplomatlarının hərəkətini məhdudlaşdırmaq üçün cavab tədbirləri görəcək ki, Rusiyaya nifrət edən Polşa elitası peşman olsun.**

Adalet.az bildirir ki, bu sözləri Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib.

"Təfərrüat hələ məlum deyil. Polşa Xarici İşlər Nazirliyinin notası açıqlanıb. Biz onu alandan sonra araşdırıb, cavab tədbirləri görəcəyik ki, rus nifrətində boğulan Polşa elitası növbəti antirusiya addımlarına görə qəti şəkildə peşman olsun", - o bildirib.

Qeyd edək ki, bundan öncə Polşanın xarici işlər naziri Radoslav Sikorski ölkə ərazisində rus diplomatların hərəkətini məhdudlaşdırdıqlarını açıqlamışdı. Belə ki, Rusiya səfirliyinin əməkdaşları yalnız paytaxtda hərəkət edə biləcəklər, konsulluq əməkdaşları isə işlədiyi regiondan kənara çıxa bilməz. Məhdudiyyət halnız səfirin özünə tətbiq edilməyəcək.

## *"Rəisinin ölümünə dünyanın reaksiyası Tehranın uğurunu göstərir"*



**Prezident İbrahim Rəisinin təyyarə qəzasında həlak olmasından sonra müxtəlif ölkələrdən İranın aldığı çoxsaylı mesajlar Tehranın xarici siyasətdəki uğurlarına və dünya ictimaiyyətinin İranın dünya səhnəsindəki roluna maraq göstərməsinə dəlalət edir. Adalet.azxəbər verir ki, bu barədə İran Xarici İşlər Nazirliyinin sözçüsü Nasser Kənani həftəlik brifinq zamanı bildirib.**

Kənaninin sözlərinə görə, İran müxtəlif ölkələrin ali rəhbərliyindən Ali Rəhbərə, hökumətə və prezident səlahiyyətlərini icra edən Məhəmməd Mohberə və xarici işlər nazirinə ünvanlanmış 330-dan çox mesaj alıb.

Bundan əlavə, Tehran beynəlxalq təşkilatlardan 27-dən çox mesaj qəbul edib.

Xatırladaq ki, mayın 19-da İranın şimal-qərbində Verzeqan bölgəsində təyyarə qəzası baş verib: İran prezidenti İbrahim Rəisi, xarici işlər naziri Hüseyn Əmir Abdullahyan və digər rəsmiləri daşıyan helikopter qəzaya uğrayıb. Helikopterdə olanların hamısı həlak olub.



Rüstəm Hacıyev

## Ermənilərin növbəti çevriliş cəhdi

***Arxiyepiskop üsyanı nəyi dəyişə bilər?***

***Azərbaycan-Ermənistan sərhədlərinin demarkasiyası rəsmi start götürdükdən sonra, aprelin ortalarından başlayaraq Ermənistanda kütləvi iğtişaşlar dalğası alovlanmağa bşaladı. Yerli arxiyepiskop Baqrat Qalstyan deyilən birisi, Eçmiəzdin kilsəsinin dəstəyi ilə, etirazçılar Ermənistandan Gürcüstana gedən yolu bağladılar. Arxiyepiskopun başçılığı ilə "vətən naminə" hərəkatı adı altında Yerevana yürüş başladı. Artıq Yerevana çatan arxiyepiskopun tərfdarları, günlərdi baş nazir Nikol Paşinyanın istefasını tələb edirlər. Onların qarşısını kəsməyə çalışan polis qüvvələtiylə etrazçılar arasında toqquşmalar da baş verir. Yüzlərlə etirazçının həbs olunması xəbərləri yayılmaqdadır.***

***"Arxiyepiskop üsyanının" əsas məqsədi, guya ölkənin daxili və xarici kursunu dəyişməkdir. Etirazçılar, əsas iqtisadi tərəfdaşları saydıqları Rusiyanı itirmək istəmirlər. Onlar düşünürlər ki, Ermənistanın KTMT-dən çıxmaq ehtimalı suveren dövlət kimi mövcudluqlarını təhlükə altına sala bilər.***

***Ermənistan hazırda, münaqişədən qaçmaq üçün delimitasiya çərçivəsində daha əvvəl Azərbaycana qaytarmalı olduqları əraziləri rəsmi olaraq qaytarır. Paşinyan gələcəkdə nəqliyyat dəhlizlərinin açılmasına şərait yaradılması üçün kompromisə getmək məcburiyyətindədir. Çünki aydın şəkildə başa düşür ki, nə ABŞ, nə di Qərb onlara istədiklərini verə bilməyəcək. Onların diqtəsiylə Rusiya ilə münasibətlərinin soyuması da Paşinyanı çətin vəziyyətə salıb.***

***Əslində Ermənistanda baş nazirə qarşı etirazlar ilk dəfə deyil ki, baş qaldırır. Bu dəfəki etirazlarda çətin ki, Paşinyanın istefası ilə nəticəlınsin. Hazırda Qanunvericiliyə görə, parlamentdə baş nazirin impiçmenti üçün səs çoxluğu əldə etmək mümkün deyil. Bunun üçün 107 səsdən ən azı 54-nü qazanmaq lazımdır. Lakin Paşinyanın rəhbərlik etdiyi hakim partiya parlamrntdə yerlərin çoxuna nəzarət edir.***

***Bundan başqa, Ermənistan elitası da, hələ ki, gözləmə mövqeyi tuturlar. Elitanı öz tərəfinə çəkmək üçün keşiş Baqrat, Paşinyanın təqdim etdiyi variantdan fərqli, öz variantını təqdim etməlidir ki, ona inansınlar. Lakin adi bir əyalət keşişinin təqdim edə biləcəyi elə bir variantı yoxdur.***

***Siyasi elita Paşinyanın əraziləri geri qaytarmasından heç də məmun deyilər. Bununla yanaşı, müxalufətin də, ölkənin gələcək inkişafıyla bağlı alternativ konsepsiyasını görmürlər, Ona görə də kənarda dayanmsğs üstünlük verirlər. Etirazçıların yalnız narazılardan ibarət başına topladığı bir keşiş liderləri var. Onun da ətrafına toplaşan narazılar sürüsü, Ermənistan əhalisinin 3 faizdən bir az artığını təşkil edir, eyniylə seçicilərin də.***

***Görünən odur ki, rusların "keşiş Qapon" adlandırdıqları Baqrat Qalustyan üsyanı da, elə "Keşiş Qapon" üsyanının taleyini yaşamsğa məhkum olacaq...***

---

## *"Ukrayna üçün çətin günlər başlayıb"*



**NATO-nun baş katibi Yens Stoltenberq etiraf edib ki, müharibə başlayandan bəri, Ukrayna üçün ən çətin günlər başlayıb.**

"Bəli, bu belədi, bu gün müharibənin ən çətin anları yaşanır"-deyə Stoltenberq bildirib.

NATO-nun baş katibi, qeyd edib ki, Rusiya silahlı qüvvələri "az da olsa üstünlük qazanıblar".

İndi aydın olur ki, Stoltenberq ötən həftə niyə Ukraynanın Qərbdən aldığı silahlardan Rusiya ərazilərində hərbi obyektlərin vurulmasına icazə verilməsini tələb edirmiş.

Xatırladırıq ki, İtaliya, Almaniya kimi Avropa dövlətləri NATO baş katibinin bəyənatını etirazla aarşılasalar da, özünü Qərbin lideri hesab edən, əslində isə daha çox "siyasi klounnuqla" məşğul olan Fransa prezidenti Emanuel Makron isə bəyan etmişdir ki, "Kiyevə, Rusiyanın ərazilərində hərbi obyektlərin vurulmasına icazə verilməlidir".

"Müharibə şeytanlarının" bu tip bəyənatlarından qıcıqlanan Rusiya, Ukrayna ərazilərində genişmiqyaslı hücumlara başlayıb. Xarkov kimi iri şəhərlərə saysız-hesabsız raket zərbələri endirilir, əhali yaşayış yerlərini tərk etmək məcburiyyəti qarşısında qalıb.

Faktiki vəziyyət göstərir ki, NATO-nun baş katibi nahaq yerə narahatlığını gizlətmir.

**Rüstəm Hacıyev**

---

# Sovet təbliğatının alçaltdığı qoçular: Müsavatçı Qoçu Nəcəfqulunun igidliyi

**"Mən Bakıda bir sıra qanlı hadisələrin törədilməsinin iştirakçısı olmuşam, bizə hücum edən erməniləri öldürmüş, bir sıra başqa cinayətlər törətmişəm. Əgər siz məni bu işlərimə görə mühakimə etsəydiniz, sizə minnətdar olardım. Ancaq mən nə Əli Bayramovu tanımışam, nə də onun öldürülməsində iştirak etmişəm. Mən Bakının yarısını erməni daşnaklarından qorumuşam. Ona görə də türklərdən mükafat və orden almışam. Bəs bunlar hara getdi?"**

Bu, qanlı bolşevizmin sayəsində Bakıda soyqırıma nail olan erməni və rus quldurlarının məhv edilməsində böyük əməyi olan, 1920-ci ilin 28 mayında adı ölümə məhkum olanların arasında olan Qoçu Nəcəfqulunun son sözləri idi. Sabahısı günü - 29 mayda o güllələnir.

### *Sovet təbliğatının gülüş hədəfinə çevirdiyi "Qoçuluq" məhfumu*

Oxucularımıza Qoçu Nəcəfqulunu ətraflı və daha düzgün tanıtmaq istərdim. Amma əvvəlcə gərək sovet rejiminin satirasına tuş gəlmiş, alçaldılmış və pislənmiş "qoçu" ifadəsinin əsl üzünü sizə açıqlayam.

Sosioloqların fikrincə, qoçuluq - qolugüclülük, zorakılıq, güc göstərməklə nüfuz sahibi olmaq deməkdir. Daha sonra qeyd edirlər ki, Qoçuluq ictimai bir hadisə kimi XX əsrin ortalarında Bakıda neft sənayesinin inkişafı ilə bağlı yaranıb və yayılıbdı.Qoçu sözünə həmin dövrdə fəaliyyətdə olan dövrü mətbuatda tez-tez rast gəlinir.

Klassik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Məmməd Səid Ordubadi öz xatirələrində qoçuları belə xatırlayır: "Qoçuların həyatını da öyrənməklə maraqlanırdım. Xüsusən onların həbsxana içərisindəki nüfuzu və həbsxana işçilərinin onlara bu qədər qorxa-qorxa yanaşması məni maraqlandıracaq işlərdən idi."

Klassik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Məmməd Səid Ordubadi öz xatirələrində qoçuları belə xatırlayır: "Qoçuların həyatını da öyrənməklə maraqlanırdım. Xüsusən onların həbsxana içərisindəki nüfuzu və həbsxana işçilərinin onlara bu qədər qorxa-qorxa yanaşması məni maraqlandıracaq işlərdən idi".

Yəqin ki, Üzeyir Hacıbəyovun müəllifi olduğu "O olmasın, bu olsun" filmini xatırlayırsınız. Filmdə keçisi olan Qoçu Əsgər Qoçu Nəcəfqulunun prototipi kimi göstərilir. Şahidlər bildirirlər ki, Nəcəfqulunun özü ilə gəzdirdiyi keçisi olub. Filmdəki həmin ağ keçini çəpişlik vaxtından bəsləyib.

Qoçunun nəvəsi bildirir ki, filmdə rejissor təxəyyülünün məhsulu var: "Keçinin olması faktı həqiqətdir, amma babam o qədər cılız adam olmayıb ki, keçiyə görə həmin satıcını vursun, alçaltsın. Elə hallarda babam həmişə sahibkara dəyən ziyanı ödəyib, keçini oradan uzaqlaşdırarmış. Həmin keçi daha çox qonum-qonşunu incidirmiş".

Yeri gəlmişkən, belə bir rəvayət gəzir ki, guya nə vaxtsa Bakıya kənardan qolu güclü Qoçu adlı bir gənc gəlir və şəhərdə hamını incitməyə başlayır. Necə deyərlər yetənə yetir, yetməyənə də daş atır. Heç kəs də onun qabağına çıxa bilmir. O vaxtdan da guya şəhərdə təsadüf olunan belə qolu zorlu adamlara Qoçu deyərlərmiş.

### *Qoçu Nəcəfqulu: Quldur, yoxsa vətən fədaisi..?*

Qoçu Nəcəfqulunun təxminən 1892-ci ildə doğulduğu deyilir, Məlumatlarda deyilir ki, güllələnərkən onun 28 yaşı olub. Doğum yeri isə Maştağadır. 28 may 1920-ci ildə hökm İnqilab Komitəsinin sədr müavini Mirzə Davud Hüseynov tərəfindən təsdiq olunur və 29-na keçən gecə saat 02:30-da hər iki tribunalın üzvü Zeynal Dadaşovun və Bakı şəhərinin komendantı Mazurovun iştirakı ilə icra edilir.

1918-ci ilin əvvəlindən bəri Bakıda bərk qarışıqlıq idi. Şəhərdə bir tərəfdən qırmızı qvardiyanın matrosları, bir tərəfdən onlarla bir fəaliyyət göstərən daşnak silahlıları, erməni mauzeristləri, rus icmasının silahlı dəstələri, demək olar ki, Bakının müxtəlif ərazilərində artıq nəzarət edirdilər. Müsəlman camaatının əlində silah qalmamışdı.

Müsavatçıların yığdığı könüllülərdən ibarət "Dikaya diviziya" isə Lənkəranda yerləşirdi. Bakının mərkəzi küçələrində





tez-tez erməni yaraqlıları ilə bizim qoçular arasında toqquşmalar olurdu... Novruza 4-5 gün qalmışdı, ancaq heç kəsdə bayram əhval-ruhiyyəsi yox idi. Bakıda hər gün beş-on müsəlman meyiti tapılırdı. Silahsız insanların ümidi yalnız pullu müsəlmanlara, bir də qoçulara, onların dəstələrinə qalmışdı.

"İsmailiyyə" binasında bir izdiham vardı. Salona toplaşanlar Bakının müsəlman əhalisini qırğından xilas etmək üçün yollar arayır, bolşeviklərlə danışıq aparmağa nümayəndələr seçirdilər. Amma artıq qırğının labüdlüyünə inanmayan yox idi. Müzakirələrdə son nöqtəni Bakı qazısı Mirhüseyn ağa qoydu, əbasının altından "ofiserski" tapançanı çıxararaq havada silkələyə-silkələyə camaatı cihada çağırdı. Nəcəfqulunu həmin gün millətdəki həmrəylik, yekdillilik qürurlandırdı. İndi artıq bu xalqın milyonçusu da, qoçusu da, hambalı da sadəcə azərbaycanlı idi. Xitabət kürsüsünə qalxanlar gücləri nəyə çatırdısa onu təklif edirdilər.

Adətən bir-biri ilə dil tapa bilməyən, sözləri çəpləşəndə silaha əl atan Bakı qoçuları da "İsmailiyyə" binasında yumruq kimi birləşdilər. "Dikaya diviziya"nın zabitlərindən müsadirə edilmiş silahların dalınca bolşeviklərlə danışıqlara gedən heyətin əliboş qayıtması isə artıq səbir kasasını daşdıran son damla oldu. ...Cəbhə xətti Bazarnıdan keçirdi. Küçənin sağ tərəfi artıq ermənilərin əlindəydi.

### *Əlləri ilə erməni güllləsini bədənindən çıxaran daş iradəli bakılı*

Nəcəfqulunun adamları bircə nəfər düşməni belə küçədən keçməyə qoymurdular. Bakının dar-dolanbac məhəllələrində başının tükü sanı atışdığından yaxşı bilirdi ki, düşmən küçəni keçsə nə faciə baş verər. Odur ki, hamıya tapşırmışdı ki, son gülləyə kimi vuruşsunlar. Güllə qurtaranda isə əks hücuma keçib xəncərlərini işə salsınlar. Həmin gün Bakının və bakılıların taleyi həll olunurdu. Və tarixin bu acı dönəmində bütün yükün ağırlığı el arasında heç də həmişə müsbət qarşılanmayan qoçuların çiyninə düşmüşdü. Səhərə yaxın sursat tükənmək üzrə idi. Nəcəfqulu son, qəti sıçrayışa hazır idi.

Elə bu zaman çoxdankı rəqibi Qoçu Teymur bəy Aşurbəyovun onlara çatdırdığı patronlar camaatın qanının arasına girdi. Küçənin hər iki tərəfində ölənlərin sayı-hesabı yox idi. Qoçu Nəcəfqulu özü də bir neçə güllə yarası almışdı. Ertəsi gün ermənilər geri oturdulandan sonra bədənindəki gülləleri sızaq kimi sıxıb canından çıxararaq yerinə köz basanda arvadı Tutuxanım görüb Nəcəfqulunun daş iradəsinə məəttəl qalmışdı".

Nailə xanımın açıqlamasına görə, həmin günlər Qoçu Nəcəfqulunun evi, həyət-bacası döyüşlərdə yaralanmış, əzizlərini itirmiş insanların pənah yerinə çevrilibmiş: "Yaxınlarının ölümünə dözə bilməyən insanların gözü qarşısında əsir götürdüyü erməniləri öldürərək onların təsəlli almasına kömək edirmiş. Ermənilər müsəlman uşaqlarını süngüyə keçirib valideynlərinin gözü qarşısında əzabla öldürübmüşlər. Babam da onlardan bir neçəsini tutubmuş. Həmin erməniləri diri-diri hamamın qazanxanasında yandırıb. Deyirmiş ki, onlara normal ölüm haramdı, çünki insan deyillər. Qadınlarımızın namusuna toxunan iki erməninin taleyi isə diri-diri divara hörülmək olub".

Qoçu Nəcəfqulunun uzun illərdən bəri rəqibi olan bir qoçu olub - Teymur bəy Aşurbəyov. Lakin o qanlı-qadalı mart hadisələri bu əzəli rəqibləri nəinki barışdırıb, hətta ömürlük dost-qardaş edib: "Bolşeviklər yerlərini bərkidəndən sonra başlayıblar qoçuları zərərsizləşdirməyə. Bunun üçün də ən geniş yayılmış vasitə şərləyərək həbs etmək və birbaşa güllələnmə hökmü çıxarmaq imiş. Teymur bəy həmin vaxtlarda ailəsini də götürüb İrana keçib. Babamı da çox dilə tutub ki, gedək buradan, öldürəcəklər səni. Amma o getməyib. Deyib ki, ailəm böyükdü, ya gərək hamını aparam, ya da getməyəm, alnıma nə yazılıbsa, o da olacaq. Sonralar eşitdiyimə görə, Teymur bəy İranda xeyli yaşayıb."

Son olaraq: Sovet rejiminin təsiri altında adları, imicləri alçaldılan, gülüş hədəfinə çevrilən Qoçu Nəcəfqulu kimi igidlərimiz çox olub. Sovet təbliğatı onları bir yaramaz olaraq bizə tanıtsa da, amma heç vaxt həqiqəti uzun müddət gizlində saxlamaq mümkün olmaz!

**Qoçu Nəcəfqulu, Məşədi Adil, Dağlı Musa, Malbaş Yusif, Xırdalanlı Dadaş, Hökmalılı Qubad, Sana Pırcan, qoçu Şahbaba, Teymur bəy Aşurbəyov, Kəblə Abdulla Zərbəliyev, Kəblə Hacı Bala, Ağa Kərim, novxanılı Məşədi Hacı oğlu, Qoçu Əziz, eləcə də, Qubada Əli bəy Zizikski, Qubalı Aslan bəy Qardaşov, Əli Əsədullayev, Hacı Mürsəl, qoçu Güləhməd, Türbəti, Məşədi Ələsgər, həm qoçu həm də, milyonçu Murtuza Muxtarov, Qoçu Qafar və digər Bakı qoçuları haqqında el arasında hekayələr, rəvayətlər dolaşır. Xalq onların xidmətini unutmur! Odur ki, 100 il keçməsinə baxmayaraq belə oğullar unudulmur**

**Allahdan hər birinə rəhmət diləyirik.**

*Əntiqə Rəşid*

# Sənsiz ötən 30 il

Haqlı olaraq deyirlər ki, dünya bir udum su, bir əlçim yuxudu. Bir də deyirlər ki, ölüm qaşla göz arasındadır. Bunların doğru olduğuna yaşadıqlarım məni inandırdı,lakin mənliyi nəfsindən ucada dayanan, heç kəsdə və heç nədə mənfəət aramayan, ata-anaya sonsuz sevgi bəsləyən, xeyirxahlığı və ədəb-ərkanı ilə minlərə nümunə olacaq ömür yaşayanlar mənim aləmimdə varlıqlarında da, yoxluqlarında da dünyaya sütundurlar...

Dünya nəyə gərək olardı yaxşılar, dar məqamda, ağrılı anlarda təsəllidən pay verməyi həyatının mənası hesab edənlər, öz sadəliyində və həyat tərzində ədalətə sığınanlar, duz-çörəyi itirməyənlər olmasaydı. Xoş halına bu xarakterlə ömür sürüb öz cismani yoxluğundan sonra da bu həyatda var olacaq səsi, sözü, fikri və düşüncələri ilə ömrünü uzada biləcək insanların. Nə kasıblıq, nə qohum-əqrabasızlıq, nə də həyatın gətirdiyi gözlənilməz hadisələr bizi insan olmaqdan uzaq sala bilməz - əgər varsa var, yoxdursa olmayacaq.

Gəlimli-gedimli dünyanın da bəzəyi öz yaşamı boyunca ətrafında olanlara rəğbəti, təmiz niyyəti və gerçəkliyi ilə özündən sonra gələnlərə mütləq şəkildə yol göstərib, o iz ilə addımlamağı öyrədənlərdir.

Bütün insanların ömrü acılı-şirinli xatirələrdən ibarət romanlara bənzəyir və ömrün açarı olan o xatirələrdə səmimiyyət, təssübkeşlik, bütövlük, əsasən də dəyər vermək qabiliyyəti yoxdursa, yaddaşlarda özünə məskən qurub, qalan deyil. Yıxılanın qolundan tutmayan, özündən savayı heç kimin halına yanmayan, rəhmətlik anam demiş: "ilan öldürənə daş verməyən" birinin bu dünyadakı missiyasının nədən ibarət olması da özündən başqa heç kəsə aydın deyil, olmaz da.

Yazmaq istədiklərim, ürəyimə yük olanlar, sənsiz ötən 30 ilin sızıltıları köksüm altda elə qəlbdidən hisslər yaradıb ki, hansı fikrimi hansı düşüncəmə çalayım bilmirəm, Çərkəz.Nə sənin balalarından doymamağından, nə də səndən sonra onlara biganə olan adı doğma, özü çoxdan yad olan qohumlardan söz salmaq istəmirəm.

Nə də bir an belə unuda bilmədiyim o ağrılı günlərimin birində (balaca Çərkəz təzə doğulmuşdu) tək-tənha, (qardaşlarıma və valideynlərimə bildirmədən)Belarusiyaya uçub, bir həftə şaxtalı-qarlı havalarda çəkdiklərini sözə çevirəcəm...O günlərimi ətraflı bilən, səndən sonra xəstə ola-ola o uzaq yola çıxmağımdan narahat olub, məni yaxın dostun Sabirin (Minsk şəhərində yaşayan) qardaşlarına əmanətləyən, dəfələrlə işini-gücünü buraxıb, mənimlə bərabər sənin ziyarətinə gələn, bu gün də məni görəndə sənin adını çəkib ağlayan əmin oğlu Səfər kənddə Quliyevlərin bəzilərinə əsəbləşərək (Sona niyə bu qəbrüstə tək olmalıdır? Haradasız? Çərkəz bu kəndə niyə gəlirdi?)deyib qınayırdı... O dövrdə Rusiyada olan bacın oğlu Natiqdə o günlərimin şahididir... Allah belə qədirbilənləri qohumluqda mənə çox görməsin.Onu da deyim ki, yazdığım şeirlərin birində belə bir cümləm var: "An var, ömrə bərabər, ömür də var an qədər", bax, elə o ömrə bərabər anlardan mənə yaşadanları, ürəkdən yananları, isti münasibətlə halımı soranları unuda bilməmişəm, bilmərəm də.

30 ildir hər dəfə o kəndə məzarını ziyarət etməyə gələndə sanıram ki, qalxıb məni qarşılayacaqsan, əfsus belə olmur. Daşdan mənə baxan kədərli gözlərinə baxıb deyirəm: "Səndən bunu gözləməzdim, yenə məni buradan tək yola salırsan?...".

Sonra da özüm-özümə təsəlli olaraq deyirəm: "Az qalıb, görüşəcəyik, Çərkəz".

Sənsizlikdə çəkdiyim çox ağrıacıları çalışıb tam çılpaqlığı ilə qələmə almayacam, çünki qələm od tutub yanar və vərəqləri külə döndərər, inan... Sadəcə yaza biləcəklərimi və mümkün olanları qələmimə pıçıldayıram. Atasızlıq ağrıları ilə böyüyənvə yetimliyi həyatı boyu özünə dərd eləyən və bütün bunlara baxmayaraq ucalıqdan enməyən, minnət götürməyən, ömür-gün yoldaşım, dəyərimi bilənim! Səninlə keçən günlər, aylar, illər bəziləri üçün çoxdan yuxuya dönsə də, hər anı xatirimdə və yaddaşımdadır... Hər zamankı kimi sənsizlikdən yazmaq, o soyuqluğu yenidən yaşamaq çox çətindir, dözümümü belə üşüdür.

1994-cü ilin iyun ayının 3-də kəndə böyük bacının övladının toyuna gedirdik, biz hər vaxt belə edərdik, Bakıya köçəndən heç kimin xeyir-şərindən qalmazdıq. Son dəfə birlikdə yola çıxanda ağlıma gəlməzdi ki, gedəcəyimiz ünvana çatmadan ayıracaq bizi fələk... Səni məzara göndərib, məni kədərə sürgün edəcək.30 ildir həsrət həsrət üstünə qalanaraq köksüm altında közü qorlanmayan ocağa dönüb. Səndən sonra bütün sıxıntılarımızı qardaşların öz çiyinlərinə götürsə də, mən sənin yoxluğunla barışa bilmədim, çünki nisgillər sözə, cümləyə tökülsə də, sızıltısının göynərtisinin çəkisi sonsuzlaşdı. Təzəcə toy eləmişdik və o toydan 2 həftə sonra məzarınla üz-üzə qalmaq da, xəstəxanalarda illərlə alnına qəzalar yazılmış(indisindən iraq) oğlum Əlinin yanında səhəri açmaq da, "nəfəsim" deyə çağırdığın, ərköyünlüyü yuxularda qalan Çingizin mənə söykənərək palatada səhəri açmasını görüb, diri-diri ölməyim də mənim taleyimin rəng-rufuna dönmüşdü. Qınayanlar da var idi, yorulub uzaq duranlar da, heç vecinə almayanlar da... Bu 30 ildə çoxlarının əsil sifətini gördüm, çox peşmançılıqlar yaşadım, amma nə yazıq ki, özüm dəyişə bilmədim.

Sənin xətrinə bəzilərinin günahından keçdim, bəzi haqqı-sayımızı su kimi udub unudanları isə uzaqda saxlamağa üstünlük verdim...

Ocağımızın istisini qorumağa çalışdım, çox dözülməz və pələsəng keçdi illər. Yel ətəkli, quş qanadlı qardaşım Füzulinin dünyasını vaxtsız dəyişməsi həyatımı daha betər - dəhşətli acılara bələdi... O, məni illərlə dərddən ayırmağa, çiynimə düşən yükdən qorumağa çalışarkən betərdənbetərinə saldı bu amansız dünaydan gedişiylə... Bunlarla barışmaq mümkün deyil, sadəcə var olub, nəfəs alınca yaralı quş kimi köksüm altında çırpınan ürəyimlə danışmaq qaldı mənə...

Səni itirdiyimiz o qəzadan sonra dilə alınmayan, çox acıları qələmimlə bölüşməyə başladım...Qardaşlarımın mənə görə çəkdiklərinə dözə bilmirdim, amma susurdum, əlaçım yox idi. Sənin atan yox, qardaşın yox. Sənsizlikdə mənim tək umudum qardaşlarım idi. Çünki, Əlinin ayağının buddan (oqəzada) kəsilmək qərarını verən həkimə Füzulinin təpkisi, sərt sözləri, keçirdiyi gərginlik də, xərc-xəsarət də o vaxt orada olanların sanıram yaxşı yadındadır... O günlərdə yanımızda qohumlardan yenə bacın oğlu Natiq var idi, tək o, görürdü zülümlərimin ərşə dayanmasını. O günlərdə Fəzli sənin məzarını götürdür, hər gün qapıya gələn yüzlərlə insanların qarşısına çıxır, məclisi idarə edirdi. Mən də sınıq-salxaq olmuş, su üzündə ləngərvuran gəmi kimi varlığımla-yoxluğumun arasında nələr olduğunu dərk etməyə çalışırdım. Bu yaşadıqlarım və çəkdiklərim məni 2 il sonra çox ağır keçən əməliyyata qədər apardı, burada da - onkologiya xəstəxanasında yenə qardaşlarım və dostları başımın üstündə idilər... O günlər narkoz verən Ələkbər həkim, Əhliman həkim, Şahbaz doktor, Leyla Sarıcalinskaya, Lalə həkim və bir çoxları palatada yanıma gəlir, hal-əhval tutur, saatlarla ağrılarıma dərman-dava edirdilər. Lakin o günlərdə də bir vaxtlar evimin başına keçirdiklərimin, xəstəxanalarda dallarınca süründüklərimin bəziləri gözə dəymədilər...

Beləcə keçib ömür, dadsızduzsuz və...belə bir ömrün yükü çiyinlərimdəbu günə qədər dəvam edir...

Ən ağrılı günlərin mübhəm əzablı ayları, günləri ürəyimdədir və bir an da unudulmur, əminəm ki, həyatımı bütün çılpaqlığı ilə qələmə alsam, məni qınayan olar ki, bu yaşamı özün seçmisən... Kənardan baxana Araz dayaz görünər... Lakin nə yazıq ki, çoxçox olanların (qarın süfrə deyil) hələ də pərdəarxasında saxlamaqla üstündən keçir və "Allaha pənah" deyib, yaşayıram...



Ötən 30 ildə bu evin, bu ocağın yükü, məni həm fiziki, həm də maddi-mənəvi, sözün tam mənasında yorğun salıb, arsız bəxtəvərlərə bunlar çatmaz ki...

Rəhmətlik atamla-anamı hər vaxt minnətdarlıqla anıram, ruhları şad olsun, çünki onlar mənim ağrılarıma heç vaxt biganə qalmadılar, nə qədər ki, anam kənddə idi, qoymazdı məni Çərkəzin məzarı üstə tək qalam və ya o daşın üstündə toz görəm. Onlar məni bu od-alovun atəşində yandığımı görüb qınamadılar, əksinə, mənim ən böyük təsəllim oldular... Beləcə bu 30 ilin qısaca rəng-rufunu qələmə söyləməyə çalışarkən onu da deyim ki, səndən sonra bu evdə dünyaya iki uşaq gəldi və mən onlara - doğulandan bu günədək hər mənada ömrümdən, canımdan, sağlamlığımda pay verə bildim. Biri sənin, biri də mənim adımı daşıyır. Taleləri Allahdan gözəl olsun. Sanıram bu mənim borcum idi. Deyilənə görə,nənəliyin dastanlara sığmaz, görənlər və görmək istəyənlər belə qiymətləndirirlər.Doğum evlərindən tutmuş ta iş həyatlarına qədər nəvələrimin hər an yanlarında olmuşam. Əslində onlarla birgə uşaq baxçasına, orta məktəbə, hazırlığa, ali məktəbə gedib, hər anlarına şahidlik etmişəm, sanıram bunu yetərincə edə bilmişəm. Bir tək çoxları kimi boğazdan yuxarı "quru qurban olum"u nə yazıq ki, bacarmadım...

Onu da deyim ki, bütün analar kimi övladlarıma da heç vaxt biganə olmamışam, hər zaman çalışmışam (gücüm daxilində, bəzən də daha artıq) sənin yoxluğunu onlara hiss etdirməyim. Hətta sənin məzarını bu 30 ildə ziyarət etməyə gedəndə belə onlara bildirməmişəm, maşın tutub o kəndə tək gedib qayıtmışam, düşünmüşəm ki, bu mənim çəkəcəyim ağrıdır.

Oxucum onu da bilsin ki, səndən sonrakı 30 ildə yenə BDU-da çalışıram, BDU mənim ikinci doğma evimdir. Burada dəyərim və qiymətim yetərincə verilir, yeri gəlmişkən, bu 30 ildə səni heç unutmayan həmkarlarımıza da sonsuz sevgilərimi və minnətdarlığımı bildirirəm, məni anlayan hər kəsə son nəfəsimə qədər borcluyam...

Dəyərli dostlarımız, cəfakeş qohumlar və etibarlı qonşularımız bu 30 ilin hər gününə şahiddirlər, onlara da bu gün bir daha öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu gün mən tərəfdən yazılan bu fikirlər ötən anları-günləri, illəri gözünüz önündə canlandıraraq, yəqin ki, məndən də çox söz deyəcək sizlərə... Mənim üçün mənə ünvanlanan bir kəlmə səmimi söz, qəlbovudan fikir, yazılan təsəlli yazıları, məqalələr, şeirlər doğmalığın təzahürüdür. O üzdən hamınıza və ayrı-ayrılıqda hər birinizə səadət dolu uzun ömür diləyirəm. Və bir də demək istəyirəm ki, xəbərin olsun, 30 ili mən də belə yaşadım...Əgər bu yaşamaqdırsa!..

**Sona Çərkəz**

## *Zurabişvili: "Biz Avropa gələcəyini, yoxsa Rusiyanın qulu olmağı seçəcəyik?"*



**Gürcüstan parlamenti xarici agentlərlə bağlı qanun layihəsi ilə bağlı prezident vetosunu keçdikdən sonra, Saloma Zurabişvili Gürcüstan xalqını seçim qarşısında qoydu: "Biz avropa gələcəyini, yoxsa Rusiyanın qulu olmağı seçəcəyik?"**

Beləliklə, Gürcüstan prezidenti, "xarici agentlərlə" bağlı qanun layihəsinə qarşı referendum keçirməyə hazırlaşır. Zurabişvili, etiraz edən müxalif qüvvəkərə müraciət edərək: "Sizin bu günki enerjiniz imzalar toplayıb mənə gətirməyinizə sərf olunmalıdır"- deyə ölkə başçısı bəyənatına aydınlıq gətirib.

Gürcüstan Respublikasının "Referendum" qanunlarına görə, xalqın öz iradəsini bildirmək istəyi üç halda tələb oluna bilər.

Əgər bunu hökumət və ya parlament tələb edərsə, yaxud da 200 mindən az olmayaraq vəyəndaş imzası ilə müraciət olunarsa, prezident referrndum keçirilməsi ilə bağlı əmr verə bilər. Lakin əlavə olaraq baş nazir də bununla bağlı razılıq verməlidir.

Yəni, yenə də məsələ gəlib dalana dirənir. Veto səddi aşılandan sonra, qanun layihəsi yenidən imzalanmaq üçün prezidentə təqdim edilməlidir. Əgər prezident bu qanunu imzalamaqdan imtina edərsə, onda qanunu parlamentin sədri imzalayıb elan etməlidir. Hakim partiyanın inadla bu qanun layihəsini qəbul etməsi, faktiki olaraq xalqı iki yerə parçalayıb.

Avropa eşqiylə yaşaysnlara və Rusiyanın yedəyində germək istəyənlərə.

Bu iki tərəf arasında artıq dərin uçurum yaranmaqdadır.

**Bu arada Avropa İttifaqı Gürcüstanın bu quruma inteqrasitasını dayandırmaqla, ABŞ isə ən yaxşı bacardığı üsulla, "bu ölkədə demokratiyaya xələl gələrsə" bəhanəsiylə sanksiyalar tədbiq edəcəyi ilə hədələyiblər.**

**Rüstəm Hacıyev**

## Şagirdlərin beli əyilib



**Bu gün Azərbaycan məktəblərində ibtidai sinif şagirdlərinin nələr çəkdiyini çoxlarımız yaxşı bilirik!**

Bilirik ki, onların kitab-dəftərlərlə dolu çantaları nə qədər ağır olur. Bu çantaları götürməyə hər şagirdin gücü çatmır. Gücü çatanlarsa, o çantanı götürərkən çox əziyyət çəkir. Həkimlər, eləcə də ayrı-ayrı ekspertlər bildirir ki, ibtidai siniflərdə oxuyan şagirdlər bu çantanı çiyninə alıb, aparарkən həddindən artıq ağır olduğuna görə tez yorulur və belləri əyilir.

Bu isə gələcəkdə həmin uşaqlarda müxtəlif xəstəliklərin yayılmasına, eləcə də fəqərə yırtığının olmasına şərait yaradır! Bir neçə gün bundan öncə Yeni Günəşlidə dərsdən nəvəsini çıxmasını gözləyən nənə uşaq gələn kimi, çantanı onun əlindən alaraq öz belinə keçirdi! Artıq bütün cəmiyyət və valideynlər yaxşı bilir ki, çantalar həddindən artıq ağır olur və bunu götürən şagirdlərin beli əyilir! Neçə illərdir bu barədə sosial şəbəkələrdə, cəmiyyətdə müzakirələr gedir, amma çox təəssüf ki, problemlər bu günə kimi öz həllini tapmayıb! Nəticədə isə ibtidai siniflərdə təhsil alan şagirdlər min bir əziyyətlə üzləşir.

Ona görə də Elm və Təhsil Nazirliyi bu məsələni diqqət mərkəzində saxlamalı və problemin tezliklə həllinə nail olmalıdır. Əks-təqdirdə o uşaqlar hələ bundan sonra da çiyinlərində gücləri çatmadığı çantanı çox daşımalı olacaqlar!!!

## Un niyə bahalaşmalıdır?

**Son vaxtlar ölkəmizdə unun bahalaşması ilə əlaqədar olaraq müxtəlif KİV-lərdə və sosial şəbəkələrdə, eləcə də cəmiyyətdə müxtəlif söz-söhbətlər dolaşır.**



Bunun nə dərəcədə həqiqətə uyğun olub-olmadığını aidiyyatı qurumlar daha dəqiq bilirlər. Onlar isə bu barədə hələ ki, açıqlama vermirlər. Və bir də hər hansı məhsulun qiyməti qalxmamışdan öncə cəmiyyət arasında doğru olmayan məlumatlar dolaşır. Araşdırma aparandan sonra hər şey aydınlaşır. Məlum olur ki, o informasiyalar həqiqətə uyğun deyilmiş. Əlbəttə, bu gün çox şeyin qiyməti qalxıb və unun da qiyməti bahalaşa bilər. Amma ölkəmizdə bir müddət öncə, səhv eləmirəmsə, unun qiyməti ucuzlaşmışdı. İndi də bahalaşsa, 5-10 qəpik olar! Üstəlik də bu il ölkəmizdə əvvəlki illərlə müqayisədə daha çox taxıl əkilib.

Belə ki, işğaldan azad olunmuş, Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Laçın rayonlarında min hektarlarla sahələrdə taxıl əkilib. Bununla yanaşı, dəmyə torpaqlarda da bu il bol məhsul olacaq! Deməli, taxılımız və çörəyimizin də bol olması gözlənilir. Hətta yay aylarında unun qiymətinin bir qədər də aşağı düşməsi gözlənilir!

## Manaf Ağayev Füzulidə məktəb tikdirir?



**Hamı yaxşı bilir ki, müğənni Manaf Ağayev Füzulidə anadan olub.**

Və o, bu torpağı, bu yurdu çox istəyir. Manaf rayonun ən ağır günündə - Birinci və İkinci Qarabağ savaşında elinə-obasına arxa durub, kömək edib. Kim ondan yardım istəyibsə, əliboş geri dönməyib.

Eşitdim ki, Manaf Ağayev Füzulidə məktəb tikdirir. Niyə də tikdirməsin? Əgər müğənni Yusif Mustafayev öz kəndində məscid tikdirirsə, Manaf da məktəb tikdirir. Deyilənlərin nə dərəcədə doğru olub-olmadığını dəqiqləşdirmək üçün Manaf Ağayevin mobil telefonuna zəng vurduq, lakin zəngimiz ona çatmadı!

Fərqi yox, yalansa da düz olsun və məktəb tikdirməkdən şərəfli iş yoxdur!

## Beş dəqiqə əvəzinə...

**28 may Müstəqillik günündə Bakıda çox adam şəhər gəzintisinə çıxır, Dənizkənarı parka yolunu salır və digər gözəl yerlərə baş çəkirlər.**

Həmin gün mən də bir dostumla şəhərə gəzməyə getmək istədim. Amma Yeni Günəşlidə 50 nömrəli marşrutda işləyən avtobusu gözləməkdən lap təngə gəldik! Tərs kimi də bayram günü Bakıda hava çox isti idi. Adi vaxtlarda dayanacağa beş dəqiqədən bir çatan avtobus 15 dəqiqə keçməsinə baxmayaraq, hələ də gəlib çıxmaq bilmirdi. Axır ki, 20 dəqiqədən sonra avtobus birtəhər dayanacağa gəlib çatdı!

Dayanacaqda isə çoxlu sərnişin vardı. Hamı birtəhər avtobusa mindi. Sərnişinlərdən biri sürücüdən soruşdu ki, bəs bayram günüdür, niyə gec gəlirsiniz ? Sürücü də dilləndi ki, maşınları-



mızın bir neçəsi xarab olub, xətdən çıxıb. Ona görə də belə vəziyyət yaranıb! Ümumiyyətlə, 50 nömrəli marşrutda belə hallar tez-tez baş verir. Ən azından ona görə ki, bu avtobuslar çoxdan istismar müddətini başa çatdırb.

Başqa sözlə demiş olsaq, onlar fiziki və mənəvi cəhətdən köhnəlib. Buna görə də o avtobuslar yeniləri ilə əvəzlənməlidir. Bəlkə bundan sonra 50 nömrəli marşrutda işləyən avtobuslar vaxtında dayanacaqlara çata və sərnişinləri mənzil başına rahat çatdıra!

## Kitab oxuyan varsa...

**Sovet dövründə metroda, avtobusda, qatarda qəzet, kitab oxuyan insana rast gəlmək olurdu.**

Elə ki, dövran dəyişdi həmin yerlərdə qəzet və kitab oxumaqdan çoxları vaz keçdi. Mobil telefonlar çıxandan sonra isə demək olar ki, hər şey dəyişdi. Yəni qəzet və kitabı bu mobil telefonlar əvəzlədi! Mayın 29-da metronun Həzi Aslanov stansiyasından "İçərişəhər" stansiyasına gedən metro qatarına mindim. Mənim əyləşdiyim vaqonda hamının gözü telefonun ekranında idi. Hətta yetmiş yaşlarında olan bir qadın da gözünü telefondan çəkmirdi! Bir xanımınsa, kitab oxuduğunu görüb çox sevindim.



**Dedim ki, nə yaxşı bizim millətdən də kitab oxuyan varmış. Amma sonradan gördüm ki, o xanım azərbaycanlı deyil, rus imiş. Bax onda qanım qaraldı. İşdən qayıdanda da 77 nömrəli avtobusda bir qızın kitab oxuduğunu gördüm! O qadın da rus idi. Yenə hər halda onlar Azərbaycan vətəndaşlarıdır! Bir kitab oxuyan varsa, buna da min şükür və inşallah bizim millətin nümayəndələrini də kitab oxuyan görərik!**

**EMİL FAİQOĞLU**



# Bu rayonlarda ağaclar qanunsuz kəsildi: təbiətə 110 mindən çox ziyan dəydi

**Qəbələ, Quba, Xaçmaz, İsmayıllı, Masallı və Ağdaş rayonları ərazisində ağacların qanunsuz kəsilməsi faktları aşkar olunub.**

Bu barədə Dövlət Ekoloji Təhlükəsizlik Xidməti məlumat yayıb.

Bildirilib ki, araşdırma zamanı Qəbələ şəhəri, 28 May küçəsi 82 ünvanında "Fuel-Tradinq" yanacaq doldurma məntəqəsinin ərazisində Xəyyam Hacıyev, Quba rayonu Gədikqışlaq kəndi ərazisində, Vəlvələ bələdiyyəsininmülkiyyətində olan torpaq sahəsində Simon Nisanov, Xaçmaz rayonu Xaçmaz-Gülalan avtomobil yolunun sol tərəfində Vidadi Hüseynov, İsmayıllı şəhəri Nizami küçəsində Məzahir Şahvəl
edov, Masallı rayonu Təzəkənd kənd R.Nəbiyev adına tam orta məktəbin həyətində Fəxrəddin Babayev, Ağdaş rayonu, Heydər Əliyev prospektində Şahin Qəhrəmanov tərəfindən ağac və kolların qanunsuz kəsildiyi məlum olub. Nəticədə təbiətə 114 650 manat məbləğində ziyan dəydiyi müəyyən edilib.

**Faktlarla bağlı akt tərtib olunub. Hər bir fakt üzrə yaşıllıqlara dəymiş ziyanın məbləği cinayət tərkibi yaratdığından məsələyə hüquqi qiymət verilməsi üçün toplanmış sənədlər Baş Prokurorluğa göndərilib.**

<u>*Əntiqə Rəşid*</u>



## Nikos Dendias, siz dilinizi dinməz saxlayın ki, Türkiyə də "təhlükəli" olmasın

***Yunanıstanın müdafiə naziri Nikos Dendias Türkiyənin Yunanıstana münasibətindən danışıb.***

***Dendias parlamentdə xüsusi olaraq deputatlara müraciət edərək bildirib ki, Türkiyə tərəfinin Yunanıstana münasibətdə tutduğu mövqe strateji və uzunmüddətli təhlükə yaradır.***

***"Əgər təkcə suverenlik hüquqlarına deyil, həm də suverenlik və azlıqların statusunun müəyyənləşdirilməsi ilə bağlı beynəlxalq müqavilələrə müraciət edən qonşu ölkə varsa, o ölkə açıq ontoloji təhlükədir".***

***Əvvəlcə qeyd edim ki, Yunanıstandanyersiz və zamansız gələn açıqlamalar həmişə Ankara-Afina xəttində gərginliyi artırıb.***

***Uzağa getmədən son iki ildə Yunanıstanın arxadan Türkiyəyə zərbə vurmaq planlarının bir neçəsini burda xatırladacağam: Deməli 2022-ci ildə Yunanıstanın baş naziri Miçotakisin ABŞ-da verdiyi açıqlamalardan sonra Türkiyə ilə Yunanıstan arasında münasibətlər daha da gərginləşdi.***

***"CNN Yunanıstan" telekanalı baş nazir Kiriakos Mitsotakisin "Türkiyə planını" qalmaqallı başlıqla oxuculara açıqladı: "Mitsotakis bir tərəfdən türk siyasətçilərinin döyüş hayqırtılarını və anekdot ifadələrini cavabsız qoymur, digər tərəfdən də hər fürsətdə məsələni beynəlxalq arenaya çıxarır. Baş nazir ABŞ Konqres üzvlərindən xahiş edir ki, regionda silah satışı ilə bağlı qərarlar qəbul edərkən NATO-nun cənub-şərq cinahında yeni qeyri-sabitlik təhlükəsini nəzərə alsın deyərək, b dolayı yolla F-16 təyyarələrinin Türkiyəyə satışına icazə verməməyi tələb edir.***

***Daha sonra Fransa, Yunanıstan və Kipr AB-nin Ukrayna üçün Türkiyənin "Bayraqdar" PUA-larını almasına qarşı çıxıb.***

***Hələ 2020-ci ildə Türkiyənin Aralıq dənizinə "Oruc Rəis" seysmik tədqiqat gəmisinin göndərilməsi Yunanıstanda sərt reaksiya ilə qarşılanıb. Təcili Fransadan 10 milyard avroluq silah alacağını elan edən Yunanıstan 2020-2021, 2020-2025-ci il üçün iki silahlanma proqramı üzərində çalışdığını da vurğuladı.***

***O arada "Türkiyəyə qarşı müqavimət göstərən hərbi gücümüz var" deyən***

***Yunanıstan Baş naziri Kiriakos Miçotakis***

***Türkiyəyə Şərqi Aralıq və Egey dənizlərindəki haqlarından vaz keçmək çağırışı etdi və Avropa Birliyinin zirvə toplantısına qədər "hörmətli davranış" sərgiləyəcəyi təqdirdə sanksiyalardan qaça biləcəyini iddia etdi.Türkiyə indiki kimi qərarlılıq nümayiş etdirərsə, AB-nin sanksiya qərarı çıxarmaqdan başqa seçimi qalmayacaq.***

***Artıq bu məsələ Avropanın həmrəyliyindən kənara çıxır. Məsələ Avropanın strateji maraqlarının, həyati mənafeyinin təhlükə altında olduğunu qəbul etməklə bağlıdır. Avropa gerçək şəkildə geopolitik gücünü göstərmək istəyirsə, "təcavüzkar" Türkiyəyə güzəştə gedə bilməz"***

***Yadıma düşmüşkən deyim: Həmin vaxt Türkiyə suriyalı qaçqınlar üçün Avropa sərhədini açmışdı axı... Bax onda, Yunanıstan Türkiyəni insan qaçaqçılığı etməkdə də günahlandırmışdı.***

***Xatırlayırsınızsa, hələ 2022-ci ildə dörd yeni baza ilə Yunanıstandakı ABŞ bazalarının sayı 9-a çatdı. 2021-ci ilin iyul ayında ABŞ Aleksandropolisdə 400 tank və zirehli texnika yerləşdirdi. Türkiyə prezidenti Ərdoğan bu bazalar haqda, onlar "Rusiyaya qarşı deyil, Türkiyəyə qarşı qurulur" deyə açıqlama verdi. Təbii ki, baza Türkiyədən cəmi 45 kilometr aralıda yerləşməsi Ərdoğanı haqlı çıxarır.***

***Türkiyənin "qulağının dibində" yaradılmış hərbi bazaların "Rusiyaya qarşı qurulması" nağılına heç uşaqda inanmazdı.***

***Hətta ötən il ABŞ Yunanıstanda - Skyros və ya Lemnos adalarında yeni hərbi baza tikməyi planlaşdırdığını açıqladı: Bununla yanaşı, Yunanıstan üçün ABŞ-ın adalar üzərində nəzarəti Yunanıstanın əhəmiyyətli hərbi obyektlərini Ankaradan gələn istənilən təhlükədən qoruma imkan verəcək", - materiallarda deyilir.***

***Ümumilikdə, ölkə daxilində 20-yə qədər ABŞ hərbi bazasının yerləşdirilməsi planlaşdırılır. Lakin bu iki ada ABŞ-ın əsas diqqətini cəlb edir.***

***İndi Yunanıstanın rəsmi şəxsinin- müdafiə naziri Nikos Dendiasın Türkiyədən guya narahat olması, onu təhlükə adlandırması gülünc görünsə də, bunlar hələ də başa düşmürlər ki, erməni kimi şüvən salmaqla, məzlum sifət alıb ağlamaqla heç kəsin haqqına girmək mümkün deyil. Elə Türkiyə kimi bir qüdrətli ölkənin haqqına girmək isə heç mümkün deyil.***

***Yunanıstan üçün ən yaxşı və təhlükəsiz yol qonşu ilə mehriban olmaq, dilini qarnına soxub susmaqdır. Əks halda Avropaya, ABŞ-a pənah aparıb qonşusuna təpik atan xırda ölkələrin aqibətini gözünün qabağına gətirmələdir.***

VAQİF YUSİFLİ



# 65 yaşın poetik ağrıları

**Şair-publisist Əbülfət Mədətoğlu keçən il 65 yaşına gəlib çatdı, indi 70-ə doğru yol gedir. Mən onu çox gözəl tanıyıram, şeir kitablarını və mətbuatda dərc olunan şeirlərini müntəzəm izləyirəm. Sayını bilmirəm, bir neçə dəfə onun şeirləri haqqında yazılar da yazmışam. Mən onun özündən daha çox şeirlərilə dostluq edirəm. Əslində, ŞEİR elə ŞAİRİN özü deməkdir.**

*İlahi, verdiyin bu ömür payı -*
*Mənim həm axşamım, həm səhərimdi...*
*İlahi, çəkdiyim ağrının sayı -*
*Mənim həm sevincim, həm qəhərimdi...*

*İlahi, ovcumda tutduğum daş da,*
*Gerçək olanlara çatılan qaş da...*
*Lap kirpik ucunda donan o yaş da*
*Mənim həm şərbətim, həm zəhərimdi...*

*İlahi, günahdan biçilən köynək,*
*Hər ahla böyüyən, kiçilən köynək...*
*Qəlbimlə, ruhumla içilən göynək -*
*Evimdi, kəndimdi, həm şəhərimdi...*

*İlahi, xəyalın gerçək üzü də*
*Göstərir özündə əyri, düzü də!..*
*Bəndə say bu yaşda barı bizi də -*
*Deyim bu da mənim bar-bəhərimdi!*

**Bu şeir elə bilirəm Əbülfət Mədətoğlunun həyat və sənət məramını ifadə edir. Həyat və sənət onun üçün həm sevincdi, həm qəhər, həm şərbətdi, həm zəhər, evdi, kənddi, şəhərdi... Əbülfət Mədətoğlu şeirlə yaşayan, şeirlə nəfəs alan və şeirlə də dərdini ovudan bir şairdir. Nəbi Xəzri deyirdi ki, "Şeir mənim üçün bir kainatdır!" Əbülfət nə deyir? O da eyni fikri söyləyər, amma onun kainatı - şeir dünyası tamam fərqli bir dünyadır. Onun kainatı Qarabağdır! Əbülfət bütün varlığı ilə doğulduğu torpağa, Tuğ kəndinə bağlıdır. O, yüzlərlə, minlərlə qarabağlı kimi həyatında Vətəndə Vətən həsrəti çəkib. Və indi 44 günlük zəfər savaşından sonra o çəkdiyi ağrıları unutmağa başlayıb.**

**Yeni kitabının ən sonuncu şeiri Əbülfərin böyük sevincini ifadə edir: "Xankəndidə sancılan bayrağıma səcdələrlə".**

*Bu payız ömrümün baharı oldu,*
*Gözü aydın olsun torpağın, daşın!..*
*QƏLƏBƏ əbədi vüqarı oldu -*
*Sildi Qarabağım, gözünün yaşın!..*

*Səksəndi bu yurdun kövrək ürəyi,*
*Açdıq müjdə ilə nurlu sabahı!*
*Çıxardıb əynindən işğal köynəyin -*
*Xanın kəndi oldu İLHAM şəhəri!*

*Axır ki, duruldu yurdun səması -*
*Dualar selləndi şəhid adına!*
*Əsgər oğulların Vətən anası -*
*Təbəssüm sarıdı yaralarına!*

*Qürura bələndi Vətən büsbütün,*
*Ürəyim fərəhdən dalğa yarırdı...*
*Bayraq da yerinə qayıtdığıyçün -*
*Sonsuz fəxarətlə dalğalanırdı.*

**Əbülfət Mədətoğlunun kainatı hə də onun sevgi dünyasıdır. Onun digər şeir kitablarını da oxumuşam və sevgi şeirlərini sayca üstünlük təşkil etdiyini görürəm. İnsan hər yaşda sevə bilər və hər yaşda bu cevgi onun qəlbində çiçəkləyər. İstər vüsaldan yaz, istər hicrandan əzablardan şikayər et, əgər bu sevgi sənin damarlarında qan yerinə axarsa, deməli, yaşamaq sənin üçün elə sevgi ilə yaşamaq deməkdir...**

**Əbülfətin şeirlərində sevginin Ağrı tərəfi ön plana çəkilir.**

**Dilimdə bayatı var!**
**Üzü Ağrıya dedim...**

**Sevgi Ağrısı ilə yaşamaq sızıldamaq, inildəmək deyil. Füzuli nə deyirdi neçə əsr əvvəl:**

*Eşqdir ol nəşeyi-kamil kim,*
*ondandır müdam,*
*Meydə təşviri-hərarət, neydə*
*təsiri-səda.*

**Yəni eşq o qədər təsirli, o qədər qüvvətli bir duyğudur ki, meydəki hərarət, neydəki təsiredici, yanğılı səs eşqdən yaranır. Əbülfət məhz bu eşqi tərənnüm edir.**

*Bir sevginin söz şəkili önündə,*
*Dolu ürək, göz şəkili önündə...*
*Allah, mələk, öz şəkili önündə -*
*Səcdə elə məhəbbətə, söyləyir!*

*Hər kəlmədə vurğu düşür bir ada,*
*Sevgi dərya, o, dəryada bir ada.*
*Sevgisində yer qalmadı irada -*
*Səcdə elə məhəbbətə, söyləyir...*

**Əbülfət Mədətoğlunun lirik qəhrəmanı (lirik "MƏN") xaraktercə əzabkeş adamdır, amma bu əzabkeşlikdə sevgiyə inam duyğuları yaşayır.**

*Bir qələmdi, bir dəftərdi bir də söz,*
*Dil-dodaqdı, bir ürəkdi, bir də söz.*
*Bir baxışdı, nə gərəkdi burda söz,*
*Həm pərvanən, hə dəlinəm mən sənin.*

**Sevgi şeirlərində trafapet ifadələr, şablon sözlər işlətməkdən çəkinir Əbülfət. Onun metaforalara meyl etməsini xüsusi qeyd etmək istəyirəm. Məsələn: "Daığa kimi atılmışam Xəzərdən", "Mən vaxt öldürürəm, zaman səpirəm", "Ahlarım da şeir kimi oxunur", "Atını dördnala çapandı fələk", "Allah,yaman lalıxlayıb bu kədər", "Gözlərimdə qara bulud incəldi", "Dərdin saçlarını dibdən yolmuşam", "Başlayır bu şəhərin sənsizliyi" və s. onlarla belə misralarda Əbülfətin metaforaları şeiri necə də gözəlləşdirir.**

**Əbülfət əzəldən qoşmaya, gəraylıya, heca şeirlərini müxtəlif ölçülərinə meyl edib, (sərbəst şeirləri də az deyil). O, qoşmanı qoşma, gəraylını da gəraylı kimi yazır, yəni Azərbaycan şeirinin forma çərçivəsindən kənara çıxmır. İstər qoşma olsun, istərsə də gəraylı, şeirdə bir məna, mətləb olmalıdır. Və həm də məzmunla formanın vəhdəti hiss edilməlidir. Onun bir qoşmasını misal gətirmək istəyirəm:**

*Elə kövrəlmişəm, elə dolmuşam -*
*Belə kövrəlməyi bulud da bilməz...*
*Dərdin saçlarını dibdən yolmuşam -*
*Daha ağrısını unuda bilməz!*

*Yaramın qaysağı qopduğu andan*
*İncidim həyatdan, küsdüm bu candan...*
*Nə qədər analiz versəm də qandan -*
*Dərmanlar yaramı quruda bilməz!*

*Mənimlə bir canda dolanıb gəzən,*
*Könlümü incidən, ruhumu əzən...*
*İndi ha sığallan, indi ha bəzən -*
*Heç nə əhvalımı durulda bilməz!*

*İçimdə çəkdiyim içimdən böyük,*
*İkimiz birlikdə yerik, həm göyük!*
*Ürəyim, ətrafa baxıb az döyük -*
*Sevdiyin sevirsə, unuda bilməz!*

**XXI əsrin qoşmasıdır bu... heç klassik qoşmalara bənzəmir (məzmunca da, forma baxımından da).**

**Elə düşünməyin ki, Əbülfət Mədətoğlu bu yeni şeirlər kitabında ("Yoruldum ahları körpü etməkdən") ancaq sevgidən yazır. Əsl şair heç vaxt bir mövzuda qapanıb qala bilməz. Onun həyat, ölüm, dünya, yaşadığımız reallıqlarla bağlı şeirləri də az deyil.**

**Mən bu yazını Əbülfət Mədətoğlunun 65... şeiri ilə bitirirəm. Və ona 70-ə doğru gedən şərəfli ömründə uğurlar arzulayıram.**

**Döyür ağır-ağır, döyür aramla**
**Həm addım səsiylə, həm nəfəsiylə...**
**Əlimi sıxmağa qərar veribdi -**
**Daha açıq-aşkar bəy həvəsiylə -**
**65...**
**Yolun düzdən salıb, dağdan enibdi**
**Duman da bürünüb, arada çən də...**
**Yerimi görəsən hardan bilibdi -**
**Durub görüşümə gəlibdi kəndə -**
**65...**

**Hər yaz, möhtəşəm Türk Rivierasının qızıl çimərlikləri caretta (karetta dəniz tısbağaları) gəlişini alqışlayır. Türkiyənin Aralıq dənizi sahilləri bölgənin ən məhsuldar yuva qurma çimərlik yaşayış yerlərinə malikdir.**

Türkiyənin cənub sahilindəki Muğla, Antalya, Mersin, Adana və Hatay vilayətlərindəki çimərliklərdə caretta carettaların 22 yuvalama yeri var. Bu çimərliklərə Muğlada Dalyan, Ekincik, Sarıgerme və Fethiye; Antalyada Patara, Demre, Kumluca, Çıralı, Tekirova, Belek, Kızılot, Demirtaş və Qazipaşa; Mersində Anamur, Göksu Deltası, Davultepe, Alata və Kazanlı; Adanada Akyatan, Sugözü və Yumurtalık; və Hatayda Samandağ çimərliyi daxildir.

yaş arası çatır. Qarışıqlar aprel və may aylarında Aralıq dənizi bölgəsində yuvalama mövsümünə başlayırlar.

Adətən ay işığında çimərliklərə gələn caretta carettalar çuxurlar qazır, çuxurlara yumurta qoyur və sonra yenidən dənizə doğru yola düşür.

Dişi tısbağa hər yuvada orta hesabla 100 yumurta verə bilsə də, ümumiyyətlə bu yumurtaların təxminən 50



isə buralarda balıq tutmaqda ovçuları görmək olar. Qadağa zamanı həmçinin çimərliklərdə günəş çarpayılarından, çətirlərdən, süni işıqlardan istifadə etmək, səs-küy yaratmaq, çadır qurmaq, ocaq yandırmaq, çimərliklərdə çimmək qadağandır.

Muğlanın Cittaslow qəsəbəsi olan Köyceğizdəki qumlu İztuzu çimərliyi dəniz tısbağalarının məşhur yuvasıdır. Dalyan çayının Aralıq dənizi ilə qovuşduğu yerdə əmələ gələn çimərlik, şamla örtülmüş yamaclarla əhatə olunmuş qızılı qumları özündə əks etdirən caretta caretta üçün ekoloji xəzinədir. İztuzu çi-

# Türkiyə Rivierasında "Caretta mövsümü" başlayır

Bununla belə, dəniz tısbağaları ilk növbədə Antalya və Muğla sahillərində yuva qurur. Aprel ayının sonundan etibarən carettalar Muğlanın Ortaca rayonundakı dünya üzrə məşhur İztuzu çimərliyi və Antalyadakı Patara çimərliyi ətrafında dənizlərdə üzgüçülük edir.

Hər iki çimərlik may-avqust ayları arasında bu utancaq dəniz canlıları üçün yuva yerləri təmin edir, təbiət həvəskarları mübahisələri müşahidə etmək üçün ərazilərə axışır.

Qeyd edək ki, caretta carettaları mühafizə altındadır və kürü tökmə və yumurtadan çıxma mövsümlərində tısbağaların yuvalarının təhlükəsizliyini təmin etmək üçün könüllülər gecə çimərliklərdə patrul xidməti aparırlar. Ümumdünya Təbiəti Mühafizə İttifaqı (IUCN) tərəfindən kritik təhlükə altında olan növlər siyahısına daxil edilmiş tısbağaların ömürləri 70 və ya daha çox il ola bilər, yetkin tısbağaların qabıqlarının uzunluğu 90 santimetrdən uzun olduqda, adətən, onlar cinsi yetkinliyə 12-30 faizi yumurtadan çıxacaq. İnkubasiya dövrünü başa vuran balalar daha sonra Aralıq dənizinin sərin sularına getməlidirlər. Ancaq dənizə çatan hər min caretta carettadan yalnız ikisi yetkinlik yaşına qədər sağ qalacaq. Təbiəti Mühafizə və Milli Parklar Baş Müdirliyinin (DKMP) təsdiqlədiyi kimi, Antalya sahili Türkiyənin iyirmi iki yuvalayan çimərliyindən doqquzuna ev sahibliyi edir.

Türkiyənin və dünyanın ən uzun çimərliklərindən biri olan 18 kilometr uzunluğundakı Patara çimərliyi caretta carettanın yuvalandığı çimərliklər arasındadır. Beləliklə, Ekologiya, Şəhərsalma və İqlim Dəyişikliyi Nazirliyi Patara şəhərini Xüsusi Ətraf Mühitin Mühafizəsi Zonası kimi təyin edib və bu unikal ekosistemi və qarmaqarışıq yaşayış mühitini qorumaq üçün çimərlik saat 20.00-dan 08.00-a qədər ictimaiyyətə qadağandır. Gün ərzində yuvalar qəfəslər və işarələrlə təyin olunur. Ziyarətçilər gündüz saatlarında Patara'nın uzun sahil zolağından həzz ala bilərlər, axşamlar mərliyi Patara çimərliyi ilə eyni səviyyədə qorunur və əlavə olaraq yaxınlıqdakı qoruma və reabilitasiya institutu Türkiyənin digər sahil bölgələrində yaralanan dəniz tısbağalarına xidmət göstərir.

Görmədən Ayrılma: Türkiyədə mədəni irs obyektləri ciddi mühafizə tədbirləri ilə qorunur və təbii həyat tərzini təmin etmək üçün çoxsaylı davamlı layihələr həyata keçirilir.

Antik dövrün Likiya Birliyinin paytaxtı Patara Antik Şəhəri Patara sahilində yerləşir və dünyanın ilk demokratik məclisinin toplandığı Məclis binası və antik teatr kimi abidələrə ev sahibliyi edir.

**Bu, həm də bir çoxları tərəfindən "Şaxta baba" kimi tanınan Müqəddəs Nikolayın doğulduğu yerdir. Muğlanın Köyceğiz bölgəsini gəzərkən, Dalyanı ziyarət edə və xüsusilə eramızdan əvvəl IV əsrə aid qayaüstü oyulmuş məzarları ilə tanınan heyrətamiz Kaunos Antik Şəhərini kəşf edə bilərsiniz.**

# *Tarixdə ilk: İnsan şəkər xəstəliyindən sağaldı*

**Çinli həkimlər 59 yaşlı kişinin şəkər xəstəliyini kök hüceyrə terapiyasından istifadə edərək sağaltdıqlarını bildiriblər.**

Adalet.az bildirir ki, tarixdə ilk dəfə baş verən hadisənin araşdırması "Cell Discovery" jurnalında dərc olunub.

Xəstə 2021-ci ildə kök hüceyrə transplantasiyası əməliyyatı keçirib. O, 2022-ci ildən bəri qan şəkərinin səviyyəsinə nəzarət etmək üçün heç bir dərman qəbul etməyib.

Terapiyadan əvvəl kişi 25 ildir 2-ci tip diabetdən əziyyət çəkib və mədəaltı vəzində insulin istehsal edən dəmək olar ki, bütün hüceyrələri itirib.

Belə xəstələrin tez-tez bu hormonun inyeksiyasına ehtiyacı olur və sinir, böyrək və ürək zədələnmə riski artır.

Laboratoriyada çalışan alimlər kök hüceyrələrdən mədəaltı vəzi hüceyrələri yaradıblar. Sonuncuların özəlliyi ondan ibarətdir ki, onlar istənilən növ hüceyrəyə çevrilə bilirlər: sinir, əzələ, böyrək və başqaları. Kök hüceyrənin tam olaraq nə olacağı, tərkibindəki maddələrin kokteylindən asılıdır. Bu araşdırmada alimlər mədəaltı vəzi hüceyrələrinə çevrilmək üçün kokteyldən istifadə ediblər.

Bu hadisədən əvvəl bir nəfər də olsun şəkər xəstəliyindən xilas olmayıb. Dərman qəbul etmədən qan şəkərinin səviyyəsinin müvəqqəti olaraq normala yaxınlaşa biləcəyi remissiyanın mümkün olduğu göstərilib.

Bununla belə, bu, xəstələrdən nisbətən ciddi pəhriz və məşq proqramına riayət etməyi tələb edir. Alimlərin təsvir etdiyi hal həyat tərzini dəyişmədən orqanizmin qan şəkərini tənzimləmək qabiliyyətini bərpa etməyin mümkün olduğunu göstərir. Bunu təsdiqləmək üçün daha çox araşdırma tələb olunacaq.

Müəlliflər hesab edirlər ki, onların yanaşmasının 1-ci tip diabetli insanlar üçün uyğun olması ehtimalı azdır. Fakt budur ki, bu xəstəliklə immunitet sistemi mədəaltı vəziyə hücum edir. Buna görə də, orqanizm çox güman ki, köçürülən yeni hüceyrələri məhv edəcək.

**Araşdırma dünyada doqquzuncu əsas ölüm səbəbi olan diabetdən əziyyət çəkən yarım milyard insan üçün irəliyə doğru böyük bir addım ola bilər./lent.az**

# ŞAHİSMAYILIN "HEYDƏR ƏLİYEV – GÜRCÜSTAN" KİTABI

**Yaxın günlərin söhbətidi. Ocağı, ailəsi mənə doğma olan və hər zaman ərklə "Şəmməd əmimin oğlu" - deyib üz tutduğum, təmas qurduğum köhnə dostum telefonda bildirdi ki, zamanın olarsa Atatürk Mərkəzinə gəl!**

Çox təəssüf ki, mən üzrlü səbəbdən həmin vaxt onun yanında ola bilmədim. Amma ağlım, ürəyim yanında idi...

Bu dəvətdən sonra uyğun bir vaxtda və məkanda onunla görüşdüm.

Əvvəlcədən də rica etdim ki, Atatürk Mərkəzində ictimaiyyətə təqdim olunmuş kitabından da mənə bir pay ayırsın! Şəmməd əmimin oğlu bu istəyimi sayqı ilə yerinə yetirdi.

Biz görüşüb bir-birimizdən Vüqar həkimin iştirakı ilə hal-əhval tutduq. Və elə buradaca öyrəndim ki, paytaxtımızın möhtəşəm Atatürk Mərkəzində, özü də sözün həqiqi mənasında yüksək səviyyədə bir tədbir reallaşıb. Həm iştirakçıların kəmiyyəti, həm də çılpaq desəm




keyfiyyəti təqdimatın təşkilatçılarını məmnun edib.

Bu görüşə qatılanların böyük əksəriyyəti müəllifin çox böyük, məsuliyyətli və ağır bir işin öhdəsindən yüksək peşəkarlıqla gəldiyini birmənalı şəkildə , həm də səmimiyyətlə bəyan ediblər. Eşitdiyim xoş fikirlərin məmnunluğundan rahatlansam da, amma şəxsimin iştirakçı ola bilməməyimdən bir daha üzüldüyümü dostuma çatdırdım...

İndi gözdən keçirdiyim kitabın məziyyətləri ilə tanış olduqca əminlik hissi mənə güc gəlir, yəni bu kitabın həqiqətən çox dəyərli və möhtəşəm bir yaradıcılıq nümunəsi olması danılmazdır! Belə ki, iki hissədən ibarət olan kitabda müəllif həm araşdırmaçı, həm tədqiqatçı, həm də toplayıb araya-ərsəyə gətirən bir ziyalı işini görüb. Kitabda Ulu Öndərin hakimiyyətdə olduğu hər iki dövrdə Azərbaycan-Gürcüstan əlaqələrinə verdiyi töhfələr, bu istiqamətdə müəllifi olduğu DOSTLUQ salnaməsinin ayrı-ayrı məqamları, həmçinin qarşı tərəfin Ümummilli Liderimizə sayqı və sevgisi də öz əksini tapıb. Şahismayılın kitabından yararlanmaq üçün bir mənbə əhəmiyyəti də var. Ona görə ki, bu kitabda qonşu məmləkətdə soydaşlarımızın məskunlaşma coğrafiyası, sayılıb-seçilən ünlü insanlarımız, məşhur Gürcüstan azərbaycanlıları, müxtəlif sə-



nət və peşə üzrə seçilən, bir sözlə, hər birimizin tanımalı olduğumuz Azərbaycan İnsanları barədə bilgi verilib. Eyni zamanda mədəniyyət, təhsil, səhiyyə, idman sahələri üzrə, həmçinin ictimai-siyasi müstəvidəki fəallar barədə məlumatlar da kitabın əhəmiyyətini artıran məqamlardandır.

**Yaxından tanış olduğum kitabda Gürcüstanda yaşayan, yəni həm gürcü, həm də azərbaycanlı olan ayrı-ayrı şəxslərin qonşuluq, dostluq münasibətlərində Ulu Öndərin və bu gün isə ata vəsiyyətini birmənalı gerçəkləşdirən Azərbaycan prezidenti cənab İlham Əliyevin xidmətləri xüsusi minnətdarlıq hissləri ilə öz əksini tapıb. Mənim üçün önəmli olan bir məqam da 44 günlük Vətən Savaşına, Böyük Zəfərimizə Gürcüstandakı soydaşlarımızın, eləcə də gürcülərin münasibətinin bu kitabda yer alması idi. Bax bütün, amma qısa şəkildə əsas məziyyətlərini təqdim etdiyim bu kitab Şəmməd əmimin oğlunun yaradıcılıq UĞURU, iki qonşu xalqın münasibətlərinə isə hədiyyəsidir. İnanıram ki, köhnə dostum, Əməkdar jurnalist Şahismayıl Şəmmədoğlu yeni yaradıcılıq və həyat uğurları ilə bizləri zaman-zaman sevindirəcək!**

**Əbülfət MƏDƏTOĞLU**

---

# 50 ailədən biri: Xocalıya dönən Ceyran xanımın dostları ilə kövrək anları

**Bir həftə əvvəl Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin ("Qaçqınkom") Beynəlxalq əməkdaşlıq və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri İbrahim Mirzəyev verdiyi açıqlama nəin ki tək xocalıları, hətta deyərdim ki, bütün Azərbaycanı sevindirdi. İ. Mirzəyev açıqlamasında bildirdi ki, Xocalı şəhərinə 50 ailənin köçürülməsi may ayının sonuna qədər baş tutacaq.**

Bundan əvvəl Qarabağa köçünlərin dönməsi ilə bağlı xəbərlər onsuzda qəlbimizi sevindirmiş, ordumuza və dövlətimizə sevgimizi daha da alovlandırmışdı. Zəngilan, Qubadlı, Cəbrayıl, Füzuli, Laçın və digər rayonların əhalisi 31-32 illik həsrətdən sonra kövrələ-kövrələ, sevinə-sevinə yurdlarına dönüb. Bu qeyd etdiyimiz kim Azərbaycan tarixində ən sevindirici qürurlandırıcı günlərdən biri kimi artıq yaddaşımıza yazıldı.

İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, ilk növbədə, müasir infrastruktur formalaşdırılır, dayanıqlı məskunlaşma və iqtisadi reinteqrasiya üçün zəruri şərait yaradılır.

İ. Mirzəyev Böyük Qayıdışa dair birinci Dövlət Proqramının icrası çərçivəsində Xocalı şəhəri yenidən salınır. Yaxın günlərdə şəhərdə bərpa edilmiş və yenidən tikilmiş fərdi yaşayış evlərinə 50 ailənin köçürülməsi nəzərdə tutulduğunu bəyan edəndən sonra sevincimiz ikiyə qatlandı.

Bəli, bu gün çox tarixi bir gündür. Bu gün yurda dönmək növbəsi xocalılılarındır.

Belə bir böyük sevincə şahid olmaq üçün ötən gün Xocalı sakini, şəhid xanımı, təzəlikcə Xocalı Soyqırımını Tanıtma İctimai Birliyinin sədri seçilmiş Ceyran Əzizova ilə görüşmək, onun indiki halını müşahidə etmək üçün yola düzəldim. Mehdiabad qəsəbəsi ərazisində yerləşən "Qarant" yaşayış massivində köçkünlər üçün tikilmiş mənzillərdən birində vətən həsrəti yaşayan Ceyran xanımgilə çatdım.

Əvvəlcə oxucularımıza Ceyran xanım haqqında məlumat verim ki, sonrakı söhbətlərimizdə Ceyran xanımın bu gün hansı hissləri yaşadığını siz də təsəvvürünüzə gətirin.

Xocalıda anadan olan Ceyran xanım 1992-ci ilin o dəhşətli fevral gecəsində 68 qohumunu itirib. 27 yaşı olarkən, Xocalı faciəsinin şahidi olub.

İki övladının atasını, ömür-gün yoldaşını, döyüşçü Vasif Məmmədovu da o soyuq -şaxtalı gündə itirdi. Xocalının girişində tikdirdiyi yeni evi, gəncliyi, gəlinliyi, xoşbəxt ailəsi, firavan günləri, gələcək xoş arzuları, planladığı həyatı bir gecənin içində xarabazara çevrildi, darmadağın oldu. Daşlara çırpılmış, cilik-cilik olmuş billur qaba bənzər bir tale... 31 ilin soyuq qış gecələrində, məşum fevralında, ilin 12 ayında cilik-cilik olmuş taleyinə ağı deyib ağlayan qadındı Ceyran!

O gecədən sonra 27 yaşlı gəlinin ürəyi qocaldı, ruhu yaşlandı, bir də fə gəldiyi həyatı istədiyi kimi yaşamağı özünə haram elədi. Elə o gecədən sonra xoşbəxtliyini Vasiflə birlikdə Ağdam torpağına dəfn edib, boynunun borcunu yerinə yetirməyə qalxdı.

Namusla,-qeyrətlə İki atasız oğul böyüdüb, onlara tərbiyə verib, ev-eşik sahibi edib. Gözəldir deyilmi? Amma bir də bu gənc qadının kiprikləri ilə götürdüyü odu-közü düşünün, çarəsiz duruma düşəndə ürəyində keçənləri, köməyə harayladığının gəlmədiyinə yana-yana ağladığını, dünyadan xəbərsiz uşaqlarının eşitməməsi üçün hönkürtüsünü-hıçqırtısını qəhər edib boğazında düyünləməyini düşünün! Ceyran xanım bu fədakarlığının qarşısında heç vaxt Vasif Məmmədovun nə təşəkkürünü, nə nəvazişini, nə də pıçıltısını eşidə bilməyəcək! Halbuki, hər zaman o təşəkkürü Şəhid Vasifin özündən olmasa da, ruhundan gözləyib.

Ceyran övladlarına ana da oldu, ata da oldu, qardaş, bacı, əmi-dayı da oldu. Bütün gücü, qüvvəsi ilə çalışdı-işlədi ki, uşaqları boynu bükük, "yetim-yesir" günündə görünməsin, atalılardan, arxalılardan "sınıq" olmasın.

Bacardı da! Asif də, Rəvan da Şəhid Vasifin adına layiq bala oldular! Hətta Ceyran nənə də oldu...Hər sevincin içində bir kədər, hüzn, bir "boynuburuq"luq oldu...







Anladım ki, həyat hekayəsi məşəqqət dolu olan o 50 ailənin də Xocalıya dönüşü əslində ən böyük təsellidir, 32 ildə xocalılıların dərindən sevinməyən qəlblərinə məlhəm, odu sönmüş gözlərinə həyat işığı, yaralarının qaysaq tutduğu gündür. Demək olar ki, əsl bayramdır.

Ceyran xanımgilə çatanda onun xətrini əziz tutan, yaralarına ehtiram göstərən dostlarının da gün ərzində gəlib ona gözaydınlığı verdiyini söyləyən ev sahibəsinin gözlərinə baxıram. Gözlər gah gülür, gah bir nöqtəyə ilişib qalır, gah duman çökür və damlalar yanağı aşağı süzülürdü. Özü də qeyd edir ki, Əntiqə heç bilmirəm hansı halımı daha çox yaşayım?

Bilmirəm, uşaq kimi attanım -düşüm, səsim çatdıqca bağırım, "uraa" evimizə qayıdıram deyim. Görəsən ucadan, lap ucadan bağırsam səsim Vasifə çatar?

O bilir ki, artıq evimizə gedirəm? Vasifin hər daşında, hər hörgüsündə əllərinin izi, zəhməti qalıb. mən həmin evə dönürəm. Az qalıram bağıram ki, Vasif gəl dönək evimizə... (ağlayır) Qoşuluram Çeyran xanıma...

Ailəsinin bir üzvünü itirmək və onsuz onun olmadığı yerdə olmaqda bir ayrı dərddir.

Oğlu Asifin zəngi gələn kimi gözlərinin yaşını silib, onunla heç nə olmamış kimi danışır. Telefonun o başında onun da həyəcan dolu səsini hiss etmək mümkündür.

Telefon danışığı bitəndən sonra Ceyran xanım sanki ağrılı -açılı xatirələrini unudub "yurda dönüş " əhval ruhiyyəsinə keçir: Var olsun dövlətimi, evimi başdan -ayağacan təmir edib, İçinə əşyalar da verib. Ora çatan kimi sənə şəkillərin çəkib atacağam! Allah dövlətimizi də , dövlət başçımızı da qorusun! Bizə o torpaqları qaytaran şəhidlərin ruhuna qurban olub, qazilərimizə can sağlığı arzulayıram. Biz hazırda bir möcüzəyə şahidlik edirik. Qarabağda bir nəfər də olsa, bir terrorçu, separatçı, düşmən erməni olmayacaq".

Söhbətimizin maraqlı yerində qapının zəngi çalındı. Ceyran xanımın gülümsünərək " yəqin ki, mənimlə vidalaşmağa gələn dostlardan, tanışlardandır" deyib qapını açdı. Səhv etməmişdi. Onun qonaqları Xocalı Soyqırımını Tanıtma İctimai Birliyinin sədr müavini Elnur Abasov və onun qardaşı Mövsümağa Abasov idi. Uzun illərdi, Ceyran xanımla bir təşkilatda fəaliyyət göstərmiş bu qardaşlar Xocalılıların yurda dönməsinə elə Ceyran xanım qədər sevincli idilər.

Elnur Abbasov deyir ki, xəbər çıxandakı, Xocalıya dönən 50 nəfərin içərisində Ceyran xanımın da adı var, telefonla zəng edib, gözaydınlığı verdim, sevincimi bölüşdüm. Qardaşım Mövsümağa hardansa eşitmişdi, evə sevinclə gəldi ki, xocalılılar yurda dönür, xəbərin var , Ceyran xanım da o 50 nəfərin içərisində. Qərara gəldik ki, gərək gedək, sonuncu dəfə qalacağı "müvəqqəti" evində Ceyran xanımı da onun oğullarını da, nəvələrini də ürəkdən təbrik edək, "gözünüz aydın olsun" deyək.

Mövzümağa müəllim qeyd edir ki, dəfələrlə xarici ölkələrə səfər edib:" Hətta qardaş ölkələrə gedərkən də alnımızdakı "Xocalı" adlı qara ləkəyə görə utanmışam, başımı aşağı dikmişəm. Halbuki hərbçi olmuşam, kəşfiyyat komandiri kimi fəaliyyətim olub. Amma Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan ordusunun Qarabağı azad etməsi, xüsusən, Xocalı yarasına məlhəm olması tək ölkəmizdə yox, bütün dünyada başımızı dik tutub gəzməyimizə rəvac veredi. Arzu edirik ki, Ceyran xanım övladları ilə evinə döndükdən sonra bizi qonaq çağırsın, gedək Qarqarçayın sahilindəki Xocalının çal-çağırlı günlərini görək".

***P.S. Dünənki görüşümüzü sizə təqdim edərək , Ceyran xanıma zəng vurdum. Dedi ki, hazırda yoldayıq. Hardasa 2-3 saata qədər Xocalıya çatacağıq. Evimdən olan ilk fotoları sizinlə bölüşəcəyəm.... Amma çatım...***

***Kəsik-kəsik danışığından hiss olunurdu ki, Ceyran xanım həyəncanının, hisslərinin, duyğularının ağuşundaydı. Axı 32 ildən sonra öz evinə dönür....***

**Əntiqə Rəşid**

*Fazil Sənan*

# O, QƏLƏBƏYƏ İNANIRDI



**Sovet dönəmində Jdanov (indiki Beyləqan) rayonu S.Şaumyan adına kolxoz (məlum hadisələrdən sonra kolxozun adı dəyişdirilərək S.Vurğun adına kolxoz adlandırıldı) təsərrüfat qabaqcılı kimi respublikada qabaqcıl kolxozlar sırasında idi. Hökumət binasının yanında mərmərdən hazırlanmış "Şərəf lövhə"sində həkk olunmuş respublikanın dörd qabaqcıl kolxozlarından biri də Jdanov rayon S.Şaumyan adına kolxozun adı idi.**

O vaxtlar mədəniyyət, incəsənət adamları ilə bərabər yazıçı və jurnalistlərin tez-tez kənd əməkçiləri ilə görüşləri olardı. Gənc kolxoz sədri Əliqulu Məmmədov ixtisasca iqtisadçı olmasına baxmayaraq, güclü mütaliəsi və yaxşı yaddaşı olması onu mədəniyyət, incəsənət, yazıçı və jurnalistlərin dostu etmişdi.

Əliqulu müəllimin yaxın yazıçı dostlarından biri də tarixi romanlar müəllifi Fərman Kərimzadə idi.

1987-ci ilin iyun ayının axırları, gecəyarı olardı. Qapıda çalınan maşın siqnalına yuxudan oyanıb qapıya çıxdım. Qarşımda maşının işığında sədrin maşınının sürücü Pənahı (Pənaha vaxtı ilə dərs demişdim) görcək ilk baxışda təəccüb etdim.

**- Axşamınız xeyir müəllim, - deyən Pənah gülərək əl verib mənimlə görüşdü.**

**- Aqibətiniz xeyir.**

**- Əliqulu müəllim tapşırdı ki, müəllimi bura gətir.**

**- Xeyir ola, Pənah, gecənin bu vaxtı.**

**- Bilmirəm müəllim. Sədr mənə elə tapşırdı.**

**- Sədr hara, mən hara?**

**- Onu siz bilərsiniz, bir də Əliqulu müəllim. Pənah şirin bir təbəssümlə mənə baxdı.**

**- Yaxşı Pənah, elə-belə gedim, yoxsa paltarımı dəyişim?**

**- Yox müəllim, paltarınızı dəyişin. Toy paltarınızı geyinsəniz daha yaxşı olar. Qoy sədr görsün ki, mənim müəllimim elə-belə müəllimlərdən deyil.**

Pənahın sözünə gülərək "Nə deyirəm. Bəzən deyirsən bəzənim də" - deyib evə qayıtdım.

Maşına əyləşib yola düşdük. Maşın kolxoz idarəsinin qarşısından keçəndə "Pənah, kolxoz idarəsi arxada qaldı. Hara gedirik?" - dedim.

**- Tələsmə müəllim. Bir az səbr elə, - deyən Pənah maşını kəndin pambıq xırmanının içərisindən gedən yola döndərdi və bir az keçmiş maşını pambıq xırmanının arxasında təzə tikilmiş pambıq briqadiri Qara Namazovun qapısı ağzında saxlayıb "Düşə bilərsiniz, müəllim" - dedi.**

Maşından düşüb Pənahla birlikdə evin şüşəbənddən ibarət olan böyük bir zalına daxil olduq. Zalda təxminən əlli nəfərə yaxın adam stol arxasında əyləşmisdi. Hamısı da kəndin və kolxozun sayılıb-seçilən adamları.

"Axşamınız xeyir" deyib hamı ilə ümumi görüşəndən sonra Əliqulu müəllim ayağa qalxaraq "Xoş gəlmisiniz Fazil müəllim. Bura, yanıma gəlin. Sizin üçün boş stul saxlamışam" - deyərək yanında boş stula işarə etdi. Yaxınlaşıb Əliqulu müəllimlə əl verib görüşən zaman sağ tərəfində əyləşmiş adama tərəf çönərək "Fərman müəllim, sizin dediyiniz müəllim bu adamdı, tanış olun. Nə narazılığınız və gileyiniz varsa müəllimin özünə deyin. Xahiş edirəm məni belə "xatalı" islərə qatmayın. Siz mənim qardaşım, müəllim də uşaqlıq yoldaşım, dostum. Mən sizin heç birinizi müdafiə edə bilmərəm, - deyən Əliqulu müəllim gülərək "Düz demirəm, yoldaşlar?" məclisə müraciət etdi.

**- Düz deyir Əliqulu müəllim. Qardaşla dostun arasına girmək olmaz, - deyən məclis iştirakçıları kolxoz sədrinin fikrinə dəstək olduqlarını bildirdilər.**

Əliqulu müəllim üzünü mənə tutaraq "Görürəm müəllim, həm maraq, həm də narahat hissi keçirirsiniz ki, sizi nə üçün çağırtdırmışam. Giley və narazılıq nə məsələdi. İndi sizə aydınlıq gətirim:

**- Fərman müəllimlə mən çox yaxınam. Hər dəfə rayona yolu düşəndə hökmən mənimlə görüşməlidir. Bu gün də rayona yola düşüb. İşlərini görüb qurtarandan sonra axşam şər qarışanda gəlib ki, mənimlə görüşüb Bakıya qayıtsın. Səhər görüləcək işlərin tapşırığını verib qurtarmısdım ki, Fərman müəllimlə evə gedəm, Qara Namazov gəldi ki, Əliqulu müəllim, axşam bizə gələrsiniz. Dedim ki, xeyir ola? Qara kişi dedi ki, uşağı hərbi xidmətə yola salırıq. Yüngülvari bir məclisimiz olacaq. Mən dedim ki, lap yaxşı. Hərbi xidmətə gedəni yola salmaq, xeyir-dua vermək bizim borcumuzdu. Qara kişi gör nə gözəl təsadüfdü, yazıçı Fərman Kərimzadə də məclisdə iştirak edəcək.**

**- Bu lap gözəl oldu. - deyən Qara kişi razılıq etdi.**

Dedim "Qara kişi, Fərman Kərimzadəni tanıyırsanmı?"

Qara kişi "Niyə tanımıram, Əliqulu müəllim. Abbasqulu bəyi yazanı demirsinizmi?" cavab verdi.

Həmin yazıçı ilə gələcəm deyəndə Qara kişi gülüb dedi ki, "Yazıçı xalqın içində olmalıdır. Bizim kimi kolxozçunun xeyrində, şərində iştirak etməlidir ki, yaxşı əsərlər yaza bilsin".

Axşam Fərman müəllimlə birlikdə bu gördüyün məclisə gəldik. Yenicə stol arxasında əyləşmişdik ki, Fərman müəllim məndən soruşdu ki, sizin kəndə Fazil adında müəllim var? Dedim "Bəli, var".

Fərman müəllim xahiş etdi ki, o müəllimi çağırtdır ondan bir inciklyim var. İnciklyimi o müəllimə bildirim. Düzü maraq məni götürsə də bir söz demədim. Dedi ki, siz müəllimi çağırtdırın, deyəndə bilərsiniz.

Əliqulu müəllim məsələyə aydınlıq gətirəndən sonra üzünü sağ tərəfə çönərək "Fərman müəllim bu siz dediyiniz müəllimdir. İnciklyinizin səbəbini açıqlayın, həm məclis, həm də müəllim bilsin".

Fərman müəllim qarşısındakı dolu qədəhi götürərək "Yoldaşlar, Bakıda Azərbaycan Yazıçılar İttifaqında (indiki Azərbaycan Yazıçılar Birliyi) xətrini çox istədiyim qələm dostum yazıçı-dramaturq Altay Məmmədovla təsadüfən qarşılaşdıq. Hal-əhvaldan sonra Altay müəllim söylədi ki, Fərman müəllim, məni sizin rayonun Təzəkənd kəndinə görüşə dəvət etmişdilər.

Məktəb və kənd ictimaiyyəti ilə çox yüksək səviyyəli bir görüş keçirildi. İnanmazdım ki, kənddə yazıçı ilə görüşə o cür maraq göstərsinlər. Bu onu göstərir ki, yazıçıya və ədəbiyyata güclü maraq var.

Düzü Altay müəllimin yerlilərimdən razılıqla danısması məni qürurlandırdı. Altay müəllimdən gö-rüşün kim tərəfindən təşkil olunduğunu soruşanda, cavab verdi ki, Təzəkənd kənd orta məktəbində Fazil adında müəllim təşkil etmişdi. Sağ olsun yaxşı təşkilatçılıq qabiliyyəti var.

O vaxtdan yolum buralara düşmür ki, o Fazil müəllimdən soruşam ki, elə görüş təşkil edənsənsə nə üçün öz rayonlun və yerlin olan Fərman Kərimzadə ilə görüş keçirmirsən, uzaqdan yazıçı dəvət edirsən? Onun üçün Əliqulu müəllimdən soruşdum ki, sizin kənddə elə bir müəllim işləyir? Dedi ki, bəli, işləyir. Dedim, o müəllimi çağırtdır. Müəllimlə yaxından tanış olum. İnciklik sözünü özüm zarafatla söylədim. Altay müəllimə qarşı olan hörmət bütün şair və yazıçılara olan hörmət de-məkdir.

Yoldaşlar, Fazil müəllimlə fəxr edin ki, ədəbiyyatı sevən, onu təbliğ edən və uşaqlarınıza dərs deyən belə bir müəlliminiz var.

Bu badələri qaldıraq hərbi xidmətə yola salınan gəncin və Fazil müəllimin sağlığına. Biri bizi qorumağa gedir, o biri isə ədəbiyyatımızı sevdirir".

Aradan bir az keçmiş icazə alıb ayağa qalxdım və üzümü yazıçıya tutaraq dedim:

- Fərman müəllim, mənim haqqımda söylədiyiniz xoş sözlər üçün sizə təşəkkür edirəm. Sizin kimi sevilən bir yazıçıdan bir kənd müəllimi haqqında dəyərli sözlər eşitmək məndə ədəbiyyata olan marağı daha da artırır. İcazə verin bir məsələni sizə xatırladım. Görünür siz unutmusunuz. 1985-ci ilin yazında məktəbdə müəllim və şagird kollektivi ilə sizin görüşünüzü təşkil etmişəm. Və "Niyə ağrımır" yazımdakı hadisələri yazıçıya xatırlatdım. Sağlıq olsun, qismət olarsa sizinlə kənd ictimaiyyətinin geniş və əhatəli bir görüşünü təskil edərik.



**- Hə, doğru deyirsiniz. Düzünü deyim ki, qapıdan girən kimi müəllim sifətdən tanış gəldi. Xatırlaya bilmədim. Müəllim danışanda yadıma düşdü. O vaxt bir aparat üçün məktəbə gəlmişdim. Fazil müəllim o zaman əlüstü də olsa yaxşı bir görüş təşkil etdi. Uşaqların verdiyi sual-lardan hiss etdim ki, müəllim "Qarlı aşırım" romanımı şagirdlərə oxudubdu. Müəllim düz deyir. Mən onunla razıyam, - deyən yazıçı razılıqla gülümsündü.**

Mənim təklifimlə məclis Fərman müəllimin sağlığına badə qaldırdı.

Gecə yarıdan çox keçmiş məclis yekunlaşdı və maşına minib evə yola düşdük. Maşın kolxoz idarə-sinin qarşısına çatanda Fərman müəllim maşını saxlatdırdı. Maşın dayandı və Fərman müəllim maşından düşüb, "Belə aydınlıq gözəl gecədə evdə nə var. Görün nə şairanə bir gecədi. Düşün aşağı, maşını da göndərin getsin. Bir az söhbət edək, sonra gedərik" sözünün qarşısında bir söz deməyərək hər ikimiz maşından düşdük və Əliqulu müəllim "Pənah sən get evə. Tezdən həmişəki vaxtda gələrsən" deyib maşını yola saldı. Kolxoz idarəsinin həyətinə daxil olduq.

İdarənin qarşısında qoyulmuş S.Şaumyanın heykəlinə yaxınlaşan Fərman müəllim neon lampanın işığında bir anlığa heykəli nəzərdən keçirib üzünü Əliqulu müəllimə tutaraq "Bu kimin heykəlidi?" - dedi.

**- Tanımırsınızsa, kimin heykəli olduğu aşağısında yazılıbdı, - güldü Əliqulu müəllim.**

Sonra Fərman müəllim mənə tərəf çönərək "Müəllim, bu kimdi? Bəlkə, siz deyəsiniz?" soruşdu.

**- Fərman müəllim, 26 Bakı komissarlarının lideri. İnqilabi fəaliyyətinə görə 1918-ci ildə Ağcaqum çölündə güllələnən S.Şaumyanın heykəlidir, - mən cavab verdim.**

Fərman müəllim başını bulayıb acı-acı gülümsünərək "Yox, siz bu alçağı tanımırsınız. Bu Azər-baycan xalqının düşmənidir.

Heç bilirsiniz bu şərəfsiz Azərbaycanda nə qədər adam qırdırıb? İnqilabçı kimi tanıdığınız bu alçaq daşnaksütyun partiyasının üzvü və Andronikin sağ əli olub. Andronikə neçə teleqramı var bu "inqilabçı" dediyiniz Şaumyanın. Özü də 26-ların sırasında gül-lələnməyib. Başqa ölkədə yaşaması haqqında məlumat var.

**- Fərman müəllim, sən Allah bizi işə salma. KQB eşidər evimizi yıxar. Əliqulu müəllim Fərman müəllimin qoluna girərək heykəlin yanından kənarlasdırmaq istəsə də, Fərman müəllim bir az da səsinin tonunu qaldıraraq: "Qorxmayın, bu heykəli uçurdun. Sovet hökuməti çöküb, biriki ilə dağılacaq" dedi.**

**- Gecə səs gedən olur. İşığın da altında durmusunuz. Danışdığınızı eşidən olar. Sonra başımız ağrıyar. Gəl bəri ağacların arasına gedək. Orda danış. Əliqulu müəllimlə birlikdə idarənin həyətində salınmış bağın görünməyən tərəfinə çəkildik və dedi:**

**- Hə qardaş indi danış. Bir az astadan danış, eşidib eləyən olar, sözlərinə hər üçümüz güldük.**

Siz çox şeyi bilmirsiniz. "Qarlı aşırım" əsərini isləyəndə məni Yerevanda arxivə buraxmırdılar. Bir iləmi, para iləmi deyə bilmərəm, ermənilər Dağlıq Qarabağın məsələsini qaldıracaq. Məqsədləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb müstəqil etmək, ya da Yerevana birləşdirməkdi. Din qardaşları olan ruslar onların tərəfindədir. Axırda bu məsələ ermənilərlə azerbaycanlılar arasında müharibəyə səbəb olacaq. Rusların köməyi ilə ola bilsin ki, torpaqlarımızı işğal edələr. Sonda nə cür olursa olsun, torpaqlarımızı qaytaracağıq. Amma qan bahasına. Sovet hökuməti içindən çürü-yübdü, quru cəsədi qalıbdı.

Yadınızda saxlayın, bunu mən deyirəm, az qalıb, çox az. SSRİ parçalanacaq və zorla yaradılan o on beş respublika Moskvanın əsarətindən qurtaracaqdı.

**- Fərman müəllim, İkinci Dünya müharibəsindən sonra dünyanın yarıdan çoxuna ağalıq edən bir dövlətin dağılması inandırıcı deyil axı, - deyə mən öz fikrimi bildirdim.**

**- Müəllim, az qalıb, lap az. Qırmızı imperiyanın, kommunist rejiminin necə dağılmasını özünüz görəcəksiniz. Kommunizm deyilən o quruluş boş xəyaldır.**

Fərman müəllim bizim bilmədiyimiz çox şeydən danışdı. Düzünü deyim ki, nə Əliqulu müəllim, nə də mən yazıçının fikirləri ilə razılaşmırdıq.

Hava yavaş-yavaş işıqlaşırdı. Söhbət edə-edə heykəlin yanına çatanda Fərman müəllim "Az qalıb bu heykəlin uçurulmasına. Siz qabağa düşün və siz uçurdun. Bu alçaq Azərbaycan xalqının qanını içib. Arxivdə bilirsiniz nələr var? Vaxt gələcək çox sirlər açılacaq. Onda görəcəksiniz mən düz demişəm" söylədi.

**- Bir az yavaş danışın Fərman müəllim, eşidən olar, deyən Əliqulu müəllimlə birgə idarənin həyətindən çıxdıq.**

Bu gün Fərman Kərimzadə və Əliqulu Məmmədov əbədiyyət evində uyuyurlar. Allah hər ikisinə rəhmət eləsin, ruhları şad olsun.

Zaman isə Fərman Kərimzadənin söylədiyi fikirləri təsdiq etdi. Mən isə bu böyük qələm sahibinin 1987-ci ildə söylədiyi fikirlərin dəqiqliklə özünü doğrultmasına və uzaqgörənliyinə hələ də təəccüblə baxıram.

Bir şeyə çox təəssüf edirəm ki, qələbəyə inanan yazıçı qələbəni görə bilmədi.

## *COP29 zamanı restoranlar qarşısında qoyulan tələblər açıqlanıb*

**Qida Təhlükəsizliyi Agentliyi (AQTA) BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi ilə əlaqədar tədbir zamanı ictimai iaşə obyektlərində sanitar-gigiyenik normalara dair" təlimat hazırlayıb.**

Bu barədə Adalet.az-a Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) məlumat verilib.

Bildirilib ki, təlimat beynəlxalq tədbir zamanı ictimai iaşə müəssisələrində qida təhlükəsizliyinin təmin edilməsi məqsədilə hazırlanıb və metodiki tövsiyə xarakteri daşıyır.

Təlimatda ictimai iaşə obyektlərində qida məhsulları, işçi heyəti, təmizlik və dezinfeksiya işləri, qida tullantılarına dair qanunvericiliyin tələbləri öz əksini tapıb.

COP29-la bağlı Agentlik tərəfindən təsdiqlənmiş Tədbirlər Planına əsasən hazırlanan sözügedən təlimatın ictimai iaşə müəssisələrində paylanılması nəzərdə tutulub.

## *"Berqa" Marketinq Zirvəsinin keçirilməsinə dəstək olub*



**Son dönəmlər ölkəmizdə müxtəlif sahələrdə forumlar, seminarlar, zirvə görüşləri təşkil olunur. Bu kimi tədbirlərin keçirilməsinin hər birinin özünəməxsus məqsədi olsa da, ortaq məqsəd insanlar arasında əlaqələrin sıxlaşmağı və genişlənməsidir.**

Həmin tədbirlərdən biri də illərdir çaysevərlərin əsas seçimlərindən olan "Berqa" markasının da dəstək verdiyi "Azərbaycan Marketinq Zirvəsi"dir. 400 nəfərdən artıq şəxsin iştirakı ilə keçirilən zirvədə 11 spiker çıxış edərək marketinq sahəsindəki bilik və təcrübələrini bölüşüb. Tədbirdə "Azərsun Holdinq"in Marketinq direktorlarından Dərya Cantutan və "Qarabağ" Fk-nin mətbuat xidmətinin rəhbəri Anar Hacıyev də spiker qismində çıxış ediblər. "Berqa" ənənəsinə sadiq qalaraq nəfis dadı ilə qonaqlarda xoş əhval yaradıb.

## Türkiyə yerli tankların kütləvi istehsalına başlayır

**Son illər müdafiə sənayesi sahəsi üzrə mühüm layihələrə imza atan Türkiyə yeni nəsil texnologiyalarla təchiz edilmiş yerli istehsal "Altay" tankının kütləvi istehsalına başlayır.**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyə Müdafiə Sənayesi İdarəsinin sədri Haluk Görgün açıqlayıb.

Bildirilib ki, Türkiyə Silahlı Qüvvələrinin həyata keçirdiyi əməliyyatlar çərçivəsində əldə edilən təcrübələr əsasında yeni xüsusiyyətlər əlavə edilən "Altay" müasir döyüş mühitinin şərtlərinə uyğun olaraq təkmilləşdirilib. Ən son rəqəmsal texnologiyaların əlavə edilməsi ilə istifadə qabiliyyəti artırılan tank hədəfin müəyyən edilməsi və atəş açmaq üçün daha həssas-çevik vəziyyətə gətirilib.

## Nöqsanlar aşkarlanan dönərxanaların fəaliyyəti məhdudlaşdırıldı

**Lənkəran şəhəri, "Böyük bazar" ərazisində fəaliyyət göstərən Qurbanov Elnur Abidin oğluna məxsus "Bazardönər" və Hüseynov Bəhruz Baba oğluna məxsus ictimai iaşə müəssisələrində yoxlama keçirilib.**

Bu barədə Adalet.az-a Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) məlumat verilib.

Bildirilib ki, yoxlama zamanı qida təhlükəsizliyi sahəsində qüvvədə olan normativ hüquqi aktların, sanitariya norma və qaydalarının tələblərinin pozulduğu məlum olub. Belə ki, dönərxanaların qida təhlükəsizliyi qeydiyyatından keçmədən fəaliyyət göstərdiyi, emal zamanı istifadə olunan xammal və yarımfabrikatların saxlanma temperaturuna nəzarət edilmədiyi, qida ilə təmasda olan işçilərin tibbi müayinədən keçmədiyi və xüsusi geyimlə təmin olunmadığı, havalandırma sistemlərinin quraşdırılmadığı, mütəmadi təmizlik işlərinin aparılmadığı və digər nöqsanlar müəyyən olunub.

Bişmiş mal əti və toyuq dönərindən götürülmüş nümunələrin Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasında müayinəsi nəticəsində toyuq əti dönərində insan sağlamlığı üçün təhlükəli hesab olunan E.Coli bakteriyası aşkarlanıb.

**Faktla bağlı qanunvericiliyə uyğun olaraq səlahiyyətli şəxslər barəsində inzibati protokol tətbiq edilib, dönərxanaların fəaliyyəti məhdudlaşdırılıb.**

**VAQİF ŞİRİNOĞLU**
**AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun baş elmi işçisi, tarix elmləri doktoru**



# ÇAĞDAŞ AZƏRBAYCAN TARİXŞÜNASLIĞI: YENİ ELMİ-NƏZƏRİ AXTARIŞLAR

**1987-ci ildə sosializm sisteminin dağılmağa başladığı bir vaxtda, sistemin ideoloji əsaslarını özündə ehtiva edən marksist-leninist konsepsiyası da öz təsir gücünü itirməyə başladı. Xüsusilə Sov.İKP MK-nın baş katibi M.S.Qorbaçovun "yenidənqurma" və "aşkarlıq" adı altında aparmaq istədiyi islahatlar nəticəsində sosializm sisteminin və onunla birlikdə onun ideoloji əsaslarının tənəzzülü sürətlənməyə başladı. Əslində sosializm sisteminin dağılmasında tək üstqurumun deyil, eyni zamanda sistemin iqtisadi bünövrəsinin, yəni bazisinin zəifliyinin də mühüm rolu olduğu qeyd olunmalıdır. Əlbəttə, həmin prosesin gedişində Qərb dövlətlərinin, xüsusilə ABŞ-ın uzun müddət apardığı antisovet siyasətinin rolunu da danmaq olmaz.**

1991-ci ildə sosializm sisteminin dağılması bütün sahələrə, o cümlədən tarix elminə də çox ciddi təsir göstərdi. Bu dövrdə Qərb dövlətlərinin iqtisadi və siyasi sistemində dəyişmələr olmadığından, həmin ölkələrdə tarix elminə yaşanmada da dəyişmələr baş vermədi.

Əslində, Qərb dövlətlərində hər hansı bir nəzəriyyə dövlət tərəfindən nəzarətə götürülməmiş, dövlətin ideoloji əsaslarını təşkil etməmiş və tarixi əsərlər yazılarkən yuxarıdan direktiv göstərişlər verilməmişdir. Sovet dövlətində isə Marksist nəzəriyyə dövlət səviyyəsinə qaldırılmış, tarix elmi isə ideolgiyaya aid edilmişdir. Ona görə də Sovet məkanında tarix elmi ideologiyaya aid olunduğundan ona dövlət tərəfindən ciddi nəzarət olunurdu.

Ümumiyyətlə isə, "sovet tarix elmi sovet ictimai-siyasi sisteminin əsas hissəsini təşkil etdiyi" qeyd olunmalıdır. (Sovetskaə istorioqrafiə. M.: Rossiy qos.qumanit.un-t., 1996, 592 s. s. 10)

Lakin yenidənqurma dövründə ideologiyanın dövlət tərəfindən dayağı zəifləndi və 90-cı illərin başlanğıcında tamamilə yox oldu (Çudinov V.A. Alğternativnaə istorioqrafiə. M.:Tradiüiə, 2013, 520 s. s. 59)

Paradoksal olsa da, 1989-91-ci illər hadisələri nəinki fundamental marksist konsepsiyanı gözdən saldı və marksist teleologiyanı darmadağın etdi, həm də marksist təhlilə yaxşı töhfə verdi. Marksizm bir ideologiya və utopiya olaraq pis bir yuxuya çevrildi (Georg G. Iggers. bilimsel nesellikten postmodernizme yirminci yüzyılda tarihyazımı (Elmi obyektivlikdən Postmodernizmə. XX əsrdə tarixçilik). Çeviri Gül Çağalı Güven. İstanbul: Tarih Vakfı Yurt Yayınları, 2011, s. 140).

Sosializm sistemi dağıldıqdan sonra sovet tarixşünaslığı da ciddi tənqid olunmağa başlandı. Məsələn, Rusiya tarixçisi V.A.Çudinov "Alğternativnaə istorioqrafiə" (Alternativ tarixşünaslıq) adlı əsərində sovet dövrü tarixçilərini tənqid edərək yazırdı ki, vaxtı ilə burjuaziyanın elmini yalançı adlandıran qəhrəmanlar indi aydın olur ki, özləri yalançı alim imişlər (Çudinov V.A. Alğternativnaə istorioqrafiə. M.:Tradiüiə, 2013, 520 s. s. 45). Bununla belə müəllif, əsərin ön söz səhifəsində bir sıra rus tarixçilərinin "Qərbi Avropada yaradılan tarixşünaslığı"n mövqeyindən çıxış etməsini mənfi qarşılayır. V.Çudinov həmin tarixşünaslığın "nə qədər qanunauyğun olduğu sual doğurduğunu" vurğulayır.

"Məktəb və universitetdə" onu "tərbiyyə edən və öyrədən Sovet tarixşünaslığının yalan" olduğunu qeyd edən V.Çudinov yazırdı: "... bu yalançı əsərlər nədənsə elmi hesab edilir, heç kim onları tarixə əsassız yanaşmalarına görə günahlandırmağa təşəbbüs etmir. Başqa sözlə, akademik tarixçilərə tarixə əsassız yanaşmasına icazə olar, başqalarına isə olmaz"(Çudinov V.A. Alğternativnaə istorioqrafiə..., s. 61).

Vaxtilə sosializm sisteminin tərkibində olan dövlətlərdə də sistemin çökməsi ilə tarix elminə münasibət tamamilə dəyişməyə başladı. Rusiya tarixçisi A.K.Sokolov haqlı olaraq yazırdı ki, siyasi-ideoloji məhdudiyyətlərin və senzuranın aradan qalxması; mənbələrə çıxış imkanlarının genişlənməsi; arxivlərin tam olmasa da, hər-halda onların bir qisminin açılması; xaricdə işləmək imkanlarının genişlənməsi; elmi, o cümlədən dövlətlərarası əlaqələrin intensivləşməsi, alimlərin birbaşa və dolayısı ilə beynəlxalq əlaqələrinin genişlənməsi, xarici ədəbiyyatlardan istifadənin genişlənməsi; elmi tədqiqatların və kommunikasiyaların texniki bazasının, eyni zamanda informasiya texnologiyasının sürətli inkişafı; elmi nəticələrin nəşr etdirmək imkanlarının artması indiki Rusiyada tarix elminin inkişafına təsir edən əsas amillərdəndir (Sokolov A.K. Osnovnıe tendenüii sovremennoy rossiyskoy istorioqrafiiv izuçenii noveyşey istorii strani /İdei akademika İ.D. Kovalğçenko v XXI veke. Materialı IV nauçnıx çteniy paməti akademika İ.D. Kovalğçenko. M.: 2009, s.187-193. http://iriran.ru/files/sok.doc).

A.Sokolovun yuxarıda qeyd etdiyi amilləri çağdaş Azərbaycan tarix elminə də aid etmək mümkündür. Heç şübhəsiz, XX əsrin 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində tarix elmində baş verən dəyişikliklər sosializm sisteminin çökməsi və Azərbaycan öz dövlət müstəqilliyinin yenidən bərpa etməsi ilə əlaqədar idi. Dövlət müstəqilliyinin bərpa olunması ilə Vətən tarixinin bütün sahələrinə elmi-nəzəri cəhətdən yenidən baxılmasını, siyasi və tarixi hadisələrin obyektiv və tarixi reallıqları nəzərə almaqla yazılmasını zəruri edirdi.

"XX əsrin 80-ci illərinin ikinci yarısından sonrakı illərdə aparılan tədqiqatlarda artıq əvvəlki dövrdə yuxarıdan irəli sürülmüş "konsepsiya"nı qırağa qoyub, inkaredilməz dəlillərə əsaslanan müəlliflər tariximizdə baş vermiş hadisələri olduğu kimi təqdim etməyə başladılar. Bununla da tarixşünaslığımızdakı "Azərbaycanın Rusiyaya birləşdirilməsi" və ya "birləşməsi" kimi qeyri-elmi müddəalar puça çıxdı. XX əsr tarixinin ilk iyirmi ilinə aid həqiqətlər bərpa olundu. 80-ci və 90-cı illərin tarixşünaslığından danışarkən, ilk növbədə, "Azərbaycan tarixi" kitablarının nəşrini qeyd etməliyik. Tarix İnstitutunun kollektivi tərəfindən hazırlanmış "Azərbaycan tarixi" Azərb. EA həqiqi üzvü İ.H.Əliyevin redaktorluğu ilə 1993-cü ildə Azərbaycanca, 1995-ci ildə rusca və 1994-cü ildə yeni "Azərbaycan tarixi" dərsliyi akademik Z.M.Bünyadov və professor Yusif Yusifovun redaktəsi ilə nəşr edildi. Azərbaycan tarixinin XIX-XX əsrin əvvəlləri dövrü M.Ə.İsmayılov tərəfindən yazılmış əsərlərdə də öz əksini tapmışdır (Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). Məsul redaktorlar: AMEA-nın müxbir üzvü Mahmud İsmayılov, tarix elmləri namizədi Nigar Maksvell. Bakı: "Elm". - 2008. - 696 səh. + 40 səh. İllüstrasiya. S. 7-8).

Keçmiş SSRİ məkanında, o cümlədən Azərbaycanda 80-90-cı illərdə baş verən proseslərlə paralel yaranan yeni mənəvi şərait AXC tarixinə aid bir sıra problemlərin öyrənilməsinə qoyulan qadağaların aradan qalxmasına, dövrü öyrənən yeni istiqamətin - liberal və milliyyətçi tarixşünaslığın formalaşmasına imkan verdi. Onun əsas nümayəndələri olan A.Balayev, C.Həsənli, N.Maksvell, P.Darabadi, N.Nəsibzadə, R.Xudiyev və b. alimlərin tədqiqatları AXC tarixinin öyrənilməsi sahəsində xeyli iş görüldüyünü söyləməyə əsas verir (Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). Məsul redaktorlar: AMEA-nın müxbir üzvü Mahmud İsmayılov, tarix elmləri namizədi Nigar Maksvell. Bakı: "Elm". - 2008. - 696 səh. + 40 səh. İllüstrasiya. S. 11). Xüsusilə, 1998-2003-cü illərdə və təkrara olaraq 2007-2008-ci illərdə akademik nəşr olan yeddi cildlik "Azərbaycan tarixi"nin və tariximizlə əlaqədar digər elmi tədqiqat əsərlərin əhəmiyyəti qeyd olunmalıdır.

Müasir dövrdə "müəyyən edilmiş stereotiplərin dəyişdirilməsi və bir ideologiyanın inhisar dominantlığından imtina edən alimlər müasir şəraitdə fəal şəkildə öz sələflərinin işini dərk etməyə çalışırlar.

Elmi araşdırmaların hakimiyyətin ideoloji xəttindən, siyasi vəziyyətdən asılılığını necə minimuma endirmək olar? ... sovet tarixşünaslığına bu qədər tanış olan tarixi əsərlərin saxtalaşdırılması, ideallaşdırılması, apologetikası, doqmatizmi və digər nöqsanlarından necə qaçmaq olar?(http://www.dissercat.com/content/shkola-m-n-pokrovskogo-i-sovetskaya-istoricheskaya-nauka- konets-1920-kh-1930-e-gg s.2). Bu suallar alimləri narahat edir, müzakirələrə səbəb olur, onları Rusiya tarix elminin inkişafı ilə bağlı əvvəlki konsepsiyalara və qiymətləndirmələrə tənqidi şəkildə yenidən baxmağa sövq edir və onları yeni faktiki material axtarışında son illərdə daha əlçatan olmuş arxivlərə müraciət etməyə məcbur edir." (http://www.dissercat.com/content/shkola-m-n-pokrovskogo-i-sovetskaya-istoricheskaya-nauka- konets-1920-kh-1930-e-gg s.2-3). Bu gün Çağdaş Azərbaycan tarixşünaslığında da buna bənzər proseslər baş verir.

Professor Anar İsgəndərov haqlı olaraq qeyd edir ki, "Sovet imperiyasının tərkibində olduğu müddətdə Azərbaycanın tarixi kifayət qədər təhrif olunmuşdur. 1990-cı illərin əvvəllərindən indiyə qədər biz təkcə ötən günlərin tarixini yazmırıq, həm də təhrif olunmuş tariximizi bərpa etməklə məşğuluq" (Anar İsgəndərov. Ən müasir tarixin yazılması ilə bağlı problemlə var. Müsahibə. "Media forum" 13 dekabr 2010).

Akademik Şahin Mustafayev "Çağdaş Azərbaycan tarixşünaslığının bəzi nəzəri məsələləri" adlı əsərində yazır: "Azərbaycanda, özəlliklə dövlət müstəqilliyinin bərpasından sonra tarixi araşdırmaların metodoloji bazasının yenidən nəzərdən keçirilməsi bir zərurət kimi qarşıya çıxdı. Bu, bir sıra obyektiv səbəblərə görə vacib idi. İlk növbədə ona görə ki, Sovetlər Birliyinin dağılması və kommunizm ideyasının çökməsi ilə daha "qabaqcıl" ictimai-iqtisadi formasiyaların öz dövrünü yaşamış formasiyalar üzərində qələbəsinin qaçılmazlığı və sosializmin gec-tez kapitalizmi yenəcəyi ideyası üzərində bərqərar olan "beşüzvlülük" (formasion sistem nəzərdə tutulur-V.Ş.) nəzəriyyəsinin məntiqi bütövlüyü süquta uğradı. Həyatın özü tarixə belə baxışın doğru olmadığını göstərdi. Bununla bu konsepsiya çərçivəsində tarixi tədqiqatların metodologiyası da yenidən nəzərdən keçirilməli idi. İkinci səbəb isə Şərq tarixinin ümumi kontekstində kapitalizmdən öncəki Azərbaycan tarixinin təkamül xüsusiyyətlərinin daha dərindən və diqqətlə nəzərə alınması zərurəti ilə bağlı idi" (Şahin Mustafayev. Çağdaş Azərbaycan tarixşünaslığının bəzi nəzəri məsələləri Məqalələr toplusu. Tarix və mədəniyyət. Faktlar və dəyərlər. Akademik Nailə Vəlixanlının yubileyinə həsr olunmuş məqalələr toplusu / Məsul redaktor F.R.Cabbarov. Bakı: "Nurlar" Nəşriyyat-Poliqra?ya Mərkəzi, 2020. - 656 s. s.29-64. S.36).

Bəzi hallarda çağdaş Azərbaycan tarixçiləri tərəfindən sovet dövründə yaradılmış tarixşünaslığa nəinki tənqidi yanaşılır, hətta ondan tamamilə imtina etmək kimi fikirlər də irəli sürülür. Lakin marksist-leninist konsepsiyaya əsaslanaraq 70 il çərçivəsində yaradılmış Azərbaycan sovet tarixşünaslığından birdəfəlik imtina etmək fikri ilə razılaşmayan da var. Bu sətirlərin müəllifi də həmin tarixçilər sırasındadır.

Bu gün tam yeqinliklər demək olar ki, çağdaş dövrümüzdə yaradılan tarixşünaslıq sovet dövründə marksist formasion sistemə əsaslanaraq yaradılmış tarixşünaslığın (əlbəttə, bəzi çatışmazlıqları nəzərə almaq şərti ilə) davamıdır.

Heç şübhəsiz, sovet dövrü tarixşünaslığında Azərbaycan tarixinin bütün dövrlərinin elmi cəhətdən araşdırılmasının əsası qoyulmuş, yeni elmi müəssisələr yaradılmış və bir çox sahələrə - arxeologiyaya, etnoqrafiyaya, ən qədim dövrün siyasi qurumlarına (Aratta, Lullu, Quti), Manna, Midiya, Atropatena, Albaniya kimi qədim dövlətlərə, Səfəvilər dövlətinə, eləcə də XVIII-XX əsrlərin tarixi hadisələrinin bir çox sahələrinə (dövrün imkan verdiyi səviyyədə) vahid milli baxışın formalaşdığını (tam olmasa da) qeyd etmək olar.

Müstəqilliyimizin bərpasından 30 ildən çox bir vaxtın keçməsinə rəğmən, Azərbaycan tarixşünaslığına Marksist baxışın təsirinin zəiflədiyi ehtiraf olunsa da, onun birdəfəlik süqut etməsi fikri ilə tam razılaşmaq olmaz. Düzdür, sosializm sisteminin dağılması ilə tarixə kommunist partiyasının nəzarəti, yuxarıdan direktiv göstərişlər, tarixi reallıqların təhrif olunması, tarixçilərə yalnız bir nəzəriyyədən - marksist nəzəriyyəsindən istifadə olunması məcburiyyəti kimi məsələlər aradan qalxmış və "formaca milli, məzmunca sosialist" prinsipləri özündə ehtiva edən prinsiplərə son verilmişdir. Bütün bunlarla yanaşı tarixi əsərlərin, xüsusilə dərsliklərin Marksın tarixi materializminə (ictimai-iqtisadi formasiya sisteminə) uyğun yazılması və öyrənilməsi hələ də davam edir. Bu gün tarixçilərin bir qismi 5 ictimai-iqtisadi formasiyanın - ibtidai icma, quldarlıq, feodalizm, kapitalizm və kommunizm mərhələlərindən quldarlıq və sonuncu kommunizm mərhələlərini qəbul etmirlər. Eyni zamanda cəmiyyətin köklü dəyişməsində "sinfi mübarizə hər şeyi həll edir" prinsipindən də imtina edilməkdədir. Bununla belə dünyada sosialist sisteminin dağılmasına rəğmən, tarixçilərin hansı səbəbdən Marksist konsepsiyaya müraciət etmələrinə münasibət bildirən ingilis tarixçisi Con Toş yazırdı ki, marksizmin güclü cazibəsinin əsl səbəbi onun nəzəri cəhətdən tarixçilərin ehtiyaclarını mükəmməl şəkildə ödəməsidir. Marksist əsas (basis-V.Ş.) /üst quruluş (üstqurum-V.Ş.) modeli hər hansı bir cəmiyyətdə sosial münasibətlərin məcmusunu başa düşmək üçün çox faydalı bir üsuldur (teoriya-i-istoriya.pdf, 138. https://cyberleninka.ru teoriya-i-istoriya)

Bəzi hallarda Marksist konsepsiyadan imtina edib başqa konsepsiyalardan istifadə etməyin vacibliyi qeyd olunsa da, fakt faktlığında qalır ki, bu gün Azərbaycan tarixinə marksist baxışın qalması davam etməkdədir.

**Məsələn, Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsi ilə "Azərbaycan tarixi" əsərinin yenidən işlənmiş ikinci nəşrində (Azərbaycan tarixi. 1-ci cild. Dərslik. Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsi ilə. Bakı: "Çıraq" nəşriyyatı. - 2007. 720 səh) qeyd olunur ki, Azərbaycan tarixinin dövrləşdirilməsi ictimai-iqtisadi formasiyalar üzrə aparılır. Digər təlimlərdən fərqli olaraq bəşəriyyət tarixinin ictimai-iqtisadi formasiyalara bölünməsi tarixi prosesin qanunauyğun inkişafına daha uyğun gəlir. (Azərbaycan tarixi. 1-ci cild. Dərslik. Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsi ilə. Bakı: "Çıraq" nəşriyyatı. - 2007. 720 s. s. 14).**




# BAYAT

№ 9 (869)




# Bir batman balla yeyilməsi mümkün olmayan şeirlər



Mirzə Ələkbər Sabir

## Millət necə tarac olur olsun, nə işim var?!

Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!
Qoy mən tox olum, özgələr ilə nədi karim,
Dünyavü cahan ac olur olsun, nə işim var?!

Səs salma, yatanlar ayılar, qoy hələ yatsın,
Yatmışları razı deyiləm kimsə oyatsın,
Tək-tək ayılan varsa da, həq dadıma çatsın,
Mən salim olum, cümlə cahan batsa da, batsın;
Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!

Salma yadıma söhbəti-tarixi-cəhani,
Əyyami-sələfdən demə söz bir də, filani,
Hal isə gətir meyl eləyim dolmanı, nani,
Müstəqbəli görmək nə gərək, ömrdü fani;
Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!

Övladi-vətən qoy hələ avarə dolansın,
Çirkabi-səfalətlə əli, başı bulansın,
Dul övrət isə sailə olsun, oda yansın,
Ancaq mənim avazeyi-şə'nim ucalansın;
Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!

Hər millət edir səfheyi-dünyadə tərəqqi,
Eylər hərə bir mənzili-mə'vadə tərəqqi,
Yorğan-döşəyimdə düşə gər yadə tərəqqi,
Biz də edərik aləmi-rö'yadə tərəqqi;
Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!

## Əkinçi

Məzlumluq edib başlama fəryadə, əkinçi!
Qoyma özünü tülkülüyə, adə, əkinçi!

Bir üzrlə hər gündə gəlib durma qapımda,
Yalvarma mənə, boynunu kəc burma qapımda,
Gahi başına, gah döşünə vurma qapımda,
Ləğv olma, ədəb gözlə bu mə'vadə, əkinçi!
Lal ol, a balam, başlama fəryadə, əkinçi!

Xoş keçmədi il çöllüyə, dehqanə, nə borcum?
Yağmadı yağış, bitmədi bir danə, nə borcum?
Əsdi qara yel çəltiyə, bostanə, nə borcum?
Getdi mənə nə fə'lələyin badə, əkinçi?!
Lağ-lağ danışıb başlama fəryadə, əkinçi!

Aldı dolu əldən sərü samanını, neylim?
Yainki çəyirtkə yedi bostanını, neylim?
Verdin keçən il borcuna yorğanını, neylim?
Ol indi palas satmağa amadə, əkinçi!
Lal ol, a balam, başlama fəryadə, əkinçi!

Söz açma mənə çox çalışıb, az yeməyindən,
Canın bəcəhənnəm ki, ölürsən, deməyindən!
Mən gözləmənəm, buğda çıxar, ver bəbəyindən!
Çəltik də gətir, arpa da, buğda da, əkinçi!
Yoxsa soyaram lap dərini, adə, əkinçi!

Sən hey de yoxumdur, çıxarıb canını, allam!
Vallahi ovub dideyi-giryanını, allam!
Şallağə tutub peykəri-üryanını, allam!
Öz halını sal indi özün yadə, əkinçi!
Lağ-lağ danışıb başlama fəryadə, əkinçi!

Cütçü babasan, buğdanı ver, darı yeyərsən,
Su olmasa, qışda əridib qarı yeyərsən,
Daşdan yumuşaq zəhr nədir, marı yeyərsən,
Öyrəşməmisən ət-yağa dünyadə, əkinçi!
Heyvan kimi ömr eyləmisən sadə, əkinçi!

Lakin mənim insanlıq olub vəz'i-mədarim,
Bəyzadəyəm, asayişədir cümlə qərarim,
Meysiz, məzəsiz bitməz olur şamü nəharim;
İştə belədir haləti-bəyzadə, əkinçi!
Bəyzadələrin rəsmi budur, adə, əkinçi!..

## Fəhlə, özünü sən də bir insanmı sanırsan?!

Fəhlə, özünü sən də bir insanmı sanırsan?!
Pulsuz kişi, insanlığı asanmı sanırsan?!
İnsan olanın cahü cəlalı gərək olsun,
İnsan olanın dövləti, malı gərək olsun,
Hümmət demirəm, evləri ali gərək olsun;
Alçaq, ufacıq daxmanı samanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!

Hər məclisi-alidə soxulma tez arayə,
Sən dur ayaq üstə, demə bir söz ümərayə,
Caiz deyil insanca danışmaq füqərayə,
Dövlətlilərin kəndini yeksanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!

Fəqr ilə ğina əhlinə kim verdi müsavat?
Mənadə də, surətdə də var buna münafət,
Öz fəzlini pulsuz edəməz kimsə isbat,
Bu mümtənə qabili-imkanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!

Get vur çəkicin, işlə işin, çıxma zeyindən,
Məqsud müsavat isə ayrılma ceyindən,
Var nisbətin ərbabi-ğinayə nə şeyindən?
Bir abbasi gün mzdunu milyanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!

Dövlətliyik, əlbəttə, şərafətdə bizimdir,
Əmlak biizmdirsə, əyalətdə bizimdir,
Divan bizim, ərbabi hökümətdə bizimdir,
Ölkə dərəbəylik deyə xan-xanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!

Asudə dolanmaqda ikən dövlətimizdən,
Azğınlıq edirsiz hələdə nemətimizdən,
Böylə çıxacaqsınızmı bizim minnətimizdən?!
Ehsanımızın şükrünü küfranmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!

Heç bir utanırsan?!
Ya bir usanırsan?!
Əlminnətü-lillah,
Odlara yanırsan!

## Qorxuram

Payi-piyadə düşürəm çöllərə, -
Xari-müğilan görürəm, qorxmuram.

Seyr edirəm bərrü biyabanları, -
Quli-biyaban görürəm, qorxmuram.

Gah oluram bəhrdə zövrəqnişin, -
Dalğalı tufan görürəm, qorxmuram.

Gəh çıxıram sahilə, hər yanda min
Vəhşiyi-ğürran görürəm, qorxmuram.

Gah şəfəq tək düşürəm dağlara, -
Yanğılı vulkan görürəm, qorxmuram.

Gəh enirəm sayə tək ormanlara, -
Yırtıcı heyvan görürəm, qorxmuram.

Üz qoyuram gah neyistanlara, -
Bir sürü aslan görürəm, qorxmuram.

Məqbərəlikdə edirəm gəh məkan, -
Qəbrdə xortdan görürəm, qorxmuram.

Mənzil olur gəh mənə viranələr, -
Cin görürəm, can görürəm, qorxmuram.

Bu küreyi-ərzdə mən, müxtəsər,
Müxtəlif əlvan görürəm, qorxmuram

Xarici mülkündə də hətta gəzib
Çox tühaf insan görürəm, qorxmuram.

Leyk, bu qorxmazlıq ilə, doğrusu,
Ay dadaş, vallahi, billahi, tallahi,
Harda müsəlman görürəm, qorxuram!..

Bisəbəb qorxmayıram, vəchi var:
Neyləyim axır, bu yox olmuşların
Fikrini qan-qan görürəm, qorxuram,
Qorxuram, qorxuram, qorxuram!..

## Mən belə əsrarı qana bilmirəm

Mən belə əsrarı qana bilmirəm,
Qanmaz olub da dolana bilmirəm!..

Axtaxana, dağda dana böyüdü,
Mən böyük ollam haçana, bilmirəm!..

Derlər utan, heç kəsə bir söz demə, -
Həq sözü derkən utana bilmirəm!..

Neyləməli, göz görür, əqlim kəsir,
Mən günəşi göydə dana bilmirəm!..

Şiddəti-seylan ilə baran tökür,
Bir koma yox, daldalana bilmirəm!..

Derlər usan, hərzəvü hədyan demə, -
Güc gətirir dərd, usana bilmirəm!..

Derlər, otur evdə, nedim, kasıbam,
Kəsb eləməzsəm, qazana bilmirəm!..

Derlər, a qanmaz, de yıxıl, öl, qutar!
Hə, balam, doğrusu, ay dadaş, mən dəxi
Məsləhət ondan o yana bilmirəm!..

## Daş qəlbli insanları neylərdin, ilahi?!

Daş qəlbli insanları neylərdin, ilahi?!
Bizdə bu soyuq qanları neylərdin, ilahi?!

Artdıqca həyasızlıq olur el mütəhəmmil,
Hər zülmə dözən canları neylərdin, ilahi?!

Bir dövrdə kim, sidqü səfa qalmayacaqmış, -
Bilməm belə dövranları neylərdin, ilahi?!

Məzlumların göz yaşı dərya olacaqmış, -
Dəryaları, ümmanları neylərdin, ilahi?!

Səyyadi-cəfakardə rəhm olmayacaqmış, -
Ahuləri, ceyranları neylərdin, ilahi?!

Bağın, əkinin xeyrini bəylər görəcəkmiş, -
Töxm əkməyə dehqanları neylərdin, ilahi?!

İş rəncbərin, güc öküzün, yer özününkü, -
Bəyzadələri, xanları neylərdin, ilahi?!

Hökm eyləyəcəkmiş bütün aləmdə cəhalət, -
Dildadeyi-irfanları neylərdin, ilahi?!

Surtuqlu müsəlmanları təkfirə qoyan bu
Döşdüklü müsəlmanları neylərdin, ilahi?!

Yaxud buların bunca nüfuzu olacaqmış, -
Beş-üç bu süxəndanları neylərdin, ilahi?!

Qeyrətli danosbazlarımız iş bacarırkən, -
Tənbəl, dəli şeytanları neylərdin, ilahi?!

Ərlər hərə bir qız kimi oğlan sevəcəkmiş, -
Evlərdəki nisvanları neylərdin, ilahi?!

Tacirlərimiz Sonyalara bənd olacaqmış, -
Bədbəxt Tükəzbanları neylərdin, ilahi?!

Sübhanəkə, sübhanəkə, sübhanəkə, ya rəb!
Baxdıqca bu hikmətlərə heyran oluram həp!..

## Fisincan

Sanma əzdikcə fələk bizləri viranlıq olur,
Un təmənnası ilə buğda dəyirmanlıq olur!

Qarışıqdır hələlik millətin iste'dadı, -
Ələnirsə, safı bir yan, tozu bir yanlıq olur!

Çalxalandıqca, bulandıqca zaman nehrə kimi,
Yağı yağ üstə çıxır, ayranı ayranlıq olur!

Kim ki, insanı sevər, - aşiqi-hürriyyət olur,
Bəli, hürriyyət olan yerdə də insanlıq olur!

Ey ki, dersən, ürəfa rahi-xəta dersəm özün,
Elmi-məntiqcə bu söz bəhreyi-nadanlıq olur!

Ürəfa dersən özün, əhli-xətadə bulunur,
Düşünürsənmi bu sözdə necə hədyanlıq olur?

Gözünü xirələdirmi günəşi irfanın?
Haydı, xəffaşsifət, buncamı xulqanlıq olur?!

Tanırıq biz sizi artıq, demə ha, biz beləyik,
Tanılır ol kişi kim, tutduğu meydanlıq olur!

Baxmasız guşeyi-çeşm ilə fəqiranə tərəf,
Yüyürürsüz ora kim, dadlı fisincanlıq olur!..

## Var

Hər səri-muydə min aşiqi-nalanın var,
Məgər, ey şux ki, bir cismdə min canın var?

Leyliyə Qeys olur aşiq, sənə min-min Leyli,
Axtarırsan yenə bir aşiq, əcəb qanın var!

Xahişin tərki-dilü can idi, mən həm etdim,
Söylə, ey yar, görüm şimdi nə fərmanın var?

Eyd-əzhadə qoyun kəsmə, boyun qurbanı,
Aşiqi-zar kimi kəsməyə qurbanın var.

Suzi-binaleyi-pərvanəni gör, ey bülbül,
Səhni-gülzardə ancaq sənin əfğanın var.

Hər mərəz çarəsini eyləmək asandı, təbib,
Mərəzi-eşqə nə tədbir, nə dərmanın var?

Sabira, qərq edər axir səni bu seyli-bəla,
Olma qafil belə kim, dideyi-giryanın var.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 19 (2393) 31 may 2024-cü il

# 44 günlük ikinci Qarabağ savaşının sirləri

**Ermənilər elə düşünürdülər ki, işğal etdikləri torpaqları 50-60 il öz nəzarətlərində saxlayacaqlar. Çünki onların havadarları hər vəclə bu prosesi dondurmağa çalışır və ermənilərə arxa dururdular. Burda ataların bir misalı yada düşür: ”Arxalı köpək qurd basar”. Amma o köpəklərin daha dişləri əvvəlki kimi iti deyildi. Ən azından ona görə ki, Azərbaycan son 30 ildə iqtisadi, hərbi və sosial cəhətdən inkişaf etmiş, beynəlxalq aləmdə öz sözünü deməyi bacarmışdı. Heç kimə sirr deyil ki, ermənilər 30 il işğal etdikləri torpaqlarımızı öz xoşları ilə geri qaytarmaq istəmirdilər. Onlar nə BMT-nin 4 qətnaməsini icra edir, nə də digər beynəlxalq qurumların tövsiyələrini yerinə yetirirlərdilər.**

Sadəcə olaraq, düşünürdülər ki, bu prosesi nə qədər ləngitsələr, məsələlər də bir o



qədər onların xeyrinə olar. Təbii ki, Azərbaycan uzunmüddətli işğalla heç cürə razılaşa bilməzdi. Ulu Öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra 1994-cü ilin yanvarın əvvəllərində Füzulinin işğal altında olan 22 kəndi və Horadiz şəhəri yağı düşməndən azad edildi. Artıq Azərbaycan ermənilər üzərində ilk qələbəsini qazandı. Bundan ruhlanan ölkəmiz öz iqtisadi və hərbi qüdrətini daha da sürətlə inkişaf etdirməyə başladı. Prezident İlham Əliyev 20 illik fəaliyyəti dövründə demək olar ki, Azərbaycanın haqq səsi bütün beynəlxalq təşkilatlara və dünyaya çatdırdı. Artıq dünya yaxşı bilirdi ki, Azərbaycan ədalətli yol tutub və öz haqqını tələb edir. Ona görə heç kəs dövlətimizi və xalqımızı qınaya bilməz və bizə yuxarıdan aşağı baxmayacaqdı.

Belə bir məqamda ermənilər sərhəddin işğal etdikləri ərazilərimizdən yaşayış məntəqələrimizi, şəhərlərimizi və kəndlərimizi fasiləsiz olaraq atəşə tuturdular. Bu atəşlər sentyabrın əvvəllərində daha da şiddətləndi. Ona görə də Azərbaycan çıxış yolu axtardı və 2020-ci ilin sentyabrın 27-də Füzuli və Cəbrayıl istiqamətində əks hücuma keçdi. Ali Baş Komandan, Prezident İlham Əliyevin əmri ilə ordumuz elə ilk günlər ermənilərə ağır zərbələr endirdi. Daha doğrusu, bu zərbədən çox



”Dəmir yumruq” idi. Bu yumruğun zərbəsini görən ermənilər çaşbaş düşdülər. ”Ohanyan səddi” deyilən keçilməz mövqeləri Azərbaycan ordusu aslan kimi keçdi, onların mövqelərini darmadağın etdi. Sentyabrın 27-dən 30-na kimi Füzulinin və Cəbrayılın 8 kəndi və o cümlədən strateji əhəmiyyətli döyüş mövqeləri ermənilərdən azad edildi. Həmin yerlərə və yüksəkliklərə Azərbaycan bayrağı sancıldı.

Cəbrayıl şəhəri azad olunandan sonra isə böyük qələbəmizin böyük səhifəsi yazıldı. Bir-birinin ardınca işğal altında olan torpaqlarımızın azad edilməsi, heç şübhəsiz, erməni ordusunu onların zabitlərini və əsgərlərini ruhdan salırdı. Hələ üstəlik, çoxlu sayda ağır texnikalarını - tankların, artilleriya qurğularının və döyüş maşınlarının sıradan çıxması erməniləri daha da zəiflədirdi. Həmin istiqamətdə döyüşün şiddətlənməsi Hadrut şəhərinin azad olunması ilə nəticələndi. Bir neçə gündən sonra isə Füzuli şəhəri erməni işğalından təmizləndi və həmin yerlərə Azərbaycan əsgəri Azərbaycan bayrağını sancdı.

44 günlük ikinci Qarabağ savaşında qələbəmizin ən böyük sirri o idi ki, Prezident, ordu və xalq bir yerdə oldu. Onların bir yerdə olması təbii ki, böyük qələbəmizin açarı idi desək, səhv etmərik. Çünki bu üç qüvvə bir yerdə olmayanda, böyük qələbəni əldə etmək mümkün deyil. Elə bu üç qüvvə erməni ordusunu darmadağın elədi və noyabrın 8-də and yerimiz olan Şuşamızı Azərbaycanın Xüsusi Təyinatlıları və aslan kimi oğulları azad elədi. Bu gün də dünyanı ən çox təəccübləndirən və maraqlandıran Şuşanı necə və hansı yolla azad edilməsidir. Bu əməliyyat dünya hərb tarixində çox unikal hadisələrdən biridir. Unikallığı da ondan ibarətdir ki, min metrlərlə yüksəkliklərə çıxmağı bacaran Azərbaycan əsgəri yüngül silahlarla erməni əsgərlərini məhv etmiş, onların ağır texnikalarını ələ keçirmiş və bir neçə saatın içində şəhəri düşmən qüvvələrindən azad etmişlər.

Təbii ki, Şuşanın azad olunması ermənilərin belini qırdı və bütün ümidlərini heçə endirdi. Hansı ki, Hadrut və eləcə də Şuşa erməni işğalçılarından azad edilərkən ermənilərin Müdafiə Nazirliyinin sözçüləri onları aldadıb və yalan informasiya yayırdılar ki, Şuşa və Hadrut ermənilərin nəzarətindədir. Hətta bu yalanı ermənilərin Baş naziri Nikol Paşinyan da danışırdı. Atalar yaxşı deyib: ”Yalan ayaq tutar, ancaq yeriməz”. Onların da yalanı bir neçə gün çəkdi və bir neçə gündən sonra bütün Ermənistan bildi ki, Hadrut və Şuşa şəhəri Azərbaycan ordusunun nəzarətinə keçib. Artıq Azərbaycan ordusu Xankəndinin beş kilomertliyində idi. Laçın dəhlizi bağlanmış, ermənilərin iyirmi minlik əsgəri mühasirəyə düşmüşdü. Ona görə də noyabrın 10-da Ermənistanın Baş naziri Nikol Paşinyan məcbur olub 3 tərəfli bəyannaməyə imza atdı. Yəni onlar təslim aktı imzaladılar. Bir neçə aydan sonra isə bu bəyannaməyə əsasən ermənilər Ağdamı, Laçını və Kəlbəcəri boşaltdılar.

**Aydındır ki, Azərbaycanın möhtəşəm qələbəsi dünyaya göstərdi ki, bu ordunun qarşısındı nəinki erməni qüvvələri, heç onların havadarları da dayana bilməz. Çünki, bu ordu dünyanın ən güclü ordusundan biridir və ən müasir silahla və döyüş maşınları ilə təchiz edilib. Özü də Azərbaycanın apardığı müharibədə bir mülkü obyekt və bir mülki əhali zərər görmədi. Hansı ki, ABŞ-ın və eləcə də digər güclərin yaxın Şərqdə apardığı müharibə zamanı nə qədər şəhərlər dağılmış və mülki əhali ölmüşdü. Azərbaycan 44 günlük ikinci Qarabağ savaşı ilə dünyaya bəyan etdi ki, onun apardığı müharibə çox ədalətli və çox da unikal bir hərbi əməliyyatdır. Və bu hərbi əməliyyat bu gün də digər ölkələr tərəfindən araşdırılır və öyrənilir. Heç şübhəsiz Azərbaycanın bir dövlət kimi beynəlxalq nüfuzu ikinci Qarabağ savaşından sonra daha da artdı və yüksəldi.**

**FAİQ QİSMƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Məşqçi: "İdmanla məşğul olmaq dəb halına gəlib"

*Müsahibimiz idmançı Ramil Məmmədzadədir. Bu gün bizi idmanla xüsusən də fitnesslə bağlı maraqlandıran bir çox məqamlara aydınlıq gətirdi.*

**-Sizin xidmətinizdən daha çox kimlər faydalanır?**

-Ümumiyyətlə, fitness deyəndə ilk olaraq qadınlar yada düşür. Daha çox qadınlar fitnessə gəlir. Ancaq, bu, o demək deyil ki, fitnesslə yalnız qadınlar məşğul olmalıdır. Bu düşüncə kökündən yanlışdır. İstər qadın, istər kişi- hər kəs məşğul ola bilər. Bu, daha çox sağlamlıq üçün vacibdir.

Kişilərə fitnesslə məşğul olun deyəndə, gülürlər. Elə bilirlər ki, kişi ancaq küreyin böyütməlidir, iri çiyinləri olamlıdır. Xeyr, bu belə deyil. Fintess sağlamlıq üçün olduqca əlverişli idman növüdür.

**- Pərakəndə formada fintesslə məşğul olanlar onun müsbət deyil, əks təsirini görürlər , deyilmi?**

-Əlbəttə, doğru qeyd etdiniz. İndi "youtube"çilər yayılıb. Ordan bir- iki video izləyib özünə məşqçiyəm deyənlər var. Amma məşqçi ilk olaraq psixoloq olamlıdır. Qarşısındakı insanı rahatlıqla dinləyib onun nədən əziyyət çəkdiyini və nədən qurtulmaq istədiyini bilməlidir. Mütəxəsisə müraciət edəndə sağlamlıq da normal olur. Qeyri-peşəkara yaxınlaşanda isə əlbəttə, fitnessin fəsadları olacaq. Yəni, düzgün məşq prossesi getmirsə, necə ola bilər ki, hər şey qaydasında olsun? Bu mümkün deyil.

**-Sizə müraciət edən insanlar arasında çətin xarakterli insanlarla anlaşa bilirsiniz ?**

- Bəli, elə insanlar olur ki, arıqlamaq üçün fitnessə gəlir. Gəldiyi zamandan 1 ay keçir, ortada nəticə yoxdur. Çünki bu adam ancaq zalda şəkil çəkdirməyə gəlir. Qidalanmağına qətiyyən diqqət etmir. Arıqlamaq əvəzinə kökəlir. İnsanlar elə bilir ki, zala gəlib- gedəndə arıqlayırlar. İnsan hədər yerə gəlib-gedəndə yox, məşq edəyendə arıqlayır. Gün ərzində 40-45 dəqiqə fintesslə məşul olmağa kifayət edər.



İnsanlar var ki, birdən- birə arıqlamaq istəyirlər. Onlara izah edirəm ki, bu heç də yaxşı nəticələnmir. Sonra müxtəlif problemlər ortaya çıxır.

Bu gün idmanla məşğul olmaq dəb halına gəlib. Hər kəs idmanla məşğul olmağın reklam edir. Əslində həmin adamlar qətiyyən idmanla məşğul olmurlar. Sadəcə zalı reklam edirlər.

İnsanlar idmana maraq edirlər, gəlirlər, ancaq idmanla düzgün məşğul olmurlar.

**-Bu gün Azərbaycanda idmandan gəlir əldə etmək nə dərəcədə asandır?**

-Niyə də yox? Çox gözəl də gəlir əldə etmək olur. Hazırda qazancım idmandandır.

**-Boksla məşğul olan adamların müəyyən mərhələdən sonra davam etmək şanları olmur.**

-Profesional boksla məşğul olanlarda o problem olur, bəli. Əgər boksçu professional idmanla məşğul olursa, Federasiya o idmançıya sahib çıxmalıdır.

Azərbaycan Boks Federasiyasının çox gözəl büdcəsi var. Kəmaləddin müəllim idmançılara böyük dəstək olur. Ancaq çox təssüflər olsun ki, Azərbaycan Boks Federasiyasında Sovet dövründə olmuş "Ağdam bazarı"nı açıblar. Bu da bacarıqlı idmançıların kənarda qalmağına səbəb olur.

Bu gün mənim Azərbaycana Olimpiyadadan qızıl medal gətirməyə həm gücüm, həm də ağlım var. Amma ortada nələrsə var, mənə mane olur. Dünyaya boksu öyrədən Rusiya Federasiyasında , heç vaxt uduzmuram, orda "idman ustası" adına layiq görülürəm. Ancaq, gəlirəm Azərbaycan Çempionatının yarımfinal döyüşündə hansısa bir boksçuya mənim məğlub olduğumu elan edirlər. Mən sadəcə olaraq bu vəziyyətdən şoka düşürəm. Səbəb isə bəlli deyil.

**-Demək istəyirsiniz ki, Boksada da "sifariş" var ?**

-Dünyada ilk dəfə qumar boksda yaranıb.Sonra futbola da keçib. Ola bilsin ki, o vəziyyət hələ də boksda "genetik" olaraq qalıb.

Bu sahədə çox idmançını sındırıblar. Boks kasıbların idman növüdür. Yəni əsl boksçu həmişə kasıb olub.

**-Bütün bunlar güman ki, sizi də ruhdan salır...**

- Bu vəziyyət məni onsuzda ruhdan salıb. Mən Azərbaycanda zəif sayılıram. Niyə? Çünki, məndə "zəng" yoxdu

Beynəlxaq Turnirdə Rusiya boksçusu kimi çıxış etdim. Qalib oldum, Rusiya himni oxunanda kövrəldim. Rusiya kanalları məndən müsahibə alanda dedilər ki, siz necədə Rusiyanı sevirsiniz. Onlara izah etdim ki, mən ona görə kövrəlirəm ki, burda Azərbaycan himni də səslənə bilərdi. Ancaq təssüf ki, olmadı.

Ondan sonra onlar məni komandadan uzaqlaşdırdılar.

Mən öz ağlıma və bacarığıma güvənirəm. Bilirsiniz, Boks narkotikə bənzəyir. İnsanın bədəninə yeriyir. Ona vərdiş də demirəm heç, o çox böyük bir bəladır.

Ümid edirik ki, nə vaxtsa nəsə olacaq. Ancaq heç vaxt heç nə olmayacaq. Çünki burada möcüzə baş vermir. Burda hər şey "zəng"lə olur. Mən fitnessə görə Avropa da təhsil aldım ki, nə ilə məşğul oluramsa, o işdə mükəmməl olum. Azərbaycanda fitness üzrə özümü savadlı məşqçi hesab edirəm.

Qadın məşqçilər var ki, öz yan əzələlərini slikonla şişirdirlər. Sonra da insanlara sağlam arıqlamaq haqda "dərs keçirlər". Bir insan öz sağlamlığını düşünmürsə, bədəninə "yad" maddələr yeridirsə, başqasına hansı sağlamlıqdan danışa bilər?!

## Əməkdar artist: "Onları ilk dəfə efirə mən çıxarmışam"



**Əməkdar artist Könül Kərimova ilk dəfə efirə çıxardığı müğənnilərdən danışıb.**

Adalet.az xəbər verir ki, bu sözləri Əməkdar artist Könül Kərimova şou proqramların birində deyib. Müğənni bildirib ki, bir çox sənətçinin efirə o çıxardıb:

"Aparıcı olduğum vaxtlarda Nuri Sərinləndiricini ilk dəfə mən efirə çağırmışam. Günay İbrahimlini, Damlanı, Ülviyyə Tağıyevanı efirə mən çıxartmışam. Hər zaman da haqqımda danışırlar.

Eyni zamanda Şəbnəm Tovuzlunu da ilk dəfə mən çıxartdım. istedadlıya dəstək olmaq istəyirəm. Onsuz pislər dünyanı alıb gedirlər".

## Şəbnəm Tovuzlu: "Özümü o geyimdə sevmədim"



**Hər zaman şəxsi həyatı ilə gündəm olan Şəbnəm Tovuzlu bu dəfə də sükutu pozub.**

Adalet.az xəbər verir ki, o, özünə qadağa qoyduğunu etiraf edib:

" Əvvəl daha çox dar geyimlər geyinirdim. Bir gün evə gəldim bütün dar geyimlərimi(lasin, topik v.s) topladım, Mahirə xalaya (red: köməkçi) kimi neyləyirsən et. İstər yandır, istər kəs at, istərsə də kiməsə ver, özün bilərsən. Bir də belə geyimlər geyinməyəcəm. Daha çox özümə yaraşan xanım- xatın geyimlər geyinəcəm. Çünki özümü o geyimdə heç sevmədim".

## Vəfa Şərifova: "Hər addımımda onu arzulayıram"



**Müğənni Vəfa Şərifova ömrünün ən çətin anlarını dil gətirib.**

Adalet.az xəbər verir ki, o, anasının ölümünü hələ də qəbul etmədiyini bildirib:

"Anamı çox erkən itirmişəm. Hər addımımda onu arzulayıram. Qayğısına ehtiyac duyuram. Ancaq çalışıram ki, buna görə hər adamın yanında kövrəlməyim. Özümü toparlamağa çalışıram. Bilirsiniz ki, bir uşaq həmişə anadan yetim qalır. Bu, çox ağırdır".

## Müğənni ilə aparıcı arasında gərginlik yaranıb



**Müğənni Lunanın açıqlaması aparıcı Zaur Nəbioğlu sərt qarşılayıb.**

Adalet.az bildirir ki, o, sevgini pulla eyniləşdirib və pulsuz sevgini olmadığını söyləyib: "Ailəm istisna olmaq mənim üçün hər şey, hətta sevgi belə puldur. Pulsuz kişi məni sevə bilməz, hətta mənimlə sevgili belə ola bilməz. Çünki məni qəbul edən insan övladımı da qəbul etməlidir. Təkcə 8000 Azn övladımın aylıq təhsil haqqıdır. Bir kişi mənim yanında ola- ola o pulu mən ödəyirəmsə, niyə o insanla evlənim?Mənim qız övladım var. Mən pulsuz kişini gətirib Kristal stəkan kimi evdə saxlamalı deyiləm ki.

Aparıcı Zaur Nəbioğlu müğənninin fikrini yarımçıq kəsərək onunla razılaşmadığını söyləyib: "Sizinlə heç bir halda razı deyiləm. Bizim ata- analarımız birlikdə gözəl həyat qurublar. Zəhmətlə sevgi birləşəndə çox gözəl bir ömür olur. Bu düşüncənizin ülvi hislərlə qətiyyən əlaqəsi yoxdur. Bir qadının belə düşünməyini qəbul edə bilmirəm. Elə dəyərlərimiz var ki, onları pulla almaq olmaz. Sevgi, vicdan,ədalət, namus bunların heç birini pulla almaz mümkün deyil".

## "Qiyamət buzlağı" əriyir - Alimlərdən xəbərdarlıq

**Antarktidadakı "Qiyamət buzlağı" kimi də tanınan Thwaites buzlağı məhvə doğru gedir. Buzlağın əriməsi dəniz səviyyəsini əhəmiyyətli dərəcədə yüksəldə bilər. Yeni dəlillər göstərir ki, hazırda baş verənlər məhz bu cürdür.**

Adalet.az xəbər verir ki, PNAS jurnalında dərc edilən araşdırmaya görə, elm adamları bunu Thwaites'in isti dəniz suyu ilə basdığını göstərən yüksək ayırdetməli peyk radar məlumatları sayəsində öyrəniblər. Thwaites buzlağı, təxminən 80 mil əhatə edən və təxminən 2600-3900 fut dərinliyə çatan dünyanın ən geniş buzlağıdır.

Buzlaq təkbaşına qlobal dəniz səviyyəsinin dörd faiz artmasına töhfə verir. Thwaites çökərsə, ABŞ-nin Florida ştatı boyda buzlaq qlobal dəniz səviyyəsini təxminən 65 santimetr qaldıracaq.

Bununla belə, bu prosesdə Thwaites çökməsi dəniz səviyyəsinin təxminən 3 metr yüksəlməsinə səbəb olan digər ərimə hadisələrinə də səbəb ola bilər. Bu, iqlim dəyişikliyinin əsas etibarilə Thwaites-i zəiflətdiyini göstərən ilk hesabat deyil.

2021-ci ildə Amerika Geofizika Birliyinin (AGU) illik toplantısında tədqiqatçılar Amundsen dənizindəki okean suyunun istiləşməsinə davam etdiyi üçün Thwaites buzlağının sabitliyini pozmağa başladığını söyləyib. Bu isti su Thwaites buzlağında əriməyə davam edir və iqlimşünaslar 2021-ci ildə bununla bağlı narahatlıqlarını ifadə ediblər.

## Vüqar Muradov: "Geni dəyişmək lazımdır"



**Vüqar Muradovun açıqlaması izləyiciləri tərəfdən birmənalı qarşılanmayıb**

Adalet.az bildirir ki, müğənni subay oğlanlara başqa ölkənin xanımları ilə evlənməyi məsləhət görüb:

"Qızlar, oğlanlar çox balacadılar. Artıq cırtdanlaşma gedir. Bunlar hamısı qohum evliliyin nəticələridir. Qohum veliliklərin çox böyük fəsadları olur.

Qızların burunları böyük, oğlanların üz quruluşları nahamar, 150- 155sm boy cırtdanlaşma deməkdir. Geni dəyişmək lazımdır, dostlar.Digər millətlərin münayəndələri ilə evlənmək lazımdır.

Belə olan halda metis uşaqlar dünyaya gəlir. Metis uşaqlar da yaraşıqlı və istedadlı olurlar".

Sona Çərkəz Elçin Həsənova anası

**Şahnaz xanım Həsənovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Səhifəni hazırladı: Əntiqə Kərimzadə**


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100



Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az



Tiraj: 1500
Sifariş: 180
Çapa imzalanmışdır: 30.05.2024